Xalqın qəzeti!

# Xalq qəzeti

№ 210 (30904) 1 oktyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# İtaliya Azərbaycanın ikiqat strateji tərəfdaşıdır

## İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi

**Sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İtaliya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İtaliya Prezidentinə raport verdi.

İtaliya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın qarşısından keçdi.

Azərbaycan və İtaliya prezidentləri rəsmi foto çəkdirdilər.





## “Stratfor”un Qafqaz proqnozu: Azərbaycanın strateji çəkisi artır




Səhifə ⇨ 5

## Tbilisi Lüksemburq görüşünə niyə getməyəcək?



Səhifə ⇨ 8

## Azərbaycan–Özbəkistan media məkanlarının ortaq hədəfləri




Səhifə ⇨ 7

## Dekotininin “erməni yoluxması” ötüb keçmir

*Səfir hər çıxışı ilə Fransanın Ermənistan tərəfkeşliyini aşkar nümayiş etdirir*

**İkinci Qarabağ müharibəsi milli iradənin təntənəsi, bir xalqın yumruq kimi birləşməsinin parlaq nümunəsi kimi tarixə düşdü. Həmin günlərdə Azərbaycan haqq səsini dünyaya çatdırdı, torpaqlarını işğaldan azad etməklə tarixi ədaləti bərpa etdi. Amma bu da həqiqətdir ki, ölkəmizin zəfəri hamı üçün eyni mənanı daşımır. Torpaqlarımızın düşməndən təmizlənməsi kimlər üçünsə ədalətin bərpası anlamına gəlirsə, bəziləri zəfərimizə qısqanclıqla yanaşır.**



(ardı 5-ci səhifədə)

## COP29-un “yaşıl” hədəfləri gerçəkləşir



Səhifə ⇨ 7

## Kopırkinin “Zəngəzur mesajları”

*Rusiya “Tramp marşrutu”na qarşı*




**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Sünikə, yəni Zəngəzura səfər edib və səfəri çərçivəsində bölgədə işıq üzü görən “Sünyaç Yerkir” qəzetinə müsahibə verib. Ən sonda səfirin Sünikə səfərinin məsqədinə dair ehtimalımızı bölüşəcək və onun indiki məqamda Cənubi Qafqazdakı hansı ölkənin ali diplomatik təmsilçilərinə oxşadığından söz açacağıq. Hələlik isə Kopırkinin müsahibəsindəki ayrı-ayrı tezislərin üzərində dayanaq.**

(ardı 6-cı səhifədə)

## Diplomatik xəritəmizdə növbəti körfəz dövləti



Səhifə ⇨ 8

## Moldova təcrübəsi və postsovet məkanında “yumşaq güc”ün dinamikası



**Postsovet məkanında dövlətlərarası təsir və nüfuz mexanizmlərinin işləmə prinsipləri uzun müddət müxtəlif təcrübələrlə sınanmışdır. Moldova son dövrlərdə keçirilən prezident və parlament seçkilərində Avropa inteqrasiyaçı qüvvələrin ardıcıl qələbəsi ilə seçilərək bu proseslərin dinamikasını anlamaq üçün vacib bir nümunəyə çevrilmişdir. Nəticələr yalnız Moldova deyil, ümumilikdə region üçün də strateji dərs təqdim edir.**

Bütün bunlar postsovet məkanında demokratik institutların və elektoratın müstəqil qərarvermə qabiliyyətinin açıq nümunəsini təşkil edir. Prezident seçkilərindəki uğurla başlayaraq parlamentdəki eyni tendensiyanın təkrarlanması göstərir ki, uzun müddət regionda dominant təsir hesab olunan xarici amillər hədəf ölkənin siyasi trayektoriyasını avtomatik müəyyən edə bilmir.

(ardı 6-cı səhifədə)

## Azərbaycan cərrahiyyəsinin patriarxı



Səhifə ⇨ 10

# Liderlərin təkbətək görüşü



**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü keçirilib.**

# Prezidentlərin geniş tərkibdə görüşü



**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşü olub.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bu, İtaliya ilə Azərbaycan arasındakı dostluq, tərəfdaşlıq əlaqələrinin təzahürüdür.

Biz Sizinlə tez-tez görüşürük Romada və eyni zamanda, bu, Sizin Azərbaycana ikinci rəsmi səfərinizdir. Keçən il Sizinlə görüş zamanı mən Sizi Azərbaycana dəvət etmişəm və təşəkkür edirəm ki, dəvətimi qəbul etmisiniz. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin inkişafı göz qabağındadır. Biz artıq bir neçə vacib məsələni müzakirə etmişik. Bizim əməkdaşlığımız çoxşaxəlidir, demək olar ki, bir çox sahələri əhatə edir, energetikadan başlamış sənaye istehsalına qədər. Hazırda təhsil sektorunu da əhatə edən əməkdaşlıq doğrudan da strateji əhəmiyyət daşıyır və beş il bundan əvvəl imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə deyə bilərəm ki, tam icra edilir.

Bizim əlaqələrimiz, eyni zamanda, yerləşdiyimiz bölgənin inkişafı üçün də önəmlidir, bizim Avropa İttifaqı ilə əlaqələrimizə müsbət təsir göstərir. İtaliya həmişə bizim Avropa İttifaqı ilə daha sıx münasibətlərin qurulmasına öz dəstəyini vermişdir və biz buna görə Sizə minnətdarıq.

Təbii ki, energetika sahəsində bir çox əhəmiyyətli nəticələr var. Bu barədə biz artıq danışmışıq. İndi geniş tərkibdə bu müzakirəni davam etdirəcəyik. Nəticələrlə bağlı, əlbəttə ki, bir-birimizi haqlı olaraq təbrik edə bilərik. Amma bizim planlarımız daha genişdir. Həm İtaliya ilə ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bütövlükdə energetika sahəsində yeni layihələrin həyata keçirilməsi məsələləri çox vacibdir və biz bu məsələlər üzərində uğurla çalışırıq.

Sabah da çox gözəl tədbir olacaq – biz İtaliya-Azərbaycan Universitetinin yeni binasının açılışında birlikdə iştirak edəcəyik. Bu, əslində, bizim bir dostluq layihəmizdir və layihənin başlamasından icrasına qədər cəmi üç il vaxt keçib. 2022-ci ildə mənim tərəfimdən müvafiq Sərəncam verilmişdir və artıq yüzlərlə tələbə təhsilə cəlb edilib. Əlbəttə ki, onlar İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Həm gözəl təhsil alacaq, həm də ki, bizim aramızdakı dostluğu daha da möhkəmləndirəcəklər.

Bir daha Sizi salamlayıram və bir daha “Xoş gəlmisiniz!” deyirəm.

***

**İtaliya Prezidenti Sercio Mattarella çıxış edərək dedi:**

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə olduqca minnətdaram. Elə indicə, əvvəlki görüşümüzdə dedim ki, Bakıda yenidən olmağımdan çox məmnunam. Siz də qeyd etdiyiniz kimi, 7 il öncə etdiyim səfəri xatırlayıram. Həmin səfər çərçivəsində TAP-a böyük dəstək verməyə müvəffəq olduq. Buna görə də Sizə minnətdaram.

Eyni zamanda, Romaya etdiyiniz çox mühüm səfərləri mən xatırlayıram. Sizinlə apardığımız söhbətlər hər zaman dostluq və əməkdaşlığın rəmzi olub. Öz növbəmdə bildirdim ki, ölkələrimiz arasında strateji əməkdaşlığa tam dəstək veririk. Əməkdaşlığımız yüksələn xətlə artır, genişlənir və müxtəlif sahələri əhatə edir. Sabahkı tədbirə gəldikdə, Sizinlə birgə İtaliya-Azərbaycan Universitetinin tələbə şəhərciyinin açılış mərasimində iştirak etmək üçün dəvətinizə görə təşəkkür edirəm.

Tərəfdaşlığımız iqtisadi sahələrlə, çox vacib enerji və sənaye sektorları ilə məhdudlaşmır. O, həmçinin mədəniyyət, gənclərimiz üçün təhsil sahələrini əhatə edir. Bu məqam işbirliyimizin böyüklüyünü, onun möhkəmliyini göstərir.

Dəvətə görə təşəkkürümü bildirirəm və düşünürəm ki, bununla əməkdaşlığımız genişlənəcək, eyni zamanda, Sizin Avropa İttifaqı ilə münasibətlərinizə töhfə olacaq.

***

İtaliya Prezidenti Sercio Mattarella COP29-un ölkəmizdə yüksək səviyyədə keçirildiyini vurğulayaraq, həmin tədbirdə qəbul edilmiş qərarların əhəmiyyətinə toxundu. Qonaq, eyni zamanda, Vaşinqtonda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

# Azərbaycan və İtaliya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.**

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Bir daha sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda ikinci dəfədir. Birinci rəsmi səfər 7 il bundan əvvəl baş vermişdir. Bugünkü səfər onu göstərir ki, İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir və biz əsl strateji tərəfdaşlarıq.



Bizim görüşlərimiz tez-tez baş verir. Keçən il mən Prezident Mattarellanın qonağı idim və görüş zamanı onu Azərbaycana yenidən rəsmi səfərə dəvət etdim. Şadam ki, o, mənim dəvətimi qəbul edib və bu gün bizimlə birlikdədir.

Bizim aramızda iki strateji tərəfdaşlıq sənədi var. Birinci sənəd 2015-ci ildə imzalanmışdır. İkinci sənəd - Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə 5 il bundan əvvəl imzalanmışdır. Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz tez-tez görüşürük. İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır. Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda, bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik.

Bu gün Prezident Mattarella ilə söhbət əsnasında onun keçən səfərini xatırladıq. O vaxt TAP layihəsinin icrası məsələsi gündəlikdə idi. Müxtəlif problemli məqamlar mövcud idi və Prezident Mattarellanın səfərdən sonra şəxsən bu məsələyə müdaxilə etməsi, bu məsələnin tənzimlənməsi imkan verdi ki, TAP layihəsi uğurla icra edildi. 2020-ci ildən başlayaraq bu layihə vasitəsilə İtaliyaya Azərbaycan qazı ixrac edilir. Bu gün Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan 14 ölkəyə təbii qazı ixrac edir. İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Yəni, bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir, həm də biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı.

Mən Prezident Mattarellaya bu gün məlumat verdim ki, biz hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə işləyirik. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır. Yəqin ki, yaxın vaxtlarda hazır olacaq. Beləliklə TAP-ın və Cənub Qaz Dəhlizinin açdığı yol bu gün daha böyük layihələrə yol açır. Elektrik enerjisi, o cümlədən Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana və ondan sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi bizim əməkdaşlığımızın həcmini daha da artıracaq.

Keçən dəfə Prezident Mattarella Azərbaycanda səfərdə olanda biz birlikdə Sumqayıtda İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük bir sənaye müəssisəsinin açılışında iştirak etdik. Bu səfər zamanı isə sabah İtaliya-Azərbaycan Universitetinin açılışını qeyd edəcəyik. Yəni, bu dinamika, bu əməkdaşlıq çərçivələrinin genişləndirilməsi ilk növbədə bizim səmimi münasibətlərimizdən xəbər verir. Yəni, energetika, sənaye sahəsindəki əməkdaşlıq humanitar sahədəki əməkdaşlığa da yol açdı. Artıq İtaliya-Azərbaycan Universitetində yüzlərlə tələbə oxuyur və bu, bizim üçün yeni bir təhsil ocağı olacaq. Burada təhsil alan və alacaq tələbələr həm yüksək biliklərə malik olacaqlar, eyni zamanda, təbii olaraq İtaliyanın Azərbaycandakı, Azərbaycanın İtaliyadakı elçilərinə çevriləcəklər. Yəni bu, bizim dostluğumuzu daha da gücləndirəcək.



Bu gün danışıqlar zamanı biz, həmçinin Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında danışdıq. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik və son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində də müsbətə doğru addımlar atılır. Bu da bizi təbii olaraq məmnun edir.

Bir sözlə, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir. Hesab edirəm ki, bir-birindən uzaqda yerləşən ölkələr arasındakı münasibətlərin qurulması bizim timsalımızda bir örnək ola bilər.

Hörmətli cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

*

Sonra İtaliya Prezidenti bəyanatla çıxış edib.

## Prezident Sercio Mattarellanın bəyanatı

– Mən cənab Prezident İlham Əliyevə Azərbaycana yenidən səfər etmək üçün dəvətinə görə minnətdaram. Mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə də minnətdaram. Aramızda böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və İtaliya-Azərbaycan arasında münasibətlər inkişaf edir. Çox sağ olun ki, Siz mənə yeddi il əvvəl etdiyim səfərimi bir daha xatırlatdınız. Bu da əslində, çox böyük rəmzi xarakter daşıdı və cənab Prezident, təşəkkür edirəm ki, bu dəfə də məni ölkənizə dəvət etdiniz, səfərə gəldim. Əlbəttə ki, biz sabah İtaliya-Azərbaycan Universitetinin tələbələr kampusunun açılışını edəcəyik. Bu da o deməkdir ki, bir tərəfdən İtaliya universitetləri, digər tərəfdən Azərbaycan universitetləri əməkdaşlıq edəcəklər.

Cənab Prezident mənə bildirdi ki, yeddi il öncə biz böyük bir sənaye obyektinin açılışında olduq. Onu da qeyd etdi ki, bunun çox böyük rəmzi əhəmiyyəti var. Bu, artıq bizim enerji, sənaye əməkdaşlığımızdan sabaha açılan yeni bir yol oldu və İtaliya ilə Azərbaycan artıq mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığa başladılar. Bu, əslində strateji tərəfdaşlığımızın və 10 il əvvəl imzalanmış sazişdə qeyd olunanların tam, səmərəli şəkildə həyata keçirilməsi deməkdir. Bu, bizim ölkələrimizin münasibətlərini inkişaf etdirir. Bu, nəinki sənaye və enerji sahələrində, həmçinin mədəniyyət sahəsində də əməkdaşlıqdan xəbər verir.

Cənab Prezident burada qeyd etdi ki, sabah açılışını edəcəyimiz universitetdə təhsil alacaq çoxsaylı tələbələr ölkələrimiz arasındakı dostluğu daha da gücləndirəcəklər. Əlbəttə ki, bu münasibətlərə gəldikdə, ölkələrimiz arasında əlaqələr çox yaxşıdır və gördüyünüz kimi, bir neçə tədbirləri təşkil edirik. İndi növbəti tədbirimiz də olacaq. Təbii ki, bunu biz çox yüksək dəyərləndiririk. Əməkdaşlığımız - Azərbaycanın bizə açıqlığı, bizimlə gördüyü işlər, işbirliyimiz göz qabağındadır.

Mən Prezident Əliyevə bildirdim ki, sizin Avropa İttifaqı ilə əməkdaşlığınıza gəldikdə, İtaliya öz tərəfindən addımlar atacaqdır. Xüsusi qeyd edirəm ki, Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır. Avropa İttifaqı bunu görür və təbii ki, bizim sizinlə əməkdaşlığımız bu çərçivədə də çox əhəmiyyətli olacaqdır. Biz əlimizdən gələni edəcəyik ki, bu əlaqələr daha da artsın, inkişaf etsin və hər zaman daha çox yeni sahələri əhatə etsin, ölkələrimizin, xalqlarımızın rifahına xidmət etsin. Bu məqsədlə də mən Bakıya səfərə gəlmişəm. Cənab Prezidentə minnətdaram ki, ikinci dəfədir məni ölkəsinə dəvət edib. Təbii ki, Siz burada, həmçinin İtaliyanın rolunu da qeyd etdiniz. Buna görə mən Sizə təşəkkürümü bildirirəm. Həmçinin qonaqpərvərliyinizə görə minnətdaram.

Qeyd edim ki, sabah İtaliya ilə Azərbaycan arasında mədəniyyət sahəsində, təhsil sahəsində mühüm bir gün olacaq və biz sabah səhər birgə tədbirdə iştirak edəcəyik.

Prezident Əliyevlə atdığımız addım bizim qarşılıqlı anlaşmaya, dostluğa, əməkdaşlığımıza xidmət edən addım olacaqdır. İtaliya bu dostluqdan, əməkdaşlıqdan çox fərəhlənir və bunu ən yüksək səviyyəyə qaldırmaq fikrindədir.

# İtaliya Prezidentinin şərəfinə rəsmi ziyafət



**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib.**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**İtaliya Respublikasının Prezidenti Sercio Mattarella sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**




**Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

İtaliya Prezidenti Sercio Mattarellanı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

*AZƏRTAC*

# A.M.İsmayılova “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Anar Müslüm oğlu İsmayılova “general-mayor” ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# B.V.Əhmədova “ədliyyə general-mayoru” ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Bəhruz Vidadi oğlu Əhmədova “ədliyyə general-mayoru” ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il iyulun 21-də Pnompen şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Kamboca Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 10 mart tarixli 299 nömrəli, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2011-ci il 20 iyul tarixli 472 nömrəli, “Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və “Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 166 (Cild I); 2024, № 3, maddə 264, № 4, maddə 388, № 8, maddə 948) 2.15-ci bəndinə “ərazisində” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasında” sözləri əlavə edilsin.

**2.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 461 nömrəli və 5 avqust tarixli 469 nömrəli fərmanları) 5.34-2-ci və 5.34-3-cü bəndlərinə “ərazisində” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasında” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 461 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 19.0-cı bəndinə “bölmə rəisləri” sözlərindən sonra “, Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri və onun müavinləri” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 471 nömrəli və 13 avqust tarixli 478 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 26-3-cü hissəsindən “, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi” sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə 227) ilə təsdiq edilmiş “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi”nin 3.1.25-4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.1.25-4. Bakı şəhərinin inzibati ərazisində və Naxçıvan Muxtar Respublikasında nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), yeni avtomobil duracaqlarının (qarajlarının), habelə Bakı şəhərinin inzibati ərazisində mühafizə olunan duracaqların yaradılması (layihələndirilməsi, tikilməsi) ilə bağlı tədbirlər görmək və onların cari vəziyyətinə nəzarəti həyata keçirmək, habelə öz balansındakı mühafizə olunan duracaqları və avtomobil duracaqlarını (qarajlarını) idarə etmək;”.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# Azərbaycan–Əlcəzair əməkdaşlığının perspektivləri



**Sentyabrın 30-da Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Zakia İğhilini qəbul edib.**

Nazirlikdən bildirilib ki, tanışlıq xarakteri daşıyan görüşdə Azərbaycan ilə Əlcəzair arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub, əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivləri müzakirə edilib.

Nazir Sahil Babayev enerji sahəsində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı investisiya təşəbbüslərinin dəstəklənməsinin, eləcə də ticarət əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Mövcud investisiya göstəricilərinin hələlik aşağı olmasına baxmayaraq, qeyri-neft və qaz sektorunda əməkdaşlıq üçün böyük potensialın olduğu, logistika və turizm imkanlarının, hava nəqliyyatı əlaqələrinin, həmçinin bərpa və tikinti layihələrinin nəzərdən keçirilməsinin əhəmiyyəti qeyd olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Zakia İğhili fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşün sonunda maliyyə naziri səfirə Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

*XQ*

# Əməkdar artist Cabir İmanovla vida mərasimi

**Dünən Şəhriyar adına Mədəniyyət Mərkəzində Əməkdar artist Cabir İmanovla vida mərasimi keçirilib.**



Mərasimdə mərhumun ailə üzvləri, sənət dostları, dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Cabir İmanovun qardaşı, Əməkdar artist Tahir İmanov mərhumun yaradıcılıq yolundan danışıb. O bildirib ki, Cabirin sənəti, insanlara olan səmimiyyəti və vətənə bağlılığı heç vaxt unudulmayacaq.

Cabir İmanov Yasamal qəbiristanlığında dəfn edilib.

*XQ*

# AZƏRTAC və “Askanews” memorandum imzalayıb

**Azərbaycan Dövlət İnformasiya Agentliyi və İtaliyanın Askanews xəbər agentliyi əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu imzalayıb.**

Sənədə əsasən, agentliklər xəbər, foto və video mübadiləsi həyata keçirəcək, oxuculara və abunəçilərə Avropa və Asiyanı birləşdirən yeni multimedia və multiplatformalı informasiya kanalı təklif edəcəklər.

Tərəfdaşlıq İtaliya və Azərbaycan arasında ikitərəfli, regional və qlobal məsələlər üzrə əməkdaşlığı, habelə bu ölkələrin vətəndaş cəmiyyətləri arasında əlaqələri işıqlandırmaq məqsədilə agentliklər arasında informasiya mübadiləsini nəzərdə tutur.

*XQ*

# Baş nazir Əli Əsədovun Minskə səfəri

**Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurası üzvlərinin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşündə iştirak edib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Belarus Prezidenti MDB Hökumət Başçıları Şurası üzvlərini salamlayıb.

Görüşdə çıxış edən Əli Əsədov Prezident İlham Əliyevin salamlarını və ən xoş arzularını Aleksandr Lukaşenkoya çatdırıb.

Baş nazir, həmçinin Azərbaycan-Belarus iqtisadi əməkdaşlığının ikitərəfli gündəliyinə daxil olan məsələlərə toxunub.

*

**Həmin gün Baş nazir Əli Əsədov Belarusun Baş naziri Aleksandr Turçinlə görüşüb.**

Tərəflər dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə edib və iki ölkənin prezidentlərinin birgə səyləri nəticəsində qarşılıqlı faydalı tərəfdaşlığın dinamik inkişafını vurğulayıblar. Onlar iqtisadi-ticari və investisiya qarşılıqlı fəaliyyəti, sənaye kooperasiyası, o cümlədən kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Azərbaycan və Belarus dövlət başçılarının tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib, əldə olunmuş razılaşmalar çərçivəsində hazırlanmış bir sıra layihələrin həyata keçirilməsinin gedişi yüksək qiymətləndirilib.





*

**Əli Əsədov dünən Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirak edib.**

İclasda çıxış edən Baş nazir Ə.Əsədov iqtisadi-ticari əməkdaşlığı Azərbaycanın AİB-ə üzv ölkələr ilə əlaqələrinin fundamental vektoru kimi dəyərləndirib. O qeyd edib ki, 2025-ci ilin ilk səkkiz ayında Azərbaycanın AİB-ə üzv ölkələr ilə ticarət dövriyyəsi 22 faizdən çox artıb.

Baş nazir investisiya qarşılıqlı fəaliyyətinin müsbət dinamikasını qeyd edib. "Avrasiya İqtisadi Birliyinə (AİB) üzv ölkələrdən olan tərəfdaşlarımızın biznesləri Azərbaycan iqtisadiyyatının bir çox sahələrində geniş şəkildə təmsil olunur", - deyə o vurğulayıb. Baş nazir əlavə edib ki, buna ölkədəki etibarlı və şəffaf investisiya mühiti kömək edir.

O, həmçinin bildirib ki, Azərbaycan investorları AİB üzv dövlətlərində sənayenin geniş spektrini əhatə edən və onların iqtisadiyyatlarının inkişafına töhfə verən layihələri fəal şəkildə həyata keçirirlər.

Baş nazir əsas iqtisadi sektorlara qarşılıqlı sərmayə axınını təmin etmək üçün Azərbaycanın AİB üzvü olan bir neçə tərəfdaşla yaratdığı birgə investisiya fondlarının fəaliyyətinə toxunub: "Bu təşəbbüs artıq öz effektivliyini sübut edib və əməkdaşlıq üçün yeni üfüqlər açır".

Nəqliyyat-tranzit sektorunda əməkdaşlığa toxunan Ə.Əsədov bildirib ki, bu, qarşılıqlı ticarətin, investisiyaların artırılması, yeni iqtisadi imkanların inkişafı üçün mühüm potensiala malik olduğu üçün gündəlikdə xüsusi yer tutur.

"Avropa və Asiyanın kəsişməsində yerləşən və müasir infrastruktura malik Azərbaycan region ölkələri və tərəfdaşlarımız üçün yeni imkanlar yaradan etibarlı nəqliyyat və logistika habına çevrilib", - deyə o qeyd edib.

Nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində Azərbaycanın sistemli səyləri barədə danışan Baş nazir Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin artırılmasını və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsinin ikinci mərhələsinə start verildiyini diqqətə çatdırıb.

Ə.Əsədov Orta Dəhlizin əhəmiyyətini də vurğulayıb. O qeyd edib: "Son üç ildə bu dəhliz üzrə Azərbaycan ərazisindən keçən yükdaşımaların həcmi demək olar 90% artıb ki, bu da onun artan səmərəliliyinin və daha çox tələbat olmasının inandırıcı sübutudur".

Baş nazir bu kontekstdə Azərbaycanın əsas ərazisini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün əldə olunan razılaşmaların tarixi əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bu sazişlər tranzit marşrutlarının genişləndirilməsi, Azərbaycanın regional və qlobal logistikada rolunun gücləndirilməsi üçün yeni şərait yaradır.

Azərbaycan hökumətinin başçısı yeni dəhlizin Şimal-Cənub dəhlizi ilə yanaşı, Orta Dəhlizin də mühüm seqmentinə çevriləcəyinə əminliyini ifadə edib.

Xəzəryanı 5 dövlətin hamısının, o cümlədən İran nümayəndələrinin iclasda iştirak etdiyini nəzərə alaraq, Ə.Əsədov Xəzər dənizinin dayazlaşması məsələsinə də diqqət çəkib.

"Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə BMT kürsüsündə bu məsələnin vacibliyini bir daha vurğuladı. Təəssüf ki, Xəzər dənizinin ekoloji vəziyyəti sürətlə pisləşir. Xəzər regionunda potensial ekoloji fəlakətin qarşısının alınması Xəzəryanı ölkələrin təcili birgə səylərini tələb edir. Azərbaycan əvvəllər əldə edilmiş razılaşmalara sadiq qalaraq, bu problemin birgə həlli yollarını tapmaq üçün əməkdaşlığı gücləndirməyə hazırdır", - deyə Baş nazir bildirib.

Baş nazir, həmçinin AİB çərçivəsində başlanan antidempinq təhqiqatlarını qeyd edib. O, Azərbaycan mənşəli mallara – daha dəqiq desək, polietilen, polipropilen və propilen sopolimerlərə münasibətdə təhqiqatları, habelə alüminium lentləri ilə bağlı təkrar təhqiqatı xatırladıb. Əli Əsədov qeyd edib ki, qeyd olunan mallara antidempinq tədbirləri tətbiq edilərsə, Azərbaycanın AİB-yə ixracının ümumi həcmi əhəmiyyətli dərəcədə azala bilər.

Bu prosesdə iştirak edən Azərbaycan şirkətləri əməkdaşlığa açıqdır. Ümid edirik ki, araşdırmalar mümkün qədər real faktlara əsaslanacaq və nəticə Azərbaycanın AİB ölkələri ilə həm çoxtərəfli, həm də ikitərəfli səviyyədə ticarət əməkdaşlığına heç bir real ziyan vurmayacaq.

***XQ***

# Milli Məclisin payız sessiyasında ilk plenar iclas

*Gündəlikdə olan qanun layihələrinin müzakirəsindən əvvəl deputatlar cari məsələlər barədə danışdılar*



**Milli Məclisin 2025-ci il payız sessiyasının ilk plenar iclası öz işinə başlayıb. Spiker Sahibə Qafarova sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra spiker parlamentin ötən sessiyanı uğurla başa vurduğunu, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin qanunvericilik müstəvisində dəstəklənməsi üçün mühüm addımlar atıldığını vurğuladı. S.Qafarova qeyd etdi ki, bu il yaz və iki növbədənkənar sessiya keçirilib və son üç sessiyada 22 iclas baş tutub və 110 qanun, qərar qəbul olunub. Sessiyalararası dövrdə 20 deputat 10 ölkəyə 23 səfər edib, 5 beynəlxalq təşkilatın tədbirlərində iştirak edib, həmçinin 23 ölkənin nümayəndə heyəti, yəni 134 nəfər Milli Məclisdə qonaq olub.**

Milli Məclisin sədri çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin 25 sentyabrda Nyu-Yorkda BMT Baş Assambleyasında nitqinə diqqəti yönəldib. O, dövlət başçısının çıxışında Azərbaycanın 30 illik hərbi təcavüzdən qalib dövlət statusuna yüksəlməsini, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, bərpası, məcburi köçkünlərin geri qayıdışı və infrastruktur layihələrinin reallaşdırılması kimi mühüm məsələləri xüsusi vurğulayıb. Sahibə Qafarova qeyd edib ki, Azərbaycanın döyüş meydanında qazandığı qələbənin inkişaf və sabitlik modelinə çevrilməsi dünya üçün nümunədir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər yalnız region üçün deyil, daha geniş coğrafiya üçün önəmli mesaj xarakteri daşıyır. Spiker əlavə edib ki, Azərbaycan yeni bir mərhələyə qədəm qoyub və Milli Məclis bundan sonra da dövlət başçısının daxili və xarici siyasətini rəhbər tutaraq fəaliyyət göstərəcək.

*

Gündəlikdə duran məsələlərə keçməzdən əvvəl deputatlar cari məsələlərlə bağlı fikirlərini bildirdilər. Bu mərhələdə çıxış edən 10 deputat siyasi mövzularla yanaşı, sosial və məişət məsələlərinə də toxundular. Deputat Sahib Alıyev Prezident İlham Əliyevin BMT-dəki çıxışını triumfual çıxış kimi qiymətləndirdi. Daha sonra çıxış edən deputat Məlahət İbrahimqızı Prezident İlham Əliyevin BMT tribunasından çıxışını Azərbaycanın gördüyü işlərin manifesti adlandırıb. Deputat, həmçinin Ermənistan baş naziri Nikol Paşinyanın BMT-dəki çıxışına da münasibət bildirib və onun səsləndirdiyi fikirlərin Azərbaycanla imzalanması nəzərdə tutulan sülh sazişinə xələl gətirdiyini vurğulayıb: "Bu yanaşma bir daha "erməni xislətinin" əyani təsdiqidir. Azərbaycan tərəfinin TRIPP marşrutunu Zəngəzur dəhlizi adlandırması Ermənistanı qıcıqlandırır, lakin unudurlar ki, marşrut başqa, Zəngəzur başqa anlayışlardır və TRIPP marşrutunun keçdiyi ərazilər tarixən məhz Zəngəzur adlanıb. Ermənistan tərəfi kapitulyasiya faktından çəkinir, halbuki bu, müharibənin reallığıdır".

Növbəti çıxışçı, Mədəniyyət komitəsinin sədri Fazil Mustafa diqqəti ictimai nəqliyyat sahəsinə yönəltdi. Parlamentarinin sözlərinə görə, hər bir cəmiyyətdə önəmli məsələlərdən biri ictimai nəqliyyatın əlçatanlığıdır: "Metro və avtobusda gediş haqqının artmasının iqtisadi səbəbləri izah oluna bilər, amma tələbələr, pensiyaçılar, əlillər və digər imtiyazlı qruplar üçün müəyyən güzəştlər hələ də təmin olunmayıb. Digər tərəfdən, hava limanından daşınma məsələsinin indiyə qədər çözülməməsi ciddi problem yaradır. Hörmətli Ombudsman məsələyə münasibət bildirdi və taksilərdə inhisarçılığın aradan qaldırılmasını gündəmə gətirdi. Təsəvvür edin ki, Naxçıvandan Bakıya gələn yoxsul vətəndaş 60 manat bilet üçün ödəyir, sonra şəhərə getmək üçün taksiyə 40 manat xərcləməlidir. Biz ictimai nəqliyyatı vətəndaşlara nümunəvi xidmət göstərən modelə çevirməliyik".

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə çıxışında bildirdi ki, Şəhidlər xiyabanı xalq tərəfindən qəhrəmanlığın ünvanı və milli kimliyin pasportu kimi qəbul edilir. O, tətil dövründə Şəhidlər xiyabanında üç əcnəbinin qeyri-etik davranışı ilə bağlı bu məkanın hüquqi statusunun müəyyənləşdirilməsi üçün xüsusi qanunun qəbuluna zərurətin yarandığını bildirdi. Deputat sözlərinə əlavə etdi ki, yeni qanun şəhidlərin xatirəsinin yad edildiyi məkanda ictimai davranış qaydaları, ziyarət mədəniyyəti, protokollar və təhlükəsizlik tədbirlərini əhatə edə bilər: "Əgər xiyabanlar haqqında qanun olsaydı, xalqı ruhən birləşdirən məkanlar xüsusi günlərdə ziyarətləri protokollaşdırmağa və milli-mənəvi yaddaşı canlı saxlamağa kömək edərdi".

*

Cari məsələlər ətrafında çıxışlardan sonra plenar iclasın gündəliyinə daxil edilən 12 məsələ üzrə müzakirələr başladı. İlk olaraq, Milli Məclis 27 Sentyabr - Anım Gününün beşinci ildönümü ilə əlaqədar bəyanat qəbul etdi. Bəyanat Milli Məclisin deputatı Azər Əmiraslanov tərəfindən səsləndirildi. Bəyanatda 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi və Azərbaycanın əldə etdiyi tarixi qələbə barədə məlumatlar yer alıb. O cümlədən sənəddə 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktına imza atması, 2023-cü ilin sentyabrında lokal antiterror əməliyyatları nəticəsində respublikanın suverenliyinin tam təmin edilməsi, Qarabağda həyata keçirilən abadlıq-quruculuq işləri, bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamənin əhəmiyyəti kimi məsələlər öz əksini tapıb. Bəyanat səsə qoyularaq qəbul edildi.

Daha sonra bir sıra beynəlxalq sənədlər üzrə qanun layihələri müzakirəyə çıxarıldı. Bunların arasında "Ozon qatını dağıdan maddələr haqqında" Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiqlənməsi vardı. "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq" barədə layihə də müzakirə olundu. Həmçinin, Müstəqil Dövlətlər Birliyin dövlətlərinin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirlərində əməkdaşlıq Sazişi təsdiq üçün təqdim edildi. "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş" də ilk oxunuşda müzakirə olundu.

Qanun layihələrinə, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında 2026-cı ildə İllik Toplantıların təminatlarına dair Anlaşma Memorandumunun təsdiqi daxil idi. Son olaraq, "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə qanun layihəsi də müzakirə olundu. İclasda müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı. Qanun layihələri səsə qoyuldu və yekdilliklə qəbul olundu.

***Tacir SADIQOV***
***XQ***

# Prokurorluq işçilərinin bayramı şərəfinə "yaşıl" aksiya

**Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü, habelə 1 Oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə sentyabrın 30-da Baş Prokurorluq, Hərbi Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, prokurorluğun veteranları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi, nazirliyin əməkdaşları, Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, eləcə də könüllülərin iştirakı ilə növbəti ağacəkmə kampaniyası keçirib.**



Tədbir çərçivəsində Abşeron yarımadası və Naxçıvan Muxtar Respublikasında torpaq-iqlim şəraitinə uyğun ümumilikdə 1500-dən çox zeytun və Eldar şamı ağacları əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

# Konstitusiya Məhkəməsində Türkiyə heyəti ilə görüş



**Sentyabrın 30-da Konstitusiya Məhkəməsində Azərbaycanda səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Fahrettin Altunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Sədr Fərhad Abdullayev Məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verərək, Azərbaycan-Türkiyə əlaqələrinin Ulu öndər Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" tezisinə əsaslandığını bildirib. O, iki qardaş ölkə arasında sarsılmaz münasibətlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində durmadan inkişaf etdiyini vurğulayıb.

Qeyd olunub ki, tarixin ən önəmli anlarında dövlətimizə dayaq olmuş qardaş Türkiyənin 44 günlük Vətən müharibəsində və Azərbaycanın Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı ölkəmizin yanında olması xalqımız tərəfindən daim yüksək qiymətləndirilir.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Fahrettin Altun yüksək qonaqpərvərliyə görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edib. O bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də sıx əməkdaşlıq qarşılıqlı dəstək və anlaşma əsasında uğurla inkişaf edəcək.

Söhbət zamanı geniş fikir mübadiləsi aparılıb, insan hüquq və azadlıqlarının qorunması və digər hüquqi məsələlər müzakirə olunub.

***XQ***

# Azərbaycan–ABŞ münasibətləri və regional təhlükəsizlik



**Sentyabrın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun baş müşaviri Vayat Tolki, səfirliyin müvəqqəti işlər vəkili Emi Karlonla görüşüb.**

Söhbət zamanı Azərbaycan–ABŞ münasibətləri, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumundan irəli gələn məsələlər, Azərbaycan-Ermənistan normallaşma prosesi və bu çərçivədə Vaşinqton razılaşmalarının icrası, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə rəsmiləri və nümayəndələri tərəfindən həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərin inkişafında əhəmiyyətli yer tutduğu qeyd edilib.

***XQ***

# "Stratfor"un Qafqaz açıqlaması: Azərbaycanın strateji çəkisi artır

## *Bakının regional önəmi yüksəlir, İrəvanın daxili gərginliyi kəskinləşir*




**Qarabağ məsələsinin müharibədən sonrakı nizamlanması Cənubi Qafqazda tarixi strateji yenidənqurmaya gətirib çıxaracaq. Bu, Azərbaycanın Şərq–Qərb tranzit qovşağı kimi rolunu gücləndirəcək, Ermənistanı isə daxili iğtişaşlar qarşısında həssas, kövrək edəcək. Bu barədə "Stratfor" analitik mərkəzinin proqnozunda bildirilir.**

Hesabatda qeyd edilir ki, Ermənistan Avropa İttifaqı ilə yeni tərəfdaşlıq gündəliyi imzalamaq da daxil olmaqla, tədricən Qərbə meylini davam etdirəcək. Rusiya ilə ikitərəfli ticarət dövriyyəsi azalmağa davam edəcək, lakin Moskvanın yararlana biləcəyi kənd təsərrüfatı, energetika və əmək miqrasiyası sferasında dərin struktur əlaqələri qalmaqdadır. Bildirilir ki, Rusiya ilə təhlükəsizlik sahəsində əlaqələrin zəifləməsi və Qərbin məhdud dəstəyi şəraitində Ermənistan ikitərəfli münasibətlərin pisləşəcəyi təqdirdə Azərbaycanın "təcavüzünə" (?) qarşı həssas olaraq qalacaq. Bakı ilə sülh sazişi fonunda Ermənistanın Azərbaycanı "sakitləşdirmək" üçün konstitusiya islahatlarına dair daxili həssaslığı siyasi gərginliyi artıra bilər ki, bu da uzun sürən potensial etirazlara gətirib çıxarar.

Proqnoza əsasən, Azərbaycan Rusiya ilə praktiki məsafə saxlayaraq, eyni zamanda, iqtisadi əlaqələri kəsmədən, enerji və logistika mərkəzi rolundan yararlanaraq regional güc kimi çıxış edəcək. Azərbaycanın artan regional rolu Orta Dəhliz boyu ticarətin həcminin artması və Avropa İttifaqına qaz ixracının genişləndirilməsi ilə şərtlənəcək. Qeyd edilib ki, Brüssellə daha sıx əlaqələr Ermənistanla kövrək sülh prosesinin irəliləməsinə şərait yaradacaq.

"Stratfor", həmçinin hesab edir ki, oktyabrın 4-də Gürcüstanda keçiriləcək yerli özünüidarəetmə orqanlarına seçkilərdən sonra Aİ-yə üzvlük prosesinin rəsmi şəkildə dayandırılması baş verə bilər. Bu isə əhalinin qərbyönlü təbəqəsi ilə fikir ayrılığının dərinləşməsinə gətirib çıxarar: "Separatçı regionların varlığı Gürcüstanın milli təhlükəsizliyi üçün əsas çağırış olaraq qalsa da, Tbilisi Rusiya ilə münaqişəsiz birgə yaşayışı davam etdirəcək".

*

Hesabatın təhlilinə keçməzdən öncə qeyd edək ki, "Stratfor" (Strategic Forecasting Inc.) ABŞ-da fəaliyyət göstərən, 1996-cı ildə Corc Fridman tərəfindən təsis edilmiş nüfuzlu özəl analitik mərkəzdir. Əsasən geosiyasi risklər, təhlükəsizlik, enerji və iqtisadiyyat sahələrində proqnozlar hazırlayır. "Stratfor"un fərqi ondadır ki, onun proqnozları hökumətlərə deyil, daha çox biznes dairələrinə, investorlar və beynəlxalq şirkətlərə istiqamətlənir. Mərkəz illik və dövri hesabatlarında böyük güclərin qarşılıqlı rəqabəti, regional münaqişələr və qlobal iqtisadi trendlər üzrə ssenarilər irəli sürür. Çox vaxt proqnozları dəqiq olur, amma bəzən ehtimalların tam təsdiqini tapmadığı hallar da yaşanır. Bu baxımdan "Stratfor"un yanaşmaları mütləq həqiqət kimi deyil, hadisələrin mümkün inkişaf trayektoriyası kimi dəyərləndirilir. Mütəxəssislər hesab edirlər ki, mərkəzin güclü tərəfi onun geniş məlumat bazası və analitik komandasının təcrübəsidir. Buna görə də "Stratfor"un açıqlamaları beynəlxalq münasibətləri izləyən jurnalistlər və ekspertlər üçün etibarlı mənbə sayılır. Mərkəzin son proqnozu xüsusilə, İkinci Qarabağ müharibəsindən sonrakı regional proseslərin dinamikasını anlamaq baxımından diqqətəlayiqdir.

"Stratfor" hesab edir ki, Ermənistan müharibədəki məğlubiyyətdən sonra Qərbə inteqrasiya kursunu daha çox davam etdirəcək. Brüssellə yeni tərəfdaşlıq gündəliyinin imzalanması və Avropa institutları ilə yaxınlaşma cəhdləri bu xəttin tərkib hissəsidir. Lakin bu prosesin asan olmayacağı da vurğulanır. Çünki Moskva ilə tarixi, siyasi, iqtisadi və sosial əlaqələr, xüsusilə kənd təsərrüfatı, energetika və əmək miqrasiyası sahəsindəki qarşılıqlı asılılıq qırılmayıb. Rusiya ilə təhlükəsizlik əməkdaşlığının zəifləməsi fonunda Qərbin də Ermənistana məhdud dəstək göstərməsi İrəvanın strateji dilemmasını daha da dərinləşdirir. Bu səbəbdən Ermənistan üçün Qərbə yaxınlaşma prosesi daxildə siyasi gərginliyi artıracaq, konstitusiya islahatları ətrafında mübahisələr və potensial etirazlar riski böyüyəcək.

Ancaq "Stratfor"un "Ermənistan ikitərəfli münasibətlərin pisləşəcəyi təqdirdə Azərbaycanın "təcavüzünə" (?) qarşı həssas olaraq qalacaq" yanaşması birtərəfli və qeyri-obyektivdir. Azərbaycanın siyasəti beynəlxalq hüquqa əsaslanır və müharibədən sonra sülh sazişi istiqamətində ardıcıl təşəbbüslərlə müşayiət olunur. Ermənistanın daxili siyasi gərginliyini və ya Qərblə münasibətlərini Bakının "təcavüz" riski kimi təqdim etmək faktlara söykənmir. Əksinə, regionda yeni gərginlik təhlükəsi əsasən Ermənistan daxilindəki siyasi qeyri-sabitlikdən qaynaqlana bilər. Beləliklə, proqnozun bu hissəsi reallığı əks etdirməkdən çox, köhnə stereotiplərin davamı təsiri bağışlayır.

Bütövlükdə, ölkəmiz proqnozda daha fərqli mövqedə göstərilir. Qeyd edilir ki, Bakı Rusiya ilə münasibətlərdə strateji məsafə saxlayaraq, iqtisadi əlaqələri pozmadan öz enerji və logistika imkanlarından maksimum yararlanacaq. Azərbaycanın Orta Dəhliz boyu tranzit mərkəzinə çevrilməsi və Aİ-yə qaz ixracının genişlənməsi bu siyasətin təməlində dayanır. Azərbaycanın son illər balanslaşdırılmış xarici siyasət xətti ona həm Brüssellə, həm də qardaş Türkiyə ilə strateji müttəfiqliyi dərinləşdirərək, regionda söz sahibi olan əsas gücə çevrilmək imkanı verib.

Azərbaycanın regional güc kimi yüksəlişi yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır. Ölkəmiz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə yanaşı, yeni enerji layihələri və rəqəmsal infrastruktur sahəsində də liderliyini möhkəmləndirir. Bu, həm də beynəlxalq tərəfdaşların Azərbaycana olan marağını artırır. İstər Aİ-nin enerji təhlükəsizliyi, istərsə də Mərkəzi Asiya ilə Qərb arasında dayanıqlı ticarət marşrutları üçün Bakı mühüm strateji tərəfdaş sayılır.

Cənubi Qafqazın digər vacib oyunçusu Gürcüstan da proqnozun diqqət mərkəzindədir. "Stratfor" bildirir ki, bu ölkədə oktyabrın 4-də keçiriləcək yerli seçkilərdən sonra Aİ-yə üzvlük prosesinin dayanması ehtimalı böyükdür. Bu isə daxili gərginliyi dərinləşdirə bilər. Separatçı regionların mövcudluğu Gürcüstanın milli təhlükəsizliyinə əsas çağırış olaraq qalacaq, lakin Tbilisi Rusiya ilə münaqişəsiz birgəyaşayış siyasətinə üstünlük verəcək. Bu məqam göstərir ki, regionun hər üç dövləti fərqli istiqamətlərə yönəlsələr də, onları ortaq məxrəcə gətirən amil sabitlik və iqtisadi əməkdaşlıq ehtiyacıdır.

Bütövlükdə, "Stratfor"un proqnozları Cənubi Qafqazda son illər baş verən prosesləri düzgün oxumağa imkan verir. Müharibədən sonrakı dövr göstərdi ki, region daha yalnız geosiyasi qarşıdurmalar meydanı deyil, yeni əməkdaşlıq formatlarının formalaşdığı məkandır. Azərbaycan bu prosesdə aparıcı rol oynayaraq, həm iqtisadi, həm də diplomatik imkanlarını balanslaşdırılmış siyasətə yönəldir. Ermənistan isə hələ də seçimini tam etməyib və bu tərəddüd onun daxili siyasi sabitliyi üçün ciddi sınaqlara yol açır.

Mərkəzin proqnozu bir daha təsdiqləyir ki, Cənubi Qafqazın gələcəyi ölkələrin milli maraqlarını düzgün müəyyənləşdirməsindən və onların regional əməkdaşlıqdan nə dərəcədə bəhrələnməsindən asılı olacaq. Azərbaycanın tranzit qovşağı kimi rolu və sabit siyasi kursu bu mənzərədə aparıcı xətti təşkil edir. Bu isə ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, sülh və sabitlik üçün yeni imkanlar açır.

***Səxavət HƏMİD***
***XQ***

---

# Dekotininin "erməni yoluxması" ötüb keçmir

**(əvvəli 1-ci səhifədə)**

Bu "bəziləri"nin sırasında ilk yerdə Fransa dayanır. Rəsmi Paris illərdir bölgədə özünü sülh vasitəçisi kimi təqdim etsə də, əslində, Ermənistanın açıq himayədarı olub. Bu gün də həmin siyasət dəyişməyib, daha kobud və açıq şəkildə davam edir. Görünür, Fransa bütün əndazələri aşmaqda israrlıdır. Ona görə də ölkənin Ermənistandakı səfiri Olivye Dekotininin bugünlərdə sosial şəbəkədə erməni işğalçılarını anması təəccüb doğurmamalıdır. Xəbis niyyətli səfirin Jan Koktonun sitatı ilə paylaşdığı statusda qeyd olunub: "Ölülərin həqiqi məzarı dirilərin ürəyidir". Dekotininin paylaşımı Fransanın illərdir davam edən destruktiv mövqeyinin göstəricisidir. Səfirin diplomatik fəaliyyətinə nəzər saldıqda, uzun müddətdir ardıcıl şəkildə anti-Azərbaycan ritorikasından istifadə etdiyi aydın görünür. Dekotini ötən ilin martında etdiyi paylaşımda, guya, "Qarabağ ermənilərinin geri qayıtmaq hüquqlarının pozulduğunu" iddia etmiş, burada yaşayan 100 min erməninin "doqquz aylıq blokadadan və Azərbaycanın qəddar hücumundan sonra evlərini tərk etməyə məcbur qaldığını" yazmışdı. Şübhəsiz, bu cür bəyanatlar Azərbaycanın beynəlxalq hüquqa söykənən mövqeyini kölgələməyə, reallığı saxtalaşdırmağa xidmət edən siyasi manipulyasiyadan başqa bir şey deyil.

**Ekspert rəyi**



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

**Hər zaman erməni sevgisi ilə məşhur olan Fransa Cənubi Qafqaz maraqlarını təmin etmək üçün Ermənistanı bütün platformalarda dəstəkləyir. Uzun illər ərzində anti-Azərbaycan siyasəti ilə seçilən Fransanın müxtəlif ölkələrdəki səfirləri bəyanatları və mövqeyi ilə özlərini Ermənistanın bir məmuru kimi aparıblar.**

Təəssüf ki, eyni tendensiya müharibənin başa çatması və hətta Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra da davam edir.

Bunların hamısı Fransanın sağlam xarici siyasət apara bilməməsi və ya aparmaq istəməməsindən qaynaqlanır. Bu ölkənin Ermənistandakı səfiri Olivye Dekotininin anım günündə məhz erməni işğalçılarını yad etməsi növbəti anti–Azərbaycan siyasətinin nümunəsidir.

Fransa bu davranışları ilə, əslində, bir daha özünün ikili siyasətini nümayiş etdirir və Makronun 8 avqust Vaşinqton anlaşmasını alqışlamasının da quru bəyanatdan başqa bir şey olmadığını ortaya qoyur. Bu, əslində, onu sübut edir ki, Fransa Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasından, sülhün əldə edilməsindən məmnun deyil. Əslində, sülh istəyən, onu alqışlayan ölkənin siyasəti münasibətlərin gərginləşməsinə yox, yumşaldılmasına yönəldilməlidir. Ayrı-ayrı dövlətlərdə fəaliyyət göstərən səfirlərin öz ölkələrinin maraqlarını müdafiə etdiyini nəzərə alsaq, o zaman deyə bilərik ki, Fransanın İrəvandakı səfirinin mövqeyi Yelisey sarayında əyləşənlərin mənfur niyyətindən irəli gəlir. Dekotininin nə deməsindən asılı olmayaraq həqiqət hər kəsə məlumdur.

Prosesə sadəcə bir diplomatın şəxsi mövqeyindən yanaşmaq düzgün olmaz. Fransanın Cənubi Qafqaz siyasətinə nəzər yetirdikdə eyni tendensiyanın illərdir davam etdiyini görmək mümkündür. ATƏT-in keçmiş Minsk qrupunda həmsədr olduğu dövrdə Paris formal olaraq "neytral vasitəçi" rolunu üzərinə götürsə də, əslində, Ermənistanın maraqlarını müdafiə edib, münaqişənin real həllini daim əngəlləyib. Azərbaycanın öz ərazilərinə suveren nəzarəti bərpa etməsi və Minsk qrupunun "tarixi missiyasının" aradan qalxması Fransa üçün həm geosiyasi, həm də simvolik məğlubiyyətə çevrilib. Bu gün də Fransanın siyasi spektrində – istər sağ, istərsə də sol qüvvələr arasında Qarabağ məsələsinə münasibətdə ciddi fərqlərin olmadığı müşahidə edilir. Müxtəlif partiya və siyasi qruplaşmalar bölgə siyasətində faktiki olaraq eyni xətti izləyir və bu dəstək siyasi, maliyyə və hərbi müstəvidə özünü göstərir. Siyasi müstəvidə məsələni təhlil etdikdə görürük ki, Milli Məclis və Senatda qəbul olunan qətnamələrdə Azərbaycan "təcavüzkar", Ermənistan isə "zərərçəkən" kimi qələmə verilir. Bu sənədlər hüquqi qüvvəyə malik olmasa da, Fransanın siyasi institutlarının mövqeyi ilə birbaşa əlaqəlidir. Maliyyə müstəvisində "islahatlara dəstək" adı altında həyata keçirilən proqramlar Ermənistanın hərbi və diplomatik resurslarını artırmağa xidmət edir. Bu da rəsmi Parisin regionda ikibaşlı yanaşma sərgilədiyini göstərir. Hərbi müstəviyə gəldikdə isə Fransanın zaman-zaman Ermənistana açıq şəkildə silah tədarükü, həmçinin fransız hərbi mütəxəssislərin erməni ordusuna təlimlər keçməsi artıq gizlədilməyən, faktlara əsaslanan reallığa çevrilib.

Dekotininin "erməni xəstəliyi" bu ilin yanvarında da baş qaldırmışdı. O, Milad bayramı münasibətilə səsləndirdiyi açıqlamada Qarabağdan könüllü şəkildə çıxıb gedən ermənilərin "dramını" qabartmağa



çalışmışdı. Səfir bəyan etmişdi ki, guya, "Qarabağın məcburi köçkünləri bu il də Milad bayramını evlərindən uzaqda qeyd edirlər". Burada həm qərəz, həm də manipulyasiya var. Çünki hamıya məlumdur ki, Qarabağdan kimsə zorla qovulmayıb. Onlar özləri könüllü şəkildə çıxıb gediblər. Azərbaycan həmin əhalinin qalması üçün təhlükəsizlikdən tutmuş, sosial təminata qədər bütün zəruri addımları atmışdı. Amma separatçılıq ideologiyasının təsiri altında olanlar, eləcə də İrəvanın təbliğat maşınının diktəsi ilə yaşayanlar qalmaq əvəzinə, köçüb getməyi seçdilər. İndi isə Fransa diplomatı bu faktı təhrif edərək məsələni saxta "məcburi köçkünlük" obrazı üzərindən təqdim etməyə çalışır. Azərbaycan kimisə nə qovub, nə də qaçırdıb. Gedənin qarşısını almaq nə hüquqi, nə də mənəvi baxımdan mümkün idi. Amma Olivye Dekotini və onun kimi qərəzli şəxslər bu reallığı görmək istəmirlər. Çünki onların məqsədi Azərbaycanı hədəfə almaqdır.

Dekotininin "bulanıq sularda balıq tutmaq" macəraları bunlarla da bitmir. Səfir ötən il Göy məscid və İranın Qərbi Azərbaycan vilayəti haqqında iki paylaşım etmişdi. Onun paylaşımı Azərbaycanın və İranın hərbi təlimləri fonunda çaşqınlıq və mübahisələr yaratmışdı. Səfehliyindən əl çəkməyən səfir məscid haqqında paylaşımında yazmışdı: "İrəvandakı Göy məscidin bağları Ermənistanın fars irsinin simvoludur". Bu ifadə ölkədəki məscidlərlə bağlı rəsmi İrəvanın ritorikasını təkrarlayırdı. Azərbaycan irsini Ermənistanda silmək məqsədilə həmin məscidlər fars məscidləri kimi adlandırılırdı. Daha dəqiq desək, Ermənistanın Rusiya imperiyası tərəfindən işğalına qədər bölgə İrəvan xanlığı kimi tanınırdı. İrəvan xanlığı İran imperiyasına bağlı, yarımüstəqil şəhər-dövlət olub və azərbaycanlı sülaləsi tərəfindən idarə edilirdi. 1828-ci il işğalından sonra Rusiya imperiyası bölgədə müsəlman icmasının içində xristian anklavı yaratmaq məqsədilə İrandan, sonradan isə Osmanlı imperiyasından erməniləri yerləşdirdi. Bu anklav zamanla Ermənistan dövlətinə çevrildi.

**P.S.** *Ağlına gələn fikri qərəzli şəkildə dilə gətirən bu şəxsə izah etmək lazımdır ki, Bakı ilə İrəvan arasında sülh sazişinin mətni artıq paraflanıb. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Görəsən, səfirə nə vəd olunub ki, bu gün ermənidən daha çox ermənilik edir?*

***Nəzrin ELDARQIZI***
***XQ***

---

*Xuntaçıların məhkəməsi*

# Zərərçəkmişlər təqsirləndirilənləri ittiham edirlər



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 30-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) proses zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam edib.

Zərərçəkmiş Şair Heydərovun hüquqi varisi Camal Heydərov övladının Laçında, Devid Cəlilovun hüquqi varisi Sevinc Cəlilova övladının Ağdərədə şəhid olduğunu söyləyiblər. Cavid Zülfüqarovun hüquqi varisi Cavanşir Zülfüqarov, Tofiq Alıyevin hüquqi varisi Fərid Alıyev övladılarının snayper atəşi nəticəsində həlak olduqlarını deyiblər.

Sirac Abışovun hüquqi varisi Şirzad Səmədov qardaşının Kəlbəcərin Susuzluq kəndində tankəleyhinə minanın partlaması nəticəsində həlak olduğunu bildirib: "Qardaşım AzTV-nin operatoru idi. Partlayış zamanı qardaşımdan başqa Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov və Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Arif Əliyev də həlak olub, 4 nəfər isə yaralanıb".

Elkin Mirzəhmədov Xocalıda qəlpə yaraları aldığını söyləyib. Rauf Hüseynov bildirib ki, mərmi partlaması nəticəsində xəsarət alıb. Həmin vaxt bir neçə nəfər həlak olub. Orxan Balədov deyib ki, Ağdərə rayonunda özü və bir neçə nəfər xəsarət alıb. Eltun Məmmədov Şuşanın Daşaltı kəndində yaralandığını söyləyib.

Muxtar Əliyev Ağdamın Gülablı kəndində sağ ayağından güllə yarası aldığını, bir nəfərin isə həlak olduğunu deyib. Nazir Cəlilov və Pərvin Babayev Şuşa rayonu ərazisində xəsarət aldıqlarını söyləyiblər. Emil Əliyev, Fərhad Rzayev və Əyyub Məmmədov Kəlbəcərdə xəsarət aldıqlarını deyiblər.

Vidadi Məmmədov bildirib ki, Laçında minatəmizləmə işləri zamanı xəsarət alıb. Raqif Əliyev deyib ki Ağdərə rayonunun Canyataq kəndində özü və bir neçə nəfər yaralanıb, bəzi şəxslər isə həlak olub. Əsgər Quliyev qeyd edib ki, Şuşa istiqamətində xəsarət alıb. Bundan başqa, bir neçə nəfər həlak olub, bir neçə şəxs isə yaralanıb.



Digər zərərçəkənlər - Anar Əziz-zadə, Aydın Verdiyev, Yunis İsmayılov, Valeh Məmmədov, Əli Məhərrəmov, Ceyhun Həsənzadə, Nicat Teymurov, Eltəkin Həsənov, Yəhya Quliyev, Arif Abbasov, Vüsal Hüseynov, Əli Ələkbərov, Zaur Məmmədov, Vasif Osmanov, Mehti Mürsəlov və Əlizamin İsmayılov müxtəlif ərazilərimizdə erməni silahlı dəstələrinin təxribatları və basdırdıqları minaların partlaması nəticəsində yaralandıqlarını bildiriblər.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 7-nə təyin olunub.

***XQ***

# Kopırkinin “Zəngəzur mesajları”

**(əvvəli 1-ci səhifədə)**

## Moskva nə gözləyir?

Beləliklə, səfir bildirib ki, Rusiya Cənubi Qafqazda sülhün və sabitliyin qərarlaşmasında, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında maraqlıdır. Bu ifadə çox ümumidir. Amma Kremlin ali diplomatik təmsilçisinin sülh və sabitliyə öz baxışı var.

Kopırkinin sözlərindən gəlinən qənaət budur ki, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) bağlantı layihəsinin və ya “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu”nun fəaliyyət parametrləri Rusiyanın regional təsəvvürləri ilə ziddiyyət təşkil etməməlidir. O parametrlər ki, səfir ölkəsinin digər rəsmiləri kimi onların, formalaşmamasına ümid bəsləyən tərzdə deyir: “Moskva gözləyir ki, sözügedən marşrut işə düşsün, sonra vəziyyətə baxacaq”.

Kopırkin eyni zamanda bildirir ki, marşrut üzrə “yük və sərnişin tranzit rejimlərinə, hərəkətin təhlükəsizliyinin təminatına dair detallar razılaşdırılmalıdır”. Diplomatın sözlərinə görə, həmin detalların müəyyənləşdirilməsində, bütövlükdə regional kommunikasiyaların açılmasında Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü məsələsinin və Ermənistan-İran sərhədində Rusiya hərbçilərinin mövcudluğu faktının nəzərə alınması vacibdir.

Bəli, Ermənistan-İran sərhədində Rusiya hərbçiləri var. Görəsən, Azərbaycanın və Ermənistanın razılığı əsasında fəaliyyət göstərəcək “Tramp marşrutu” onların fəaliyyətinə nə kimi maneçilik törədə bilər? Nəzəri cəhətdən də bu, mümkünsüz görünür. Daha konkret desək, prinsip etibarilə isə Rusiya hərbçiləri sözügedən marşrutun trayektoriyasına uyğun şəkildə dislokasiyaya məcburdurlar. Rusiyanın əksini iddia etmək üçün heç bir rıçaqı yoxdur. Yəni səfir mahiyyətcə, mənasız məqamı qabardır.

Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyünə gəlincə, məsələ ciddidir. Kopırkinin onu qabartması qapalı şantajdır. Səfir İrəvanın, Kremlin sözünə baxmayacağı təqdirdə, ittifaq müstəvisindəki imtiyazlardan və gəlirlərdən məhrum olacağını vurğulayır. Başqa cür düşünmək üçün əsas yoxdur. Əslində, Kopırkindən əvvəl də Rusiya rəsmiləri dolayısı ilə bunu bildiriblər. Nəzərə alaq ki, Ermənistanın Rusiyadan dərin asılılığı var.

## Rusiyadan asılı Ermənistan

Yeri gəlmişkən, bir neçə gün əvvəl baş nazir Nikol Paşinyanın Moskvaya səfəri xüsusunda da Ermənistanın Rusiyadan asılılığı məsələsi qabardıldı. Nikolun səfərdən qayıtdıqdan sonra ölkəsinin Avropa İttifaqına üzvlük məsələsi ilə bağlı açıqlaması isə onu göstərir ki, İrəvan Kremlin Cənubi Qafqaz gündəmi ilə razı deyil. Hərçənd, Paşinyanın Moskvaya yollanması Ermənistanın Rusiya ilə hansısa formada dil tapmaq niyyətinin varlığından xəbər verirdi.

Aydındır ki, Paşinyan Rusiyanı qıcıqlandırmaq istəmir. Həm də ona görə istəmir ki, 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək və ölkəsində Kremldən əmrlər alan müxalif cəbhə mövcuddur. O cəbhə ki, baş naziri devirmək üçün hər şeyə hazırdır. Amma Paşinyan prinsipial məqamları heçə saya bilməz. Hər halda, regional kommunikasiyaların açılması ilə bağlı bəlli formul var və həmin formul bu il avqustun 8-də imzalanmış “Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə”də əksini tapır.

Deməli, Kopırkin rahat (oxu: narahat – red.) ola bilər. Çünki Bəyannamədə əsas məqamlar əksini tapıb, detallar isə əhəmiyyət daşımır. Əlbəttə, onun özü də bunu bilməmiş deyil. Səfirin dedikləri, sadəcə, Rusiyanın Vaşinqton anlaşmasına müqavimətidir. Müqavimətin Avrasiya İqtisadi İttifaqı müstəvisindəki Ermənistana təzyiq rıçaqından söz açdıq. Amma rusiyalı diplomat başqa fikirlər də səsləndirib.




## Kopırkin Rusiyası və Cənubi Qafqazda sülh

S.Kopırkin bildirib ki, Azərbaycan-Ermənistan barışının əsasını Rusiya, şəxsən prezident Vladimir Putin qoyub. Səfir fikrini əsaslandırmaq üçün 2020-2022-ci illərdə imzalanmış üçtərəfli bəyanatları xatırladıb. O, eyni zamanda, ölkəsinin sülh sazişinin hazırlanmasında, sərhədlərin demarkasiyasında və hər iki ölkənin vətəndaş cəmiyyətləri arasında təmasların yaranmasındakı rolunu qabardıb.

Bəli, Rusiya 44 günlük müharibəyə son qoydu və 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasına nail oldu. Həmin bəyanata əsasən silahlı birləşmələrini sülhməramlı adı altında Qarabağda yerləşdirdi. Bu, ölkənin, öz maraqlarını qorumaq naminə üz tutduğu klassik mövcudluq tərzinə çevrildi. Söhbət jandarmeriya mövcudluğundan gedir. Amma 10 noyabr bəyanatından sonra Rusiyanın vasitəçiliyi ilə imzalanmış heç bir sənəd əməli nəticə vermədi. Ermənistan rəhbərliyi Kremlin sərhədlərin demarkasiyası ilə bağlı gündəliyinə “yox” dedi. Hər iki ölkənin vətəndaş cəmiyyətləri arasındakı təmasların qurulmasına gəldikdə, Kopırkinin bunu haradan çıxardığı qeyri-müəyyəndir. Görəsən, o, hansı təmaslardan söz açır?

Lakin Rusiyanın regional komminikasiyaların açılması ilə bağlı bəlli planı olub. Plan üçtərəfli Bəyanatın Naxçıvana maneəsiz yol məntiqini rəhbər tutub. Moskva, hətta, həmin yolda hərəkətliliyin Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin qorunmasına zidd xarakter daşımamasına dair formulun tapılmasına da töhfə verib. Nəzərə alaq ki, Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin birgə İşçi qrupu həmin formulu hazırlamışdı. İrəvan əvvəl bununla razılaşsa da, sonradan boyun qaçırdı. Çünki üçtərəfli Bəyanatda Naxçıvana yolda rus hərbçilərinin nəzarəti həyata keçirmələrinə dair müddəa var idi. Vaşinqtonda imzalanmış Birgə Bəyannamədə də Naxçıvana yolun maneəsizliyi əsas götürülür. Sənədin üçtərəfli Bəyanatdan fərqi yalnız regional bağlantı layihələrinin “Tramp marşrutu” şəklində leqallıq qazanması, qarşılıqlı şəkildə razılaşdırılmasıdır.

Əlqərəz, Vaşinqton bəyannaməsi Rusiyanın üzərində dayandığı bəyanat məntiqini heçə endirir. Kopırkin isə həmin məntiqin hələ də keçərliliyini əsaslandırarkən deyir ki, tərəflərdən heç biri bəyanatdan imzasını geri götürməyib. Onun sözlərinə görə, ABŞ-da imzalanmış Birgə Bəyannamənin üçtərəfli Bəyanatla nə dərəcədə uyğunluğunu maraqlı tərəflərin müzakirəsi müəyyənləşdirəcək. Diplomatın maraqlı tərəf dedikdə İranı nəzərdə tutduğu aydındır. Başqa sözlə desək, Rusiya Tehranın “Tramp marşrutu”na qarşı çıxacağına dair ümidlərini itirməyib. Halbuki, İranın məsələyə loyal yanaşdığına, Moskvanın gündəmi ilə hərəkət etmədiyinə dair təsəvvür var.

## “3+3”, yoxsa “gecikmiş məhəbbət”?

Digər tərəfdən, səfir Kopırkin müsahibəsində “3+3” regional məşvərət formatını yada salır. Deməli, Rusiya üçtərəfli bəyanatlar sistemi ilə yanaşı, bu platformanın da Vaşinqton razılaşmasına alternativ kimi istifadəsinə çalışır. Ona görə səfir Azərbaycanın və Ermənistanın format çərçivəsindəki müzakirələri davam etdirəcəyinə ümid etdiyini vurğulayır. Burada isə bir nüans diqqətdən yayınmır.

Məsələ ondadır ki, “3+3” regional məşvərət formatı aktiv məcrada olanda Rusiya onun işində iştirak etsə də, Bakı-İrəvan normallaşmasını bu müstəvidən ayrı tutur, çalışırdı ki, iki Cənubi Qafqaz ölkəsi arasında münasibətləri, bir növ, inhisarda saxlasın. Moskva, nə sülh, nə müharibə məntiqində maraqlı idi və bu yolla regionda təsirini saxlamağa çalışırdı. Üçtərəfli bəyanatlar kompleksi böyük ölçüdə həm də belə yarıtmaz yanaşmaya görə iflasa uğradı.

Dediyimiz kimi, Ermənistan Rusiyanın münaqişə məntiqini qoruyaraq regional kommunikasiyaların açılması planına razılıq vermədi. Azərbaycan Naxçıvana maneəsiz yolda maraqlı olsa da, özünün ərazi bütövlüyünün və suverenliyinin şübhələndirilməsinə imkan tanımadı. Bıçaq sümüyə dirəndi və 2023-cü ildə Silahlı Qüvvələrimizin həyata keçirdikləri lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ avantürası sona çatdı. Mövcud fonda isə erməni iqtidarı anti-Rusiya ritorikasını daha da gücləndirdi ki, bu, Moskvanın vasitəçiliyini tamamilə iflasa uğratdı və rus sülhməramlıları kor-peşman Qarabağı tərk etməli oldular.

Ümumiləşdirmə apararaq deyə bilərik ki, Rusiya üçtərəfli bəyanatlardan və “3+3” regional məşvərət formatından Cənubi Qafqazda münasibətlərin normallaşması naminə yararlanmadı. Əgər üçtərəfli Bəyanat münaqişə məntiqini uzatmağa hesablanmışdısa, “3+3” Moskva üçün Qərbin sipəri idi. Kreml çalışdı ki, bu sipəri Azərbaycanın, Türkiyənin və İranın köməyi ilə möhkəmləndirsin, Ermənistanın Qərbə gedişinin qarşısını alsın.

Sözümüz ondadır ki, indi Kopırkinin və digər Rusiya rəsmilərinin “3+3”ü ortaya atıb, bir növ, regional müqəddəsliyə sadiqlik zəngüləri vurmasının heç bir önəmi yoxdur. Zamanında səmimi davranmaq lazım idi ki, Kremldəkilər bunu bacarmadılar. Nəticədə Rusiya 44 günlük müharibəyə son qoyan sülhpərvər imicini itirdi. Əlbəttə, bu imicin itməsində ölkənin Ukrayna ilə müharibəsi də həlledici rol oynadı.

## Növbəti şantaj

Kopırkinin Rusiyanın İrəvana təzyiq ritorikasına hesablanmış başqa subliminal mesajına diqqət yetirək. Səfir ölkəsinin Ermənistanın enerji təchizatındakı rolunu qabardır. O, dolayısı ilə əvvəldə haqqında söz açdığımız asılılıq amilini diqqətə çatdırır. Ehtimal etmək olar ki, bu siyasi şantajın da məqsədi Ermənistanı Vaşinqton Bəyannaməsinin məntiqindən uzaqlaşdırmaqdır. Əslində, səfir Kopırkin Birgə Bəyannamənin nə dərəcədə həyata keçəcəyini gözləməyin lazım olduğunu bildirərkən, Rusiyanın erməni iqtidarının həmin sənəddən imtina edəcəyi gözləntisinin olduğunu təsdiqləyir.

## Gümrü - sonuncu “rus qalası”

İndi isə Kopırkinə ünvanlanmış növbəti suala keçid alaq. Sual Gümrüdəki rus hərbi bazasının bölgədən çıxarılması ilə bağlıdır. Rusiyalı diplomat cavabında məsələnin müzakirə olunmadığını, erməni tərəfinin də bununla bağlı heç bir açıqlama vermədiyini bildirib və əlavə edib ki, Ermənistanda rus hərbi mövcudluğunun saxlanılması, ümumən, regionun təhlükəsizliyi və sabitliyi baxımından vacibdir.

Göründüyü kimi, Kopırkinin fikirləri pafosdan və populizmdən başqa bir şey deyil. Ümumiyyətlə, Gümrüdəki hərbi baza indiki Ermənistan hakimiyyətinin suverenliklə bağlı anlayışlarına daban-dabana zidddir. Guya NATO ölkəsi olan Türkiyə Ermənistana hücum çəksə, həmin baza ölkəni müdafiə edəcəkmiş. Birincisi, Türkiyəyə belə bir hücum lazım deyil. İkincisi, Ankaranın mövqeyi klassik NATO üzvü baxışından tam uzaqdır, onun öz prioritetləri var. Üçüncüsü, İrəvan onsuz da Qərbmeyillidir və Rusiya-Ermənistan strateji tərəfdaşlığı bərbad günlərini yaşayır. Mövcud situasiyada Gümrü bazası kimi kimdən qoruyur, anlamaq olmur.

Deməli, tam əminliklə demək olar ki, hazırda Gümrüdəki rus hərbi mövcudluğu Cənubi Qafqazda sülh və sabitlik baxımından heç bir rol oynamır. Həm Kopırkin, həm də başqa rus rəsmiləri bunun əksini düşünərək yanılırlar. Görünür, onlar keçmiş SSRİ-nin ab-havasından çıxa bilməyiblər. Yaxud Paşinyana qədərki erməni iqtidarına danışdıqları nağıllara özləri də inanıblar və həmin nağılların təsirindən çıxa bilmirlər.

Hesab edirik ki, belə bir durum Paşinyan administrasiyasının xeyrinədir. Rəsmi İrəvan Gümrüdəki rus hərbi mövcudluğunun aradan qaldırılmasının zəruriliyini hələlik qabartmamaqla, məsələni Moskvaya təsir rıçaqı kimi əlində saxlayır. Bu, Rusiyanın regional kommunikasiyaların açılmasındakı ritorikaya zidd radikal addımlar atmasının qarşısını alacaq alətdir. Yəni Kreml əndazədən çıxsa, İrəvan ona Gümrünü – Cənubi Qafqazdakı, obrazlı desək, sonuncu Rusiya qalasını xatırladacaq. Ola bilər, Kopırkin hadisələrin qeyd etdiyimiz məcrada getdiyini ehtimal edir. Bu səbəbdən Gümrüdən söz açanda yalnız təhlükəsizlik və sabitlik amilləri üzərində dayanmır, eyni zamanda, deyir ki, rus hərbçiləri heç kəsi təhdid etmirlər. Təxminən belə: onların ziyanları yoxdursa, niyə çıxarılsınlar?

Əlbəttə, Kopırkin bir müstəqil dövlətin ərazisində başqa ölkənin hərbçilərinin olmalarının yolverilməzliyinin fərqinə varmaya bilər. Amma səfir qanunauyğunluq tapır və Gümrüdəki bazanın mövcudluğunun hüquqi əsasını qabardır: “Əvvəlcə Rusiya silahlı qüvvələrinin Ermənistan Respublikası ərazisində hərbi mövcudluğu haqqında Müqavilə 16 mart 1995-ci ildə Moskvada 25 illik müddətə və hər 5 ildən bir avtomatik uzadılmaq şərti ilə imzalanmışdı. Daha sonra, 2010-cu ildə İrəvanda ölkələrimiz tərəfindən sənədə əlavə protokol imzalandı və bu protokol Rusiya silahlı qüvvələrinin hərbi birləşmələrinin Ermənistan ərazisində dislokasiya müddətini 2044-cü ilə qədər uzatdı, həmçinin hər 5 ildən bir yenidən uzadılmaq imkanı nəzərdə tutuldu”.

Reallıq budur: Kopırkinin haqqında söz açdığı müqavilə Ermənistan hakimiyyəti üçün mənasız kağız parçasından başqa bir şey deyil. Çünki sənədi ölkənin əvvəlki iqtidarı imzalayıb. O iqtidar ki, Ermənistanı Kremlin vassalına çevirmişdi. Deməli, sözügedən sazişin gerçək hüquqi əsası da yoxdur. Üstəlik, nağıl danışmaq dövrünün keçmişdə qaldığını vurğuladıq. Amma Kopırkin öz ampluasındadır və Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması ilə bağlı sualı eyni prizmasından cavablandırır: “Rusiyanı Cənubi Qafqazdan ayırmaq – əvvəlcədən mənasız bir təşəbbüsdür. Nə coğrafiya, nə ortaq tarix, nə də Rusiyanın Zaqafqaziya dövlətləri ilə çoxşaxəli əlaqələrinin həcmi bunu həyata keçirməyə imkan verir. Bununla belə, ayrı-ayrı xarici oyunçular absurd fikirlər səsləndirir, öz niyyətlərini və regional reallıqları zəif başa düşdüklərini üzə çıxarırlar. Təkrar edirəm, Rusiyanın Cənubi Qafqazla ayrılmaz bağlılığı bölgədə möhkəm sülhə və sabitliyə, onun inkişafına və nəqliyyat potensialının açılmasına olan həyati marağımızı şərtləndirir”.

## Kopırkin II Dekotinidirmi?

Sonda onu da deyək ki, istər Kopırkinin dedikləri, istərsə də Rusiyanın başqa rəsmilərinin ölkənin Cənubi Qafqazdakı maraqlarına dair bildirdiklərini, müəyyən mənada, təbii saymaq mümkündür. Məsələyə keçmişin pəncərəsindən yanaşıb, Rusiyanın, əslində, regiona işğalçılıq yolu ilə yiyələndiyindən söz açmaq və bununla Kopırkinin pafoslu açıqlamalarının səmərəsizliyini vurğulamaq niyyətindən uzağıq. Hesab edək ki, Rusiya ya vəlvələdən, ya zəlzələdən Cənubi Qafqazda var. Başlıca məqam ölkənin varlığını bundan sonra qorumaq üçün hansı metod və vasitələrə üstünlük verməsidir. Kreml əvvəlki ritorikanın artıq heç nəyə yaramadığını anlamalıdır. O cümlədən, hərbə-zorbalığın da. İndi nə 1920-ci ildir, nə də 1990-cı. Cənubi Qafqaz ölkələri də o illərdə deyillər. Rusiya bunu anlayacaq və sivil əməkdaşlıq formalarına üstünlük verəcək, ya yox, gedişatı zaman göstərəcək.

Ən sonda Kopırkinin Sünikə, yəni Zəngəzura nə üçün yollanması üzərində dayanaq. Hər halda, bölgənin regional kommunikasiyalar, həmçinin “Tramp marşrutu” baxımından vacibliyini vurğulamağa ehtiyac yoxdur. Onu da deyək ki, vaxtilə Fransanın Ermənistandakı səfiri Olivye Dekotini də Sünikə səfər edir, öz aləmində, Azərbaycana qarşı Qərb sipəri formalaşdırırdı. Üstəlik, Dekotininin Gürcüstandakı həmkarı da var. O, Almaniyanı təmsil edir və işi-gücü ölkədəki müxalifəti gürcü iqtidarına qarşı qaldırmaqdır. Görünür, Kopırkin də Almaniya və Fransa səfirlərinə oxşamaq istəyir. Nəzərə alaq ki, diplomat son günlər fəallaşıb. Onun Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanla görüşləri isə az qala ənənə halını alıb. Heç şübhəsiz, Sünikə səfərlərini intensivləşdirsə, rəsmi İrəvan Kopırkini Ermənistanın daxili işlərinə müdaxilədə də qınaya bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Moldova təcrübəsi və postsovet məkanında “yumşaq güc”ün dinamikası

**(əvvəli 1-ci səhifədə)**

Maraqlıdır ki, bəs nəticə nəyi göstərir? Seçicilər yalnız tarixi və mədəni bağlılıqlara görə hərəkət etmirlər; onlar gündəlik sosial-iqtisadi şərait və hökumət siyasətini də nəzərə alaraq qərar verirlər. Moldova əhalisinin müəyyən hissəsi Sovet köklərinə bağlı və konservativ olsa da, elektoratın davranışı daha mürəkkəb meyarlara əsaslanır ki, bu da “yumşaq güc”ün postsovet məkanında sərhədlərini ortaya qoyur.

Seçkilərdə xarici təsir mexanizmlərinin, o cümlədən maliyyə resurslarının və kampaniyaların istifadəsi uzunmüddətli nəticə üçün



yetərli olmadı. Prezident seçkilərində xərclərin ölkə ÜDM-nin təxminən 1 faizi səviyyəsində olması göstərir ki, resursların miqdarı elektoratın müstəqil qərarverməsini əvəz edə bilmir.

Maraqlıdır ki, regionda yerləşən strateji ərazilərin, xüsusən də qonşuluq şərtləri və tarixi bağlılıqların mövcudluğu seçki nəticələrinə başlanğıc üstünlük yaradır, amma bu üstünlük yalnız institutların möhkəmliyi və elektoratın seçim azadlığı ilə formalaşır. Beləliklə, Moldova nümunəsi göstərir ki, postsovet ölkələrində demokratik institutların dayanıqlığı və elektoratın siyasi müstəqilliyi xarici təsirin effektivliyini müəyyən edən əsas amillərdir. Ölkədəki iqtisadi çətinliklər, sosial narazılıqlar və korrupsiya əhalinin Avropa inteqrasiyaçı siyasətə yönəlməsini avtomatik təmin etmədi. Əksinə, seçicilər hökumətin fəaliyyətinə, gündəlik həyat şəraitinə və demokratik institutların işləkliyinə əsaslanaraq daha düşünülmüş qərarlar verdilər.

Təhlil nəticəsində aydın olur ki, prezident və parlament seçkilərindəki ardıcıl nəticələr postsovet məkanında elektoratın müstəqil qərarvermə qabiliyyətini və demokratik institutların dayanıqlığını ön plana çıxarır. Bütün bunlar strateji baxımdan “yumşaq güc”ün sərhədlərini və hədəf ölkədə üstünlük əldə etmək üçün yalnız tarixi bağlılıq və resursların kifayət etmədiyini təsdiqləyir.

*

“Yumşaq güc”, yəni mədəni təsir, ortaq dəyərlərin təşviqi və diplomatik əlaqələr, uzunmüddətli strateji üstünlük üçün istifadə edilən əsas vasitələrdir. Amma yumşaq güc təkbaşına nə dərəcədə təsir göstərə bilər? Tarixi bağlılıq, dil və dini ortaq elementlər ilkin üstünlük yaratsa da, seçicilərin davranışı və demokratik institutların dayanıqlığı strateji nəticəni kritik şəkildə müəyyən edir. Aydındır ki, cəmiyyət yalnız xarici mesajın cəlbediciliyinə baxaraq qərar vermir; o, sosial-iqtisadi şəraiti, hökumətin fəaliyyətini və gündəlik həyat reallıqlarını da qiymətləndirir.

“Ağıllı güc” yanaşması burada vacib rol oynayır: “yumşaq güc” elementləri sərt güc, yəni iqtisadi və siyasi təzyiq vasitələri ilə birləşdirildikdə hədəf ölkədə daha dayanıqlı təsir formalaşdırılır. Bəs ağıllı güc konsepsiyası konkret hansı strategiya üstünlüyü yaradır? Cavab aydındır – elektoratın müstəqil qərarverməsi ilə birlikdə tətbiq olunan balanslı yanaşma, qısamüddətli təzyiqdən daha uzunmüddətli və stabil üstünlük təmin edir.

Mənbələr göstərir ki, resursların çoxluğu və kampaniyaların intensivliyi hər zaman nəticə vermir. Bunun səbəbi elektoratın informasiya mühitinə çıxışı, demokratik institutların işləkliyi və cəmiyyətin qərarvermə mexanizmlərinin mürəkkəbliyidir. Hədəf ölkədəki seçici yalnız maliyyə və təşviq vasitələri ilə yönləndirilə bilməz; onun sosial-iqtisadi və siyasi seçimləri strateji təsirin effektivliyini müəyyən edir.



*

Rusiyanın rolunu nəzərə alaraq, sual yaranır: regional aktorların təsir mexanizmləri nə dərəcədə effektivdir? Yumşaq güc vasitələri, diplomatik təşəbbüslər və mədəni əlaqələr strateji üstünlük üçün əlverişli alət olsa da, demokratik institutların işləkliyi bu mexanizmlərin sərhədlərini müəyyən edir. Bu baxımdan, xarici təsir siyasətinin uğuru həm də yerli siyasət və institutların dayanıqlılığına bağlıdır.

Geoiqtisadi və sosial kontekst burada əlavə təhlil tələb edir. Enerji asılılığı, ticarət əlaqələri və regional inteqrasiya proqramları hədəf ölkənin qərarvermə imkanlarını təsir edə bilər. Amma bu təsir insanların gündəlik həyat reallıqları və hökumətin fəaliyyəti ilə əlaqələndirilərək qiymətləndirilməlidir.

Mənbələr göstərir ki, tarixi və mədəni bağlara əsaslanan təsir mexanizmləri hər zaman gözlənilən nəticəni vermir. Bu amil Rusiyanın Ukrayna təcrübəsində açıq şəkildə müşahidə olunur. Sovet dövründən qalan tarixi, dil və mədəni əlaqələr Rusiyaya müəyyən dərəcədə regional təsir imkanı yaratsa da, bu bağlar əhalinin və dövlət institutlarının siyasi qərarverməsində avtomatik üstünlük təmin etmir. Ukraynanın müstəqillik illərində formalaşan milli kimliyi, demokratik institutlarının güclənməsi və Avropa ilə inteqrasiya təşəbbüsləri göstərir ki, tarixi oxşarlıqlar strateji planlamada təkbaşına nəticə yaratmır.

2014-cü ildən sonra baş verən hadisələr – Krımın ilhaqı və Şərqi Ukraynada münaqişə Rusiyanın regional təsir mexanizmlərinin sərhədlərini açıq şəkildə göstərdi. Tarixi bağlılıq və rus dilinin geniş yayılması Moskva üçün “yumşaq güc” potensialı kimi qiymətləndirilirdi. Lakin Ukrayna cəmiyyətinin elektorat davranışı və milli identifikasiyası bu mexanizmlərin təsirini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Buradan aydın olur ki, strateji planlamada yalnız güc resurslarına bel bağlamaq kifayət deyil; seçicilərin müstəqil qərarverməsi və dövlət institutlarının dayanıqlığı hər hansı bir regional təsirin uğurunu müəyyən edən kritik faktorlar kimi çıxış edir.

Rusiyanın təcrübəsindən aydın olur ki, həm sərt, həm də “yumşaq güc” vasitələri birləşmədikdə, hətta böyük resurs yatırımları belə gözlənilən nəticəni vermir. Ukraynanın Avropa inteqrasiyası və NATO ilə əməkdaşlıq istiqamətində addımları, Krım və Donbasda yaşanan mürəkkəb konfliktlər Moskvanın resurs və strateji üstünlüklərinə baxmayaraq, Ukraynanın suverenliyinə və qərarvermə azadlığına ciddi təsir göstərmədi. Burada siyasi-analitik baxımdan açıq görünür ki, tarixi və mədəni oxşarlıqların strateji üstünlüyə çevrilməsi üçün cəmiyyətin elektorat davranışını və milli institutların möhkəmliyini nəzərə almaq mütləqdir.

Digər bir aspekt geosiyasi kontekstdir: Avropa və Qərb təsiri Ukraynanın qərarvermə müstəqilliyini gücləndirdi və Rusiyanın “yumşaq güc” mexanizmlərini tarixi və mədəni oxşarlıqlara əsaslanaraq tətbiq etməsini məhdudlaşdırdı. Bu təsir Ukraynanın siyasi elitasının və ictimai rəyin qərb dəyərlərinə – demokratik idarəçilik, hüququn aliliyi, şəffaflıq və çoxtərəflilik – yaxınlaşmasını təşviq etdi. Siyasi müstəvidə məsələ ondan ibarətdir ki, Ukrayna elitası Qərb strukturlarına inteqrasiyanı yalnız xarici siyasət seçimindən ibarət görmədi, həm də daxili siyasi sabitliyin və legitimliyin qorunması üçün əsas mexanizm kimi qəbul etdi. Qərbin dəstəyi, xüsusilə də 2014-cü ildən sonra, Ukraynanın demokratik institutlarının funksionallığını artırmaqla, Moskvanın təsir imkanlarını daraltdı. Siyasi analitik baxımdan vacib sual yaranır: niyə Moskva tarixi və mədəni oxşarlıqları siyasi üstünlüyə çevirə bilmədi? Cavab ondan ibarətdir ki, həmin oxşarlıqların institusional dayağı yox idi. Qərb təsiri Ukraynada yeni siyasi identiklik formalaşdırdı və dövlətin xarici siyasət seçiminin legitimliyini artırdı. Nəticədə, Moskvanın “yumşaq güc” vasitələri – dil, mədəniyyət, ortaq dini dəyərlər – artıq siyasi davranışı istiqamətləndirən əsas determinantlar rolunu itirdi. Bundan başqa, Qərbin təsiri Ukraynada siyasi rəqabəti beynəlxalq kontekstə bağladı. Avropa ilə yaxınlaşma həm siyasi legitimlik, həm də iqtisadi imkanlar qazandırdığı üçün seçki mübarizəsində mühüm faktor rolunu oynadı.

Nəticə etibarilə, həm Ukrayna, həm də Moldova təcrübəsi postsovet məkanında bir mühüm dərsi ortaya çıxarır: xarici təsirin gücü nə maliyyə resurslarının miqyası, nə də mədəni yaxınlığın dərinliyi ilə ölçülür. Əslində, həlledici amil cəmiyyətin siyasi müstəqilliyi, demokratik institutların dayanıqlığı və elektoratın öz seçiminə sahib çıxmaq iradəsidir. Mədəniyyət və tarix üzərində qurulan cazibə müəyyən emosional rezonans doğura bilər, amma siyasi nəticə yalnız o zaman formalaşır ki, cəmiyyətin qərarvermə mexanizmləri azad, şəffaf və legitim şəkildə işləsin. Moldova və Ukrayna göstərdi ki, bu mexanizmlər işə düşdükdə ən güclü yumşaq güc strategiyaları belə öz effektivliyini itirə bilir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan–Özbəkistan media məkanlarının ortaq hədəfləri

*Dürüst, operativ informasiya, peşə etikası və süni intellektdən ehtiyatlı istifadə*




**II Azərbaycan–Özbəkistan Media Forumunda müzakirə olunan mövzuların coğrafiyası mediada peşəkarlıq, rəqəmsal transformasiya dövründə jurnalistika, süni intellektdən yararlanmağın müsbət və mənfi tərəfləri, etik prinsiplərin gözlənilməsi, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq və təcrübə mübadiləsi kimi aktual məsələləri əhatə edirdi.**

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən forumun açılış mərasimində Özbəkistan rəsmiləri, hər iki ölkənin media rəhbərləri və jurnalistlər iştirak edirdilər. Məclis çərçivəsində “Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər”, "Rəqəmsal informasiya mühitində etik məsuliyyət" və digər mövzularda müzakirələr aparıldı, fikir mübadiləsi edildi.

“Azərbaycan və Özbəkistan arasında media əməkdaşlığı, sadəcə, iki ölkənin mediası üçün deyil, bütövlükdə region üçün nümunəvi bir model ola bilər”. Bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov forumdakı çıxışı zamanı dedi. Onun sözlərinə görə, son onillikdə qlobal informasiya məkanında baş verən proseslər medianın mahiyyətini tamamilə dəyişib: “İnformasiyanın istehlak forması sürətlə rəqəmsallaşır, sosial şəbəkələr və onlayn platformalar informasiya mübadiləsinin əsas kanallarına çevrilir. Rəqəmsal transformasiya medianın operativliyini artırmaqla yanaşı, həm də onun qarşısına yeni məsuliyyətlər







qoyur. Burada əsas məsələ informasiya bolluğunda dürüst, obyektiv və etibarlı xəbərin təmin edilməsidir”.

Azərbaycan mediasında son illər dövlətin dəstəyi ilə rəqəmsallaşma istiqamətində ciddi islahatların həyata keçirildiyini forum iştirakçılarının diqqətinə çatdıran MEDİA rəhbəri süni intellekt texnologiyalarının media sahəsinə tətbiqindən irəli gələn spesifik məsələlərin həllinin günün vacib çağırışları sırasında dayandığını bildirdi: “Yeni bilik və bacarıqlara yiyələnmək, onun verdiyi fürsətləri dəyərləndirərək ölkələrimizn informasiya landşaftını müasirləşdirmək zərurəti artıq hiss olunmaqdadır. Media süni intellektdən yalnız forma baxımından təkmilləşmək üçün deyil, eyni zamanda, daha maraqlı kontent yaradılması prosesində də yararlanmalıdır”.

Bu həssas və aktual məsələyə Özbəkistan Jurnalistlər İttifaqının sədri vəzifəsini icra edən Xolmurod Salimov öz çıxışında toxundu. O qeyd etdi ki, süni intellekt texnologiyaları mediaya geniş fürsətlər yaratmaqla yanaşı, ciddi təhlükələr də törədə bilər: “Çünki sürətlə yayılan məlumatların hansı səviyyədə həqiqətə uyğun olmasını müəyyənləşdirmək getdikcə çətinləşir. Məhz buna görə də informasiya təhlükəsizliyinin təmin edilməsi müxtəlif sahələrdə əməkdaşlıq və birgə fəaliyyət tələb edir”. Azərbaycan və Özbəkistan arasında media sahəsində sıx əlaqələrin olduğunu diqqətə çatdıran X.Salimov hər iki ölkənin bu sahədə fəaliyyətini əks etdirən yol xəritəsini və ona uyğun olaraq son bir neçə ildə silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdırdı.

Fasilə zamanı jurnalistlərin sualını cavablandıran Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli bildirdi ki, forumda peşəkarlıq müstəvisində davamlı olaraq rəqəmsal transformasiya və media məsələləri müzakirə olunur: “Burada hər iki ölkənin rəsmi media qurumlarının rəhbərləri, beynəlxalq səviyyəli ekspertləri iştirak edirlər. Tədbirdə jurnalistikanın qarşısında duran rəqəmsal mühitdə vacib məsələlərə toxunulur”.

*

Forumun davamında Özbəkistan Milli Media Assosiasiyasının baş direktoru Abduaziz Abutolipov çıxışında bu gün təhlükəsizliyin yalnız sərhədlərin qorunması deyil, ilk növbədə, məlumatların qorunması olduğunu dedi: “İnformasiya iqtisadiyyatın, siyasətin, beynəlxalq münasibətlərin üzərində dayanan etibardır. Etibarın çökdüyü yerdə hər şey məhv olur. Buna görə informasiya təhlükəsizliyi yalnız texnologiya haqqında danışmaq deyil, mədəniyyət, dəyər və gələcək haqqında düşünməkdir”.

Media Forumunun panel iclaslarında müzakirə olunan mövzulardan biri jurnalistlərin etik məsuliyyəti idi. Azərbaycanlı və özbəkistanlı jurnalistlər çıxışlarında bu həssas məsələni xüsusi vurğu ilə qeyd etdilər. Onların fikrincə, bütün dövrlərdə, qələm və dəftərlə işlədikləri keçmiş zamandan etibarən jurnalist etikası hər zaman bu peşənin ayrılmaz tərkib hissəsi sayılıb. Amma bu gün jurnalistin peşə etikasından, məsuliyyətindən danışmaq daha çox aktuallıq kəsb edir. Rəqəmsal texnologiyalar media üçün böyük imkanlar açsa da, eyni zamanda, bəzi problemləri daha da kəskinləşdirib, hətta yeni risklər yaradıb. İnformasiyanın sürətli yayılması, auditoriya ilə birbaşa təmas, beynəlxalq mənbələrə çıxış, işin avtomatlaşdırılması süni intellekt və rəqəmsal texnologiyaların müsbət cəhətləridir. Çıxışçılar dezinformasiya, manipulyasiya, saxta xəbərlər, reytinq uğrunda yarışın müasir dövrün aktual problemləri olaraq qalmasından narahatlıqla söz açdılar.

II Azərbaycan–Özbəkistan Media Forumu çərçivəsində keçirilən “Rəqəmsal informasiya mühitində etik məsuliyyət” mövzusunda panel sessiyada çıxış edən “Ozbəkistan 24” Yaradıcı Birliyinin direktor müavini, “Ozbəkistan 24” teleradio kanalının baş prodüseri Xaydar Xasanov qeyd etdi ki, müasir dövrdə dünyada məlumat axını heç vaxt dayanmır, davamlı şəkildə artır: “Belə bir şəraitdə jurnalistlər üçün ən vacib amil etibar qazanmaqdır. Çünki xəbərin dəyəri onun mötəbərliliyi və dürüstlüyü ilə ölçülür. Doğrudur, xəbərin başlığı oxucunu cəlb etmək baxımından çox əhəmiyyətlidir. Ancaq bu, yalnız mövzuya uyğun olduğu halda dəyərli olur. Başlığı emosiyalar üzərində quraraq manipulyasiya etmək, əksinə, medianın etibarlılığına zərbə vurur. Unutmayaq ki, auditoriyamız artıq vaxtının böyük hissəsini sosial şəbəkələrdə keçirir. Bu məkanda saxta xəbərlərə, dezinformasiyaya yol vermək olmaz. Əksinə, jurnalistlərin missiyası sosial şəbəkələrdə keyfiyyətli, etibarlı və yoxlanılmış məlumatı təqdim etməkdir”.

Forum iştirakçılarının yekdil fikri ondan ibarət oldu ki, Azərbaycan və Özbəkistan jurnalistləri arasında birgə təlimlərə, maarifləndirmə layihələrinə və peşəkarlıqla bağlı təmaslara ehtiyac var. Bu baxımdan, çıxışlarda jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili, təcrübə mübadiləsinin həyata keçirilməsi xüsusi vurğulandı.

Ümumiyyətlə, II Azərbaycan–Özbəkistan Media Forumundakı çıxışların leytmotivini, səslənən fikirlərin ana xəttini Azərbaycan və Özbəkistanın bu istiqamətdə əməkdaşlığı davam etdirərək, xalqlarımızın dürüst və operativ informasiya tələbatını ödəmək, medianın regionun inkişafına böyük töhfələr vermək prinsipi təşkil edirdi.

***İ.HƏSƏNQALA***
***XQ***

*Bakı İqlim Fəaliyyəti Həftəsi*

# COP29-un “yaşıl” hədəfləri gerçəkləşir

**Bakı İqlim Fəaliyyəti Həftəsi bir daha sübut etdi ki, iqlim dəyişmələri ilə mübarizə yalnız ekoloji tədbirlər çərçivəsində məhdudlaşa bilməz. Bu proses sosial rifah, məşğulluq, təhsil, səhiyyə və gənclərin inkişafı ilə sıx bağlıdır. Azərbaycanın COP29 Sədrliyi məhz bu mühüm əlaqəni ön plana çıxararaq beynəlxalq iqlim gündəliyinə daha geniş, inklüziv və humanist baxış təqdim etdi.**

Tədbirin ikinci günündə “AnewZ” Televiziyasının Baş redaktorunun müavini Orxan Amaşovun moderatorluğu ilə keçirilən panel sessiyada diqqət mərkəzində olan əsas məsələ iqlim tədbirləri ilə sosial müdafiə arasındakı qarşılıqlı asılılığın qlobal yanaşma kimi təqdim olunması idi. COP29-un Prezidenti Muxtar Babayevin də vurğuladığı kimi, sosial müdafiə iqlim




dayanıqlığının fundamental sütunlarından biridir. Onun sözlərinə görə, səhiyyə, təhsil və məşğulluq sahələrində dayanıqlığın möhkəmləndirilməsi olmadan iqlim tədbirləri uzunmüddətli nəticə verə bilməz.

Bu yanaşma Azərbaycanın Sədrliyinin ortaya qoyduğu strateji fəlsəfəni əks etdirir: iqlim tədbirləri yalnız ekoloji nəticələrlə deyil, sosial təsirlərlə də ölçülməlidir. Bu baxımdan, gənclərin iştirakı xüsusi vurğulandı. Bakı Maliyyə Çərçivəsi, Yaşıl Təhsil Tərəfdaşlığı və UNICEF ilə birgə təsis edilən Uşaqlar və İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu gələcək nəsillərin qlobal iqlim gündəliyində söz sahibi olmasına geniş imkanlar açır. Azərbaycanın gənclərə verdiyi strateji önəm bu təşəbbüslərlə bir daha nümayiş etdirildi.

Korporativ davamlılıq istiqamətində də mühüm mesajlar səsləndi. Milli Məclisin deputatı, COP29-un yüksək səviyyəli iqlim çempionu Nigar Arpadarai bildirdi ki, biznes üçün iqlimə uyğunlaşma artıq seçim deyil, rəqabətqabiliyyətin təminatı üçün zəruri şərtdir. Bazar reallıqları da bu həqiqəti təsdiqləyir: günəş enerjisinin ən ucuz elektrik mənbəyinə çevrilməsi və elektrikli avtomobillərin sürətli artımı iqtisadi transformasiyanın istiqamətini açıq şəkildə göstərir.

COP29-un baş danışıqçısı Yalçın Rəfiyevin açıqlamaları da diqqətəlayiq oldu. O, konfransın gənclərin baxışlarının ən çox nəzərə alındığı platformalardan biri olduğunu qeyd etdi və vurğuladı ki, elmi əsasların danışıqlarda kompromislərdən üstün tutulması Azərbaycanın Sədrliyinin prioritetlərindən biridir. Bu isə iqlim razılaşmalarının yalnız siyasi iradəyə deyil, həm də elmi məntiqə əsaslanmasını təmin edir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev isə çıxışında qeyd etdi ki, sosial islahatlar iqlim tədbirləri ilə paralel həyata keçirildikdə daha geniş təsir gücünə malik olur. Son illərdə əməkhaqqı və pensiyaların əhəmiyyətli dərəcədə artırılması, sosial müavinətlərin genişləndirilməsi və rəqəmsal xidmətlərin tətbiqi əhalinin sosial dayanıqlığını gücləndirmişdir. Bu amil iqlim siyasətinin uğurla icrası üçün möhkəm sosial baza formalaşdırır.

Beynəlxalq müzakirələrdə də Azərbaycanın yanaşmasının aktuallığı təsdiqləndi. SOCAR rəhbərliyinin elan etdiyi “xalis sıfır emissiya” hədəfi ölkəmizin qlobal enerji transformasiyasında məsuliyyətli oyunçu mövqeyini bir daha nümayiş etdirdi. COP30-un yüksək səviyyəli çempionu Den Yoşpenin vurğuladığı kimi, adaptasiya və dayanıqlılığa yatırılan hər 1 dolların 10 dollar iqtisadi fayda gətirməsi bu sahəyə diqqətin artırılmasını zəruri edir.

Beləliklə, Bakı İqlim Fəaliyyəti Həftəsi göstərdi ki, COP29 yalnız texniki danışıqlar meydanı deyil, sosial müdafiə, gənclərin iştirakı və beynəlxalq əməkdaşlığın qovuşduğu geniş platformadır. Azərbaycanın Sədrliyi iqlim gündəliyini humanist və inklüziv yanaşma ilə zənginləşdirərək beynəlxalq ictimaiyyətə yeni strateji perspektiv təqdim etdi.

Eyni zamanda, dünən dərc olunan COP29-un Dayanıqlılıq Hesabatı Azərbaycanın qlobal iqlim diplomatiyasında tarixi nailiyyətə imza atdığını təsdiqlədi. Hesabatda vurğulanır ki, COP29 dayanıqlılıq prinsiplərinin bütün mərhələlərə – planlaşdırmadan icraya və irsə qədər – ardıcıl tətbiqi ilə indiyədək təşkil olunmuş ən nümunəvi iqlim konfranslarından birinə çevrilib.

Azərbaycanın COP29 çərçivəsində irəli sürdüyü yeddi əsas öhdəlik tədbirin həm “yaşıl”, həm də inklüziv xarakterini təmin edib. Xalis sıfır hədəfinə nail olunması ilə COP29 ölkəmizdə tamamilə bərpa olunan enerji ilə təmin edilən və emissiyaları kompensasiya olunan ilk beynəlxalq tədbir kimi tarixə düşüb. 160 elektrikli nəqliyyat vasitəsi isə on minlərlə nümayəndənin ekoloji təmiz mobilliyini təmin edib.

Bununla yanaşı, “Sıfır poliqon” siyasəti çərçivəsində tullantıların çeşidlənməsi, təkrar emalı və kompostlaşdırılması uğurla həyata keçirilib. Satınalmaların böyük hissəsinin yerli resurslardan təmin edilməsi daşınma ilə bağlı emissiyaların azaldılmasına mühüm töhfə verib. Tədbirin inklüzivliyi də xüsusi diqqət mərkəzində saxlanılıb, surdotərcümə xidmətləri və maneəsiz infrastruktur COP29-u əlçatan beynəlxalq platformaya çevirib.

Hesabatda yerli potensialın gücləndirilməsi ayrıca vurğulanır. 3000-dən çox könüllü, işçi və dövlət nümayəndəsi dayanıqlıq üzrə təlimlərdən keçərək uzunmüddətli bacarıqlar əldə edib. Bu, Azərbaycanın yalnız ev sahibi kimi deyil, həm də gələcək iqlim tədbirlərinin idarə olunması sahəsində bilik və təcrübə ixrac edən ölkə kimi mövqeyini möhkəmləndirib. COP29,



həmçinin ISO 20121:2024 beynəlxalq sertifikatı ilə təsdiqlənərək dayanıqlı idarəçiliyin ən yüksək standartlarına cavab verdiyini sübuta yetirib. Bu, Azərbaycanın qlobal iqlim gündəmində liderlik iddiasını və beynəlxalq ictimaiyyət qarşısında məsuliyyətini daha da gücləndirib. COP29 Azərbaycan Əməliyyat Şirkətinin baş icraçı direktoru Nərmin Carçalova qeyd edib: “Biz sübut etdik ki, dayanıqlıq yalnız şüar deyil, real fəaliyyət ola bilər. Bu irs təkcə Azərbaycana deyil, bütün beynəlxalq ictimaiyyətə məxsusdur.”

Bir sözlə, Azərbaycanın təşəbbüskarı olduğu bu nümunəvi model gələcəkdə keçiriləcək beynəlxalq iqlim tədbirləri üçün yol xəritəsi rolunu oynaya bilər. COP29-un uğuru göstərdi ki, müasir çağırışlara cavab verərkən məsuliyyətli idarəçilik, innovasiya və inklüzivlik yeni qlobal keyfiyyət mərhələsi açır.

***Səbuhi MƏMMƏDOV,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# Tbilisi Lüksemburq görüşünə niyə getməyəcək?

## *Xarici qüvvələrin 4 oktyabrda Gürcüstanı qarışdırmaq niyyəti*

**Gürcüstan Xarici İşlər Nazirliyi Avropa İttifaqının (Aİ) 2025-ci il oktyabrın 20-də Lüksemburqda təşkil edəcəyi görüşə getməkdən imtina edib. Bu görüş Aİ-nin təşəbbüsü ilə keçiriləcək və Mərkəzi Asiya və Qara dəniz regionunda yerləşən ölkələrin xarici işlər nazirlərini bir araya gətirəcək.**



Tədbirə Ermənistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstan da daxil olmaqla bir sıra ölkələrin baş diplomatları dəvət olunub. Gürcüstana isə yalnız səfir səviyyəsində iştirak üçün dəvət göndərilib. Narazılıq da bundan yaranıb. Bununla bağlı Gürcüstan XİN-in rəsmi bəyanatında bildirilir ki, ölkə bu cür regional əməkdaşlıq platformalarında mühüm tərəfdaş kimi çıxış edir və belə bir tədbirə nazir səviyyəsində deyil, səfir səviyyəsində dəvət olunması həm diplomatik protokola, həm də siyasi reallıqlara ziddir. Bildirilib ki, Aİ-nin bu addımı Gürcüstanın geosiyasi və strateji mövqeyinə açıq hörmətsizlikdir.



Gürcüstan hakimiyyəti Avropa İttifaqının (Aİ) sərgilədiyi bu yanaşmanı məsuliyyətsiz və məqsədli addım kimi qiymətləndirir. Rəsmi Tbilisinin fikrincə, bu yanaşma Gürcüstanda daxili siyasi gərginliyi artırmağa və ölkənin regiondakı strateji mövqeyini, habelə demokratik inkişaf yolunu görməzdən gəlməyə yönəlib. Açıqlamada Gürcüstanın Qara dəniz regionunda böyük rol oynadığı, sabit və dinamik inkişaf edən iqtisadiyyata malik olduğu, həmçinin Avropa ilə Mərkəzi Asiya arasında ticarət əlaqələrinin qurulmasında da mühüm tranzit ölkə sayıldığı vurğulanır. Amma Brüsselin bu reallıqları nəzərə almadığı və diplomatik çərçivədən çıxaraq siyasi ritorika ilə hərəkət etdiyi bildirilir.

Tbilisi hesab edir ki, Aİ-nin bu davranışının arxasında siyasi məqsədlər dayanır. Bildirilir ki, 2025-ci il oktyabrın 4-də keçiriləcək bələdiyyə seçkiləri öncəsi Avropa qurumları ölkədə daxili gərginliyi artırmaq və müxalif qüvvələri təşviq edərək "maydan" tipli etirazlara zəmin yaratmaq niyyətindədir. Gürcüstanın Aİ-nin Lüksemburq görüşünə tamhüquqlu dövlət kimi dəvət edilməməsi də bu məqsədli strategiyanın tərkib hissəsi kimi təqdim olunur.

Baş nazir İrakli Kobaxidze bu cəhdlərin qarşısının sərt şəkildə alınacağını bəyan edib. O, ictimaiyyəti qanun pozuntularından çəkinməyə çağıraraq bildirib ki, zorakılığa əl atan hər kəs qanunun tam ciddiliyi ilə cəzalandırılacaq: "Əgər kimsə zorakılığa əl atarsa, artıq görmüsünüz ki, polisə və dövlət institutlarına qarşı zor tətbiq edənlər 2 ildən 5 ilə qədər həbs olunublar. Eyni yanaşma bundan sonra da tətbiq olunacaq. Hər kəsi ehtiyatlı və məsuliyyətli olmağa çağırıram". O, həmçinin Paata Burçuladzenin elan etdiyi inqilab cəhdinin nəticə verməyəcəyini vurğulayıb. Əvvəlki illərdə uğursuz olmuş inqilab cəhdlərinə istinad edən Kobaxidze bu kimi planların gələcəkdə də nəticə verməyəcəyini söyləyib: "Bu il də, gələcək illərdə də bu cür planlar uğursuz olacaq. Gürcüstanda heç kimə inqilabi plan həyata keçirməyə imkan verilməyəcək".

Bu hadisələrin fonunda, ictimai müzakirələrdə növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ilə bağlı iddialar yayılıb. Lakin hökumət bu iddiaları "cəfəngiyyat", "yalan" və "saxtakarlıq" kimi qiymətləndirərək, parlament seçkilərinin yalnız 2028-ci ildə keçiriləcəyini qəti şəkildə bəyan edib: "Adi bir cəfəngiyyatdır, heç bir növbədənkənar seçki yoxdur. Seçkilər vaxtı çatanda keçiriləcək. 2028-ci ilə qədər gözləyin, o zaman parlament seçkiləri olacaq".

Tbilisidə, həmçinin hesab edirlər ki, Brüssel Gürcüstan hökumətini və xarici işlər naziri Maka Boçorişvilini qeyri-legitim elan etməyə zəmin hazırlayır. Bu, Gürcüstan hökuməti tərəfindən ölkənin suverenliyinə birbaşa təzyiq kimi qiymətləndirilir.

Onu da qeyd edək ki, Gürcüstan və Aİ arasında mövcud gərginlik təkcə konkret bir tədbirdə iştirakla bağlı məsələsi deyil. Bu, daha genişmiqyaslı siyasi qarşıdurmanın tərkib hissəsidir. Aİ-nin Gürcüstandakı mövcud hakimiyyətin Qərbyönlü siyasi kursdan uzaqlaşdığına dair narahatlığı, eyni zamanda, Tbilisinin Avropa institutlarını ölkənin daxili siyasətinə müdaxilədə ittiham etməsi qarşılıqlı inamsızlığı dərinləşdirib.

Bu vəziyyət Gürcüstanın xarici siyasət prioritetlərinə də təsirsiz ötüşmür. Əgər rəsmi Tbilisi Aİ ilə əməkdaşlıqda öz maraqlarının təmin olunmadığını düşünərsə, o zaman alternativ strateji tərəfdaşlara – Türkiyə, Çin, Rusiya və digər regional güclərə yönəlmək ehtimalı güclənir. Bu isə təkcə Gürcüstanın mövqeyini deyil, bütövlükdə Qara dəniz regionu və Cənubi Qafqazda geosiyasi balansları dəyişdirə bilər.

Beləliklə, Lüksemburq görüşündə iştirak etməmək sadəcə bir diplomatik boykot deyil, Gürcüstanın Aİ-yə açıq siyasi mesajıdır. Tbilisi öz rolunun və əhəmiyyətinin tanınmasını tələb edir və bu tanınma olmadıqda, mövqeyini sərt şəkildə ifadə etməkdən çəkinmir.

Bu arada Gürcüstanda ən çox müzakirə olunan məsələ prezident Mixeil Kavelaşvilinin Nyu-Yorka səfəri olub. Yeri gəlmişkən, Kavelaşvili 2013-cü ildən sonra Gürcüstanın BMT tribunasında çıxış edən ilk dövlət başçısıdır. Onun gürcü dilində söylədiyi nitqi çoxlu şərhlərə səbəb olub. Müraciətində Kavelaşvili Gürcüstanın iqtisadi mövqeyini və onun Avropa ilə əlaqələndirici rolunu vurğulayıb. O, həmçinin Gürcüstanın milli maraqlarını nəzərə alaraq, Tbilisinin istənilən ölkə ilə dialoqa hazır olduğunu bildirib və Cənubi Qafqazda münaqişənin həlli üçün sülh təşəbbüslərini dəstəkləyib.

Diqqətçəkən digər məqam Gürcüstan Prezidentinin ABŞ lideri Donald Trampla görüşü olub. Kavelaşvilinin sözlərinə görə, o, "ikitərəfli münasibətlərə ağ səhifədən başlamağı təklif edib və Tramp bu mövzuya daha sonra qayıtmağa söz verib".

Gürcüstan hakimiyyəti ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında açıq qarşıdurma da gündəmdən düşməyib. Zelenski çıxışında bildirib ki, "Avropa artıq Gürcüstanı itirib və orada insan haqları və Avropa tipli hökumət sistemi ilə bağlı vəziyyət daha da pisləşir". Rəsmi Tbilisi bu bəyanatı "biabırçı" adlandırıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Tehran "nüvə məngənəsi"ndə

## *BMT-nin İrana qarşı sanksiyaları qüvvəyə minib*

**Dünyanın diqqəti yenidən İranın nüvə proqramına yönəlib. Bu mövzu, əslində, uzun illərdir beynəlxalq gündəmin ayrılmaz hissəsidir və zaman-zaman qlobal təhlükəsizlik sistemini sarsıdan amillərdən birinə çevrilir. BMT Təhlükəsizlik Şurasının İrana qarşı genişmiqyaslı sanksiyaları son on ildə ilk dəfə bərpa edilib. Bu addım nüvə danışıqlarının nəticəsiz qalması və beynəlxalq tərəflərin razılığa gələ bilməməsi ilə birbaşa bağlıdır. Bu qərar, həmçinin göstərir ki, böyük güclər artıq Tehranla güzəştsiz davranmaq xəttinə üstünlük verirlər.**

Sanksiyalar İranın nüvə və ballistik raket proqramını, eyni zamanda, əsas gəlir mənbəyi olan neftin ixracını məhdudlaşdırır. Enerji sektoruna tətbiq edilən məhdudiyyətlər ölkənin iqtisadi sabitliyini ciddi şəkildə sarsıda bilər. ABŞ Dövlət Departamenti bəyan edib ki, diplomatiya hələ də seçim variantı olaraq qalır, lakin Tehran gecikmədən və xoş niyyətlə danışıqlara qatılmalıdır. Bu, əslində, Vaşinqtonun hələ də dialoq qapısını tam bağlamadığını göstərsə də, təzyiqlərin gücləndiyi aşkar görünür. ABŞ Prezidenti Donald Tramp da diplomatiyanın həm İran, həm də dünya üçün ən optimal yol olduğunu vurğulayır.

İran və AB ölkələri (Böyük Britaniya, Almaniya və Fransa) İranın nüvə proqramı ilə bağlı razılığa gəlməyə yaxın idilər, lakin ABŞ müdaxilə etdi və Vaşinqtonun təzyiqi ilə Avropa ölkələri geri çəkildi. Bu, bir daha onu göstərir ki, Avropa diplomatiyası hələ də müstəqil qərar verməkdə çətinlik çəkir. Bunu İran Prezidenti Məsud Pezeşkian deyib. O bildirib ki, Nyu-Yorkda avropalılarla "snapback" (avtomatik sanksiya mexanizmi) haqqında danışanda razılığa olduqca yaxın olublar: "Lakin sonra onlar amerikalılarla danışdılar və bəhanələr axtararaq fikirlərini dəyişdilər". Bu açıqlama İranın Qərbə olan etimadsızlığının artması anlamına gəlir.

Qeyd edək ki, Rusiya və Çin İrana qarşı sanksiyaların bərpasını altı ay təxirə salmaq üçün BMT Təhlükəsizlik Şurasına təklif vermişdi, lakin bu təşəbbüs dəstək tapmadı. Bu fakt ondan xəbər verir ki, beynəlxalq münasibətlərdə maraqlar balansı ciddi şəkildə dəyişib və Qərb koalisiyası daha güclü təsir imkanlarına malikdir. Nəticədə, beynəlxalq sanksiyalar bərpa edildi və sentyabrın 28-dən qüvvəyə mindi. Sentyabrın 26-da Rusiya və Çinin irəli sürdüyü təklif yalnız dörd ölkənin (Rusiya, Çin, Pakistan, Əlcəzair) dəstəyini qazanmış, doqquz üzv əleyhinə səs vermiş, iki ölkə isə bitərəf qalmışdı.

İrana qarşı beynəlxalq sanksiyalar bərpa edildikdən sonra rəsmi Tehran cavab addımı kimi Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) müfəttişlərini ölkəyə buraxmamaq barədə bəyanat verib. Bu, əslində qarşıdurmanı daha da dərinləşdirən addımdır. MAQATE müfəttişlərinin ölkəyə buraxılmaması İrana qarşı siyasi təzyiqlərin artması ehtimalını gücləndirir. ABŞ və Avropa öz növbəsində, əlavə sanksiyalar və sərt diplomatik addımlar ata bilər. Ekspertlərin fikrincə, BMT sanksiyaları iqtisadiyyat, sosial sahə və geosiyasi mövqedə ciddi təsirlər göstərəcək. İranın neft və qaz ixracı məhdudlaşacaq ki, bu da ölkənin gəlirlərinə ciddi təsir göstərəcək. Sanksiyalar, həmçinin sənaye və texnologiya sahələrinə ciddi təsir edəcək. Digər tərəfdən, sosial sferada işsizlik, inflyasiya və kütləvi narazılığın artması gözlənilir.

Qeyd edək ki, rəsmi Tehran nüvə proqramını milli inkişaf və enerji təminatı baxımından strateji prioritet kimi təqdim edir. Bu mövzu daxildə milli qürur və müstəqillik ideyaları ilə bağlanır, hakimiyyət isə onu "milli iradənin sarsılmazlığı" kimi təqdim etməyə çalışır. İran hökumətinə görə, uranın zənginləşdirilməsi ölkənin enerji müstəqilliyinin təmin olunması, elmi və texnoloji potensialının gücləndirilməsi ilə bağlıdır. Tehran bildirir ki, onun nüvə fəaliyyəti tamamilə sülh məqsədli və enerji ehtiyaclarını ödəməyə yönəlib.

İrana görə, uranın zənginləşdirilməsi əsasən elektrik enerjisi istehsalını artırmaq, nüvə stansiyalarını modernləşdirmək və daxili enerji tələbatını qarşılamaq məqsədini daşıyır. Bu proses həm də ölkənin sənaye və texnoloji infrastrukturu üçün çox vacibdir. Tehran rəsmiləri vurğulayır ki, nüvə proqramı İranın müstəqil elmi və texnoloji inkişafını sürətləndirir, ölkəyə yüksək texnologiyalı sahələrdə öz gücünü nümayiş etdirməyə imkan verir. Lakin ABŞ, Avropa və regional dövlətlər İranın uranı zənginləşdirməsini nüvə silahı istehsalı potensialı ilə əlaqələndirərək narahatlıq ifadə edirlər. Bu isə beynəlxalq münasibətlərdə qarşılıqlı etimad böhranını daha da dərinləşdirir.




Xatırladaq ki, 2015-ci ildə İran ilə "altılıq" ölkələri (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya) arasında imzalanmış Birgə Hərtərəfli Fəaliyyət Planına (JCPOA) görə, Tehran uranı yalnız 3,67 faiz səviyyəsinədək zənginləşdirə bilər. Bu, nüvə enerjisi istehsalı üçün nəzərdə tutulmuş limitdir. Uranın zənginləşdirilməsi isə onun tərkibindən uran-238 ayrılaraq mümkün qədər çox uran-235 əldə olunması deməkdir. Təbii halda uranda cəmi 0,7 faiz uran-235 mövcuddur, nüvə silahının hazırlanması isə yalnız 90 faizə qədər zənginləşdirilmiş uran-235 vasitəsilə mümkündür. Lakin Qərb mediasının məlumatına görə, İran son zamanlarda 3,67 faizlik limiti aşaraq artıq 4,5 faizlik zənginləşdirməyə başlayıb.

***Musa BAĞIRLI***
***XQ***

# Diplomatik xəritəmizdə növbəti körfəz dövləti

## *Bəhreyndə səfirliyin açılması Yaxın Şərq təmsilçiliyimizi tamamlayır*

**Ötən gün parlamentin payız sessiyasının plenar iclasında qəbul edilən "Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi Bakının Körfəz siyasətində yeni mərhələdir. Bu qərar Azərbaycanın Yaxın Şərqdə mövqelərini möhkəmləndirməklə yanaşı, siyasi və iqtisadi təsir dairəsini daha da genişləndirir.**



Bəhreyn kiçik əraziyə sahib olsa da, Körfəzdə geosiyasi baxımdan əhəmiyyətli ölkədir. Krallığın ərazisi 760 kvadrat kilometrdir, əhalisi 1,5 milyona yaxındır. Manama Yaxın Şərqin maliyyə mərkəzlərindən biri sayılır. Beynəlxalq Valyuta Fondu Bəhreyni İslam maliyyəsinin qlobal liderlərindən biri kimi göstərir. Krallıqda "Bahrain Bourse" adlı fond birjası fəaliyyət göstərir, ölkə 400-dən çox beynəlxalq bank və maliyyə institutuna ev sahibliyi edir.

Azərbaycan üçün bu səfirlik yeni iqtisadi əlaqə platformasıdır. Fars körfəzində enerji bazarı ilə yanaşı, maliyyə və texnologiya sektoruna çıxış imkanları formalaşır. Azərbaycan şirkətləri üçün Manama həm sərmayə, həm də birgə layihələrin maliyyələşdirilməsi baxımından əlverişli məkandır.

*

Sentyabrın 25-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 80-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Bəhreyn Krallığının xarici işlər nazirinin Abdullətif bin Rəşid əl-Zayani ilə görüş zamanı ikitərəfli və çoxtərəfli əməkdaşlığın hazırkı vəziyyəti, gələcək perspektivləri, regional və beynəlxalq proseslər müzakirə olunub, həmçinin "Azərbaycan Respublikası Hökuməti və Bəhreyn Krallığı Hökuməti arasında Diplomatik pasportlara malik şəxslərin viza tələblərindən azad edilməsi haqqında Saziş" imzalanıb. Bu, hökumətlərarası dialoqu intensivləşdirəcək, biznes nümayəndələrinin və turistlərin qarşılıqlı səfərlərinə təkan verəcək.

Gələcək əməkdaşlıq istiqamətləri həm iqtisadi, həm də strateji baxımdan diqqətəlayiqdir. Azərbaycan şirkətlərinin Bəhreyn maliyyə bazarlarında listinqi, birgə investisiya fondlarının təşkili və İslam maliyyəsi alətlərinin tətbiqi ikitərəfli iqtisadi münasibətləri daha çevik və rəqabətədavamlı edə bilər. Manamada səfirliyin açılması Azərbaycanın maliyyə innovasiyaları ekosisteminə birbaşa qoşulması, "fintech" layihələrində və İslam maliyyəsi sektorunda yeni tərəfdaşlıqlar qurması üçün real platforma yaradacaq. "EY" (Ernst & Young) hesabatı Bəhreyni GCC ölkələri arasında maliyyə texnologiyaları üçün ən səmərəli mərkəz kimi təqdim edir. Əmək bazarının münasib xərcləri və ofis kirayəsinin əlçatanlığı startaplar, beynəlxalq maliyyə şirkətləri üçün əlavə stimul yaradır.

Manama 200-dən çox bank və maliyyə institutuna ev sahibliyi edir, "Diplomatic Area" bölgəsi isə beynəlxalq bankların və İslam maliyyəsi institutlarının toplaşdığı strateji məkandır. Bu mühit Bəhreyni regionun əsas maliyyə qovşaqlarından birinə çevirir və Azərbaycan investorları üçün geniş imkanlar açır. Logistika sferasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə "Khalifa Bin Salman" limanı arasında yükdaşımaların təşkili, habelə Zəngəzur dəhlizi (TRIPP) üzərindən Körfəz bazarına çıxışın genişləndirilməsi prioritet hədəf kimi müəyyən olunur.

Turizm və humanitar müstəvidə Manama və Bakı arasında birbaşa aviareyslərin açılması, mədəniyyət festivallarında qarşılıqlı iştirak və dini turizmin inkişafı üçün birgə proqramların hazırlanması prioritet sayılır. İnnovasiya və təhsil sektorunda Bəhreynin "FinTech Bay" mərkəzi ilə Azərbaycan startap ekosisteminin əməkdaşlığı və birgə texnoloji forumların təşkili planlaşdırılır. Enerji diplomatiyası sahəsində isə neft və qaz ticarəti üçün yeni mexanizmlər, həmçinin "yaşıl enerji" layihələrində birgə iştirak imkanları müzakirə olunur.

Bəhreyn həm də regional təhlükəsizlik məsələlərində mühüm tərəfdaşdır. ABŞ-ın 5-ci Donanması da Manamada yerləşir, bu isə ölkəni Körfəz təhlükəsizlik arxitekturasının əsas iştirakçısına çevirir. Bakı üçün bu Azərbaycanın dəniz təhlükəsizliyi məsələlərində, xüsusilə strateji dəniz yollarının qorunması və Körfəz-Hind okeanı əlaqələrinin təhlükəsizliyində dialoq və kooperasiya imkanlarını artırır.

Azərbaycan və Bəhreyn bir neçə beynəlxalq platformada ortaq iştirak edirlər ki, bu da ikitərəfli və çoxtərəfli əməkdaşlıq imkanlarını artırır. Hər iki ölkə BMT çərçivəsində müxtəlif qlobal və regional layihələrdə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama hərəkatı (NAM) formatlarında fəal rol oynayır. Bu platformalarda Bakı və Manama birgə əməkdaşlıq mexanizmlərini müzakirə edir və icraata yönəldilmiş layihələr həyata keçirir. Beləliklə, ortaq təşkilatlar hər iki tərəf üçün strateji və praktik əməkdaşlıq imkanlarını gücləndirir, regional inteqrasiyanı və qarşılıqlı fayda təmin edən layihələrin reallaşmasını sürətləndirir.

Manamada səfirliyin açılması çoxqatlı müsbət nəticələr doğuracaq. Bu addım Azərbaycanın Yaxın Şərqdə diplomatik şəbəkəsini tamamlayır, Körfəzdə yeni nüfuz sahəsi formalaşdırır, qlobal maliyyə və ticarət sistemlərinə inteqrasiyasını dərinləşdirir.

***T.ARAZOĞLU***
***XQ***

### Ekspert rəyi



**Lalə XƏLİLZADƏ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Ərəb ölkələri üzrə eksperti**

Son dövrlər Azərbaycan və Bəhreyn arasında ikitərəfli əlaqələr həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə əhəmiyyətli dərəcədə inkişaf edir. Münasibətlər qarşılıqlı hörmət, iqtisadi əməkdaşlıq və regional sabitliyə töhfə prinsipləri üzərində qurulub.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan və Bəhreyn arasında diplomatik əlaqələrin yaradılmasının 30 ili tamam olacaq. Bu tarixi mərhələ ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm imkanlar açır. Əlaqələr yalnız iki ölkə arasında deyil, beynəlxalq səviyyədə də davamlı inkişaf edir. Rəsmi Manama Azərbaycan ərazisinin bütövlüyünü daim dəstəkləyən və ölkəyə müxtəlif sahələrdə dəstək göstərən dövlət kimi tanınır.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində Bəhreynin Azərbaycanın mövqeyini dəstəkləməsi ölkəmiz tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda, Azərbaycan-Bəhreyn Qoşulma Hərəkatı (QH), BMT və İslam Əməkdaşlıq Təşkilatı (ECO) kimi beynəlxalq platformalarda əməkdaşlıq sürətlə inkişaf edir. Bəhreyin tərəfindən parlamentlərarası əməkdaşlıq çərçivəsində də dəstək göstərilmiş və Parlament Şəbəkəsinin ikinci iclası Manamada uğurla təşkil olunmuşdur. Azərbaycan Milli Məclisində Bəhreynlə parlamentlərarası əlaqələri idarə edən işçi qrup da fəaliyyət göstərir ki, bu da ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edir.

İki ölkənin xarici işlər nazirləri arasında ilk görüş mayın 12-də Şura Məclisinin sədri ilə keçirilmişdi. Bu görüşlərdə bir sıra önəmli məsələlər müzakirə olunmuşdur. Xüsusilə, diplomatik pasportlara malik şəxslərin qarşılıqlı olaraq vizasız səfər imkanları məsələsi razılaşdırılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Körfəz ölkələri ilə əlaqələri sürətlə inkişaf edir. Bu, ümumilikdə ərəb ölkələri və Yaxın Şərq regionu ilə əlaqələrin genişlənməsini də əks etdirir. Azərbaycan həmçinin Yaxın Şərq və Qafqaz arasında körpü rolunu oynayır. Belə ki, artıq Bəhreynlə viza rejimi ləğv olunub və bu ölkə Körfəz regionundakı maliyyə və investisiya mərkəzləri ilə sıx əməkdaşlıq edir.

Gələcəkdə iqtisadi və maliyyə sahələrində ikitərəfli əlaqələrin daha da inkişaf edəcəyi gözlənilir. Eyni zamanda, Azərbaycanda keçirilən regional forumlarda Bəhreyn fəal iştirak edir. Elə son Manama forumunda da xarici işlər naziri Ceyhun Bayramov iştirak etmişdi.

XQ-nin aktual müsahibəsi

**Son illərdə Azərbaycan iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, aparılan məqsədyönlü islahatlar və həyata keçirilən strateji layihələr ölkəmizin beynəlxalq diqqət mərkəzinə çevrilməsində mühüm rol oynayır. Dövlətin iqtisadi siyasəti uzunmüddətli sabitliklə yanaşı, rəqabətqabiliyyətli bazar münasibətlərinin formalaşmasına, qeyri-neft sektorunun inkişafına və dayanıqlı artım modelinin qurulmasına xidmət edir.**

**Məhz bu səbəbdən də Azərbaycan bu gün regionun iqtisadi liderlərindən biri kimi tanınır, həm xarici investorların, həm də beynəlxalq maliyyə institutlarının diqqətini özünə cəlb edir. Enerji siyasətindən tutmuş nəqliyyat-tranzit imkanlarına qədər geniş spektrdə həyata keçirilən islahatlar ölkənin gələcəyinə inamı daha da gücləndirir. Biz də bu mövzular ətrafında söhbət açmaq, Azərbaycanın iqtisadi inkişafının yeni mərhələsini və həyata keçirilən islahatların əsas hədəflərini daha dərindən təhlil etmək üçün iqtisad elmləri doktoru, professor Fikrət Yusifovla həmsöhbət olduq, onunla geniş fikir mübadiləsi apardıq.**

# Azərbaycanın iqtisadi inkişaf modeli qlobal gündəlikdə

## *Dünyanın maliyyə nəhənglərinin ölkəmizə diqqəti artıb*



**– Fikrət müəllim, Azərbaycan post müharibə dövründə yeni iqtisadi inkişaf modelini hansı prinsiplər üzərində qurur, xüsusən, enerji istiqamətində hansı hədəflər müəyyənləşdirilib?**

– Qarşıya qoyulan əsas hədəf ölkə iqtisadiyyatının inkişafı üçün yeni modelin formalaşdırılmasıdır. Bu gün dünyanın siyasi və iqtisadi müstəvisində gedən proseslər göstərir ki, iqtisadiyyatın real sektorunun yüksəlişi və onun neft-qaz gəlirlərindən asılılığının azaldılması artıq zamanın tələbidir. Dünyanın enerji balansının alternativ enerjinin xeyrinə sürətlə dəyişdiyi, Azərbaycanın isə bu sahədə regionun aparıcı dövlətlərindən birinə çevrildiyi indiki şəraitdə yeni iqtisadi inkişaf modelinin hazırlanması daha da aktuallaşır.

Ölkəmizdə "yaşıl enerji" istehsalına dövlət səviyyəsində verilən önəm və bu məqsədlə Şərqi Zəngəzur, Qarabağ və Naxçıvanın "yaşıl enerji zonası" elan olunması təsadüfi deyil. Azərbaycan hökuməti yalnız iqtisadiyyatın deyil, həm də ümumilikdə enerji təminatının neft və qazdan asılılığını azaltmaq yolunu seçib. Bu məqsədlə cəlb olunan iri investisiyalar nəticəsində ölkəmizin yaxın gələcəkdə regionda "yaşıl enerji"nin nümunəvi ixracatçılarından birinə çevriləcəyi gözlənilir. Avropaya neft və qaz satan Azərbaycan, eyni zamanda, qoca qitəyə "yaşıl enerji" ixracını da planlaşdırır və bu istiqamətdə artıq Avropanın şərqində yerləşən bir sıra dövlətlərlə ilkin razılaşmalar əldə olunub. Gələcəkdə Qara dənizin dibi ilə çəkiləcək xüsusi kabel vasitəsilə Avropaya "yaşıl enerji" ixracı hədəflənir. Digər tərəfdən, nəqliyyat sahəsində də əsaslı inkişaf var. Bu gün dünyanın aparıcı qüvvələrinin diqqəti məhz Azərbaycana yönəlib.

**– Ölkə başçısının Nyu-Yorka səfəri və bu çərçivədə qarşı tərəflərin müraciəti əsasında keçirilən görüşlər diqqət mərkəzindədir. Xüsusilə, 6-cı Xəzər Biznes Forumunda aparılan müzakirələri də buna əlavə etsək, bütün bunlar Azərbaycanın Orta Dəhlizdəki rolunu və beynəlxalq əhəmiyyətini necə gücləndirir?**

– Azərbaycan Prezidenti cənab İlham Əliyev son illərdə xarici səfərləri zamanı dünyanın aparıcı maliyyə institutlarının və investisiya şirkətlərinin rəhbərləri ilə mütəmadi olaraq xüsusi görüşlər keçirir. Bu görüşlər ölkəyə xarici kapitalın cəlb edilməsində mühüm rol oynayır. Son 22 ilə yaxın dövrdə Azərbaycanı regionun ən nüfuzlu dövlətinə çevirməyi bacaran Prezident İlham Əliyev Ulu öndər tərəfindən təməli qoyulmuş iqtisadi inkişaf yolunu yeni mərhələdə müasir model əsasında davam etdirir. Onun ABŞ-a son səfəri zamanı Nyu-Yorkda keçirilən 6-cı Xəzər Biznes Forumunda Orta Dəhliz və regional investisiya imkanları geniş müzakirə olunub. Forumun nəticələri bir daha sübut etdi ki, ABŞ-ın Avrasiya siyasətində Xəzər regionuna xüsusi əhəmiyyət verilir. Şərqlə Qərbi birləşdirən ən qısa yol – Orta Dəhlizin Azərbaycan üzərindən keçməsi ölkəmizin beynəlxalq mövqeyinin güclənməsinə, coğrafi üstünlüklərimizin isə strateji fürsətə çevrilməsinə səbəb olur.

Bu gün dünya ticarətinin ən aktual problemlərindən biri, bəlkə də birincisi, YOL məsələsidir. Qlobal düzənin yenidən qurulması uğrunda böyük güclərin apardığı mübarizənin əsas hədəflərindən biri də məhz yollar üzərində nəzarətə sahib olmaqdır. 2024-cü ildə Orta Dəhliz vasitəsilə daşınan yüklərin həcmi 62 faiz artaraq 4,5 milyon tona çatdı.

Bu göstərici marşrutun potensialına dair region aktorlarının hesablamalarını gücləndirir. 2025-ci il üçün həcmin 5,2 milyon tona yaxınlaşması gözlənilir. Proqnozlara görə, bunun, təxminən, 4,2 milyon tonu marşruta daxil ölkələrin ərazisindən keçəcək, daşımaların strukturunda isə həm quru yük (təxminən, 2,5 milyon ton – 96 min TEU ekvivalenti), həm də enerji məhsulları (təxminən, 1,7 milyon ton neft) mühüm pay təşkil edəcək.

Bu artımı davam etdirmək üçün əsas məqsəd genişmiqyaslı infrastruktur və idarəetmə işlərini tənzimləməkdir. Məhz bu inkişaf xətti ilə 2027-ci ilə qədər marşrutun ötürücülük qabiliyyəti ildə 10 milyon tona çata bilər.

Dəyəri 8 trilyon ABŞ dolları olan Çinin "Bir kəmər, bir yol" layihəsi və yollara nəzarət uğrunda Çinlə mübarizə aparan digər böyük güclərin keçən il bu layihəyə alternativ olaraq Hindistandan Yunanıstana uzanan digər bir yol layihəsini ortaya çıxarması yollara nəzarət uğrunda böyük güclər arasında gedən mübarizənin getdikcə şiddətlənməsinin bariz nümunəsidir. Qısa ticarət yolu daha çox mənfəət əldə etməyin mühüm şərtidir. Bu səbəbdən nəhəng güclər bu gün iqtisadi cəhətdən daha sərfəli yolların nəzarətə götürülməsi uğrunda ciddi mübarizə aparır. Bir adi misalla söylədiklərimizi daha aydın izah etməyə çalışaq: bu gün Şərqlə Qərbi birləşdirən və real olaraq istifadə edilən iki yol mövcuddur. Bunlardan biri Sakit və Hind okeanları üzərindən Süveyş kanalı vasitəsilə Avropaya uzanan su yolu, digəri isə Xəzər dənizi üzərindən keçən quru və su yolu hesab edilən Orta Dəhlizdir.

**– Azərbaycan Orta Dəhlizin mühüm seqmenti kimi Çinlə Avropa arasında artan ticarət dövriyyəsi fonunda nəqliyyat müddətinə və biznesin rentabelliyinə hansı üstünlüklər qazandırır?**

– Əgər Çində istehsal olunan məhsullar Sakit okean, Hind okeanı və Süveyş kanalı vasitəsilə Avropa bazarlarına 45, bəzən isə daha çox günə çatdırılırsa, həmin bazarlara daşımaları Orta Dəhliz vasitəsilə iki, hətta üç dəfə qısa müddətdə həyata keçirmək mümkündür. Nəzərə alsaq ki, son zamanlar Qırmızı dənizdə Bab-əl-Məndəb boğazı ətrafında husilərin Çindən gələn yük gəmilərinə hücumları nəticəsində gəmilər Afrika qitəsini dolanaraq Avropaya çatır, bu halda nəqliyyat müddəti 60 günə qədər uzana bilir.

Belə olan təqdirdə istehsal etdiyi məhsuldan mənfəəti 15-20 günə deyil, 40-60 günə əldə edən biznes böyük itkilərlə üzləşir. Məsələn, 2024-cü ildə Çinlə Avropa İttifaqı arasında ticarət dövriyyəsi 800 milyard ABŞ dolları səviyyəsində olub. Bu daşımaların təxminən 80 faizi uzun su yolu ilə həyata keçirilib. İstənilən investor üçün yüklərin Çinin qərbindən Türkiyəyə 15 günə, Azərbaycana isə 9 günə çatdırılması fantastik uğur sayılır. Bu gün Zəngəzur dəhlizi vasitəsilə Avropaya uzanan Orta Dəhliz Şərqlə Qərbi birləşdirən uzun su yoluna nisbətdə üç dəfə qısa, deməli, üç dəfə də sərfəlidir.

**– Bəs, investorların Azərbaycana kapital yönləndirməsi baxımından hansı işlər görülür?**

– Bilirsiniz, əslində, kapital qoyuluşunun və xarici investorların ölkəmizdə marağının arxasında dayanan əsas səbəblərdən biri elə Zəngəzur dəhlizinin (TRIPP) perspektividir. Çünki Orta Dəhliz yalnız yükdaşımaların həyata keçiriləcəyi nəqliyyat marşrutu kimi qəbul edilməməlidir. Dəhlizin əhatə etdiyi qonşu ölkələrin ərazilərində yolboyu yeni bir canlanma, inkişaf baş verəcək. Bir sözlə, bu yol boyunca istehsal və ticarətin inkişafı yeni vüsət alacaqdır. Bu isə yolun keçdiyi hər bir ölkədə, ilk növbədə isə Azərbaycanda, xüsusilə də Naxçıvan bölgəsində iqtisadi dirçəlişin əsasını qoyacaq.

Bu sırada Naxçıvanda Azad İqtisadi Zonanın yaradılması da mühüm təşəbbüslərdən biri olmalıdır. Azərbaycan Prezidenti sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edərkən Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəhəng nəqliyyat qovşağına çevrilməsindən bəhs etdi. Ölkə başçısı bildirdi ki, son illərdə Orta Dəhlizlə daşımalar sürətlə artıb, 2022-ci ildən bəri yükdaşımalarda təqribən 90 faiz artım müşahidə olunub. Bununla yanaşı, Xəzər dənizi vasitəsilə də yükdaşımaların həcmi məsələsi gündəmdədir.

Dövlət başçısı əlavə edib ki, Xəzərin ən böyük ticarət donanmasının, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq. Digər tərəfdən, Ələt Beynəlxalq Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib.

Orta Dəhlizin yük ötürmək imkanlarının artırılması təbii ki, bu layihəyə yeni investisiyaların cəlb olunmasını zəruri edəcəkdir. Azərbaycan böyük maliyyə imkanlarına malik bir ölkə olsa da belə layihələrin maliyyələşdirilməsini adətən cəlb edilmiş vəsaitlər hesabına həyata keçirmək daha sərfəli olur. Bir sözlə, beynəlxalq ticarət daşımalarının həyata keçirildiyi və istənilən investor üçün ən sərfəli hesab edilən belə bir layihəyə vəsait cəlb etmək riskli hesab edilə bilməz. Çünki bu layihə onun reallaşdırılmasına cəlb edilmiş vəsaitlərin vaxtında qaytarılmasına tam təminat verə biləcək bir layihədir.

**– Layihənin reallaşması baxımından dünyanın maliyyə nəhənglərinin mövqeyi necədir?**

– Düşünürəm ki, böyük beynəlxalq əhəmiyyəti olan Orta Dəhlizlə bağlı layihələrin Dünya Bankı və Asiya İnkişaf Bankı kimi nəhəng maliyyə institutlarının münasib kreditləri hesabına maliyyələşdirilməsi ən doğru seçim olardı. Xatırladım ki, I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays Orta Dəhlizin inkişafına Dünya Bankının (DB) fəal dəstəyinin davam edəcəyini vurğuladı. O, infrastrukturun modernləşdirilməsi, tənzimləmə islahatları və rəqəmsal ticarətin təşviqi sahələrində layihələrin prioritet olacağını bildirib və DB-nin digər beynəlxalq tərəfdaşlarla bu təşəbbüsləri əlaqələndirməyə hazır olduğunu qeyd edib. Digər tərəfdən, Asiya İnkişaf Bankı (AİB) artıq Orta Dəhlizin inkişafı ilə bağlı 24 layihənin gerçəkləşdirilməsinə 2001-ci ildən bəri 4 milyard dollara yaxın vəsait ayırıb.

İstənilən halda regionun lider dövləti kimi Azərbaycanın istər BOEM sahəsində, istərsə də nəqliyyat arteriyalarının mərkəzi missiyasında uğurlu olacağı sirr deyil. Bunu artıq qlobal maliyyə institutları öz proqnozlarında bariz şəkildə göstərir. Ölkə başçısının da bu çərçivədə göstərdiyi diqqət və qayğı gələcəkdə əldə ediləcək dividendlərin əsas qarantıdır.

**– Maraqlı söhbətə görə sağ olun.**

***Müsahibəni hazırladı:***
***Nurlan ABDALOV***
***XQ***

# 6 ayda büdcə gəlirləri ÜDM-in 32 faizinə çatıb




**Asiya İnkişaf Bankı (AİB) Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda iqtisadi artımı 2025-ci il üçün 5,5 faiz, 2026-cı il üçün isə 4,9 faiz səviyyəsində proqnozlaşdırır. Bu barədə qurumun sentyabr ayı üçün dərc olunmuş hesabatında məlumat verilib.**

Bank gələn il üçün Azərbaycanda karbohidrogen hasilatının azalacağı səbəbindən artım proqnozunun aşağı salındığını vurğulayıb. Qurum subregion üzrə iqtisadiyyatın 2025-ci ildə 5,5 faiz artacağı, lakin gələn il 4,9 faiz azalacağı qənaətindədir.

Hazırda Cənubi Qafqaz ölkələri iqtisadiyyatlarının mülayim artım nümayiş etdirdiyini vurğulayan hesabat müəlliflərinin fikrincə, bu ilin ötən dövründə Azərbaycan yüksək gəlirlər hesabına büdcə profisitini qoruyub. Gəlirlərin çoxalması isə Maliyyə Nazirliyinə ehtiyatları artırmağa imkan verib. Hesabatda qeyd olunur: "Xüsusilə, 2025-ci ilin birinci yarısında gəlirlər ÜDM-in 31,9 faizinə qədər artıb. Buna isə vergi daxilolmalarının, eləcə də Azərbaycan Dövlət Neft Fondundan büdcəyə köçürmələrin çoxalması səbəb olub. Xərclər 2024-cü ildəki ÜDM-in 26,8 faizindən 2025-ci ildə 27,5 faizə qədər artıb. Bu da kapital xərclərinin 11,1 faiz, cari xərclərin isə 7,5 faiz artmasını əks etdirir. Nəticədə 2025-ci ilin yanvar-iyun aylarında büdcə profisiti ÜDM-in 4,4 faizini təşkil edib".

Eyni zamanda, AİB bu ilin ötən dövründə ölkəmizin üstün xarici mövqeyini qoruduğunu vurğulayıb. Qeyd olunub ki, bu ilin birinci rübündə cari hesab profisiti 1,1 milyard ABŞ dolları təşkil edib, iyunun sonuna valyuta ehtiyatları isə 77,6 milyard ABŞ dollarına qədər artıb. Bu da ÜDM-in 105 faizinə bərabərdir və dövlətin xarici borcundan, təxminən, 15 dəfə çoxdur. Hesabatda, həmçinin bildirilib ki, Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 11,2 milyard ABŞ dolları təşkil edib. Karbohidrogenlərin qiymətlərində volatilliyə baxmayaraq, neft və qaz ticarətindən davamlı gəlirlər, eləcə də qeyri-karbohidrogen ixracının artması pul köçürmələrinin azalmasını kompensasiya edib.

AİB-nin bu il üçün Azərbaycanda gözlənilən inflyasiya səviyyəsi ilə bağlı proqnozu da nikbindir. Belə ki, qurumun sentyabr hesabatına əsasən, cari ilin ikinci yarısında ölkəmizdə inflyasiya yavaşıyacaq. Sənəddə qeyd olunub ki, bu ilin birinci yarısında idxal məhsullarının qiymətlərinin artması, eləcə də 2024-cü ilin ortasında və 2025-ci ilin əvvəlində dövlət tərəfindən tənzimlənən xidmətlərə görə, tariflərin artırılması fonunda inflyasiya sürətlənib. Orta illik inflyasiya bu il iyun ayının sonuna 5,9 faizə (2024-cü ilin birinci yarısındakı 0,7 faiz) qədər yüksəlib. Artım fonunda qida məhsullarının qiymətlərində 6,6 faiz, digər malların qiymətlərində 2,7 faiz, xidmətlərin qiymətlərində isə 7,5 bahalaşma müşahidə olunub.

AİB-in qiymətləndirməsinə görə, ilin qalan hissəsində Azərbaycanda inflyasiya enəcək. Buna səbəb isə qiymətlərin inzibati tənzimlənməsinin təsirinin tədricən azalması olacaq. Hesabat müəlliflərinin fikrincə, ölkədə inflyasiya 2-6 faiz hədəf diapazonunda qaldığı üçün Azərbaycan Mərkəzi Bankı 2025-ci ilin iyul ayında uçot dərəcəsini 7,25 faizdən 7 faizə (2024-cü ilin mayından bəri ilk dəfə) qədər endirib. Cari ilin ikinci yarısında ölkədə inflyasiyanın gözlənilən yavaşımasını nəzərə alan bank 2025-2026-cı illər üzrə inflyasiya proqnozlarını 4,2 faiz və 3,5 faiz səviyyəsində saxlayıb.

1966-cı ildə AİB-nin əsas məqsədi üzv ölkələrin iqtisadi inkişafına dəstək olmaqla yoxsulluğun aradan qaldırılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yardım etməkdir. Baş ofisi Filippin Respublikasının paytaxtı Manila şəhərində yerləşən Asiya İnkişaf Bankına 48-i regional və 19-u qeyri-regional olmaqla 67 ölkə üzvdür.

Azərbaycan isə 1999-cu ildən etibarən AİB-ə üzv seçilib. Ölkəmizin bankın səhmlərində payı isə 0,447 faiz təşkil edir. AİB-in Azərbaycanda Rezident Missiyası 2004-cü ildə açılıb. Ötən 26 ildə Azərbaycan Respublikası AİB-dən ümumi dəyəri, təxminən, 5,2 milyard dollar olan kredit, qrant və texniki yardımlar əldə edib. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrinə aiddir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sumqayıtın ilk elektrobusları paytaxtın yollarında

**Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" sərəncamına uyğun olaraq ölkədə ekoloji təmiz nəqliyyat vasitələrinin istehsalı və istifadəsi genişləndirilir.**

Bu günlərdə Sumqayıt Sənaye Parkında "BYD" "Azerbaijan Energy Automotive Factory" MMC-nin istehsal etdiyi 2 elektrik avtobusu "BakuBus"a təhvil verilib. İqtisadiyyat Nazirliyinin məlumatına görə, ilk avtobuslar SKD üsulu ilə yığımdan çıxıb.



İlk tam elektrik avtobusunun "BakuBus" MMC-yə təqdim edilməsi ilə bağlı keçirilən tədbirdə iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Çinin Azərbaycandakı səfiri Lu Mey, "BYD" şirkətinin baş direktoru Tian Çunlonq, "BakuBus" MMC-nin direktoru Şahin Həsənov və digər şəxslər iştirak ediblər. Çıxışlarda layihənin nəqliyyat sektorunda yeni mərhələnin başlanğıcı olduğu, sənaye potensialını, texnologiya transferini və insan kapitalını gücləndirdiyi vurğulanıb. Bildirilib ki, bu, Azərbaycanın "yaşıl" enerji və "yaşıl" nəqliyyat siyasətinin mühüm hissəsidir və Azərbaycan–Çin əməkdaşlığının uğurlu nümunəsidir.

Qeyd olunub ki, 12 metrlik avtobus 82 sərnişin tutumuna malikdir və bir dəfə şarjla 350 kilometr məsafə qət edə bilir. Gələcəkdə müxtəlif tutumlu modellərin, eləcə də paralel olaraq yük, kommunal və minik avtomobillərinin istehsalı istiqamətində təşəbbüslər reallaşdırılacaq. Bu layihələr Azərbaycanın regionda ekoloji təmiz və dayanıqlı nəqliyyat sahəsində mövqeyini gücləndirir.

***XQ***

*Mustafa Topçubaşov – 130*

# Azərbaycan cərrahiyyəsinin patriarxı

**Milli elm və səhiyyə tariximizdə silinməz izlər qoymuş, ölkəmizdə sivil inkişafa layiqli töhfələr vermiş görkəmli şəxsiyyətlərdən biri də Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən olmuş tanınmış alim və ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovdur.**





Doğulub boya-başa çatdığı, təhsil və tərbiyə aldığı müqəddəs torpaq ona milli kimliyin güclü ruhunu, yüksək mənəvi-əxlaqi dəyərləri və elmin əbədi axtarışına inamı aşılamışdır. Bütün bunlar görkəmli təbibin gələcəkdə keçəcəyi enişli-yoxuşlu, lakin yüksəlişlə dolu həyat yoluna gur işıq salmışdır.

Mustafa Topçubaşov fundamental və tətbiqi tədqiqatları, elmi kəşfləri ilə Azərbaycan tibb elminin inkişafında yeni səhifə açmış, müasir səhiyyə sisteminin əsaslarını möhkəmləndirərək xalqın rifahına əhəmiyyətli töhfələr vermişdir. Mustafa bəy bütün şüurlu həyatı boyu praktiki fəaliyyətlə məşğul olmuş "xalq həkimi" titulunu qazanmaqla yanaşı, həm də intellektual və müdrik alim kimi dünya tibb elminə sanballı elmi irs miras qoymuşdur.

Topçubaşov akademik düşüncə ilə gerçək həyat baxışlarını, humanizm prinsipləri ilə təşkilati bacarıqlarını birləşdirərək, cəmiyyətin sosial sağlamlıq institutlarının formalaşdırılmasında mühüm rol oynamışdır. SSRİ Tibb Elmləri Akademiyasının və Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı kimi o, öz elmi nüfuzunu milli inkişaf strategiyasının xidmətinə yönəltməyə nail olmuşdur.

Akademikin nəzəri və praktiki fəaliyyəti həm elmi strukturlaşdırma, yeni nəsil kadrların hazırlanması, həm də xəstəliklərə qarşı sistemli mübarizə metodlarının işlənib hazırlanması ilə yadda qalmışdır. Onun rəhbərlik etdiyi qurumlar Azərbaycan tibb elminin və səhiyyəsinin dayaqlarına çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, Mustafa Topçubaşovun elmi və mənəvi irsi milli sərvət və iftixar mənbəyidir. Onun bütün həyatı, davranışı, insanlara, xüsusilə tibbi yardıma ehtiyacı olanlara münasibəti, vətəndaş əxlaqı humanizm prinsiplərinin təntənəsi kimi dəyərləndirilə bilər.

Akademik Mustafa Topçubaşovun həyat və fəaliyyəti yalnız yaşadığı dövr üçün deyil, həm də gələcək nəsillərin sağlamlığına dəstək, elmi idealların ilham mənbəyi olaraq qiymətləndirilir. Bu səbəbdəndir ki, böyük alim və elm təşkilatçısının xatirəsi, onun irsi və əməlləri zaman keçdikcə unudulmamış, əksinə, daha çox dəyər qazanmış, yubileyləri isə hər zaman yüksək səviyyədə qeyd olunmuşdur.

Azərbaycan Prezidentinin 10 iyun 2025-ci il tarixli sərəncamına əsasən, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 illik yubileyi də ölkə səviyyəsində geniş qeyd olunur. Sərəncamda deyilir: "O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır". Yubiley tədbirlərində böyük alimin ömür yoluna, zəngin elmi yaradıcılığına və tarixi missiyasına bir daha nəzər salınır, onun gələcək nəsillərə ötürdüyü çoxşaxəli irs azərbaycançılıq işığında təhlil edilir.

Akademik Mustafa Topçubaşov 1895-ci il avqustun 5-də Qərbi Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olan qədim İrəvan şəhərində anadan olmuş, ibtidai təhsilini tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə almışdır. Azərbaycan tarixinə Əziz Əliyev kimi görkəmli şəxsiyyətlər vermiş rusdilli Kisi gimnaziyasını 1914-cü ildə qızıl medalla başa vurduqdan sonra bir daha geri dönə bilməyəcəyi doğma evindən ayrılaraq Ukraynaya getmiş, burada Kiyev Universitetinin tibb fakültəsinə daxil olmuşdur.

Gənc Mustafa bəy universitetdə dövrün qabaqcıl alim və pedaqoqlarından, müasir cərrahiyyənin banilərindən dərs alaraq elmi dünyagörüşünü formalaşdırmış, tibb elminin fundamental biliklərinə yiyələnmiş və XX əsrin qarşıya qoyduğu mürəkkəb sağlamlıq problemlərinə cavab axtarışını həyat məqsədinə çevirmişdir.

1919-cu ildə ali təhsilini başa vuran Mustafa Topçubaşov yenicə istiqlaliyyət qazanmış Vətənə – ciddi səhiyyə çağırışları ilə üzləşən Azərbaycana dönmüşdür. O, AXC-nin yenicə təsis etdiyi Bakı Universitetinin tibb fakültəsinin cərrahiyyə kafedrasının klinikasında ordinator kimi fəaliyyətə başlamış, dekan professor İvan Şirokoqorovun, kafedra müdiri Arkadi Oşmanın və rektor, görkəmli cərrah-anatom professor Vasili Razumovskinin elmi-metodoloji dəstəyi ilə elmi-pedaqoji inkişafını davam etdirmişdir. Mustafa Topçubaşov həmin şəxslərin rəhbərliyi ilə gərgin tədris və təcrübə mühitində çalışaraq yeni tibbi texnikaları mənimsəmiş, peşəkar cərrah kimi formalaşmışdır. Sonralar Mustafa bəy A.Oşmanı "özünün ikinci universiteti" adlandırmışdı.

Mustafa Topçubaşov 1922-ci ildə Nəriman Nərimanovun təklifi ilə Naxçıvana göndərilərək, orada xəstəxana, ambulatoriya, Ordubadda feldşer məntəqələri təşkil etmişdir. O, ilk cərrahiyyə əməliyyatını da Naxçıvanda etmişdir. Akademik sonralar xatirələrində həmin dövrü belə təsvir edir: "İş vaxtımın başlanğıcı və sonu yox idi. Gündüzün və gecənin nə vaxtı olursa-olsun xəstə gətirirdilər, yaxud xəstə üstə çağırırdılar. Mən həm terapevt, həm cərrah, həm nevropatoloq, həm epidemioloq, həm vərəm həkimi, həm yoluxucu xəstəliklər həkimi... işləyirdim. Həkimsən, demək loğmansan, bütün dərdlərə əlac qılmalısan".

Mustafa Topçubaşov 1923-cü ildə Bakıya qaytarılaraq professor A.Oşmanın təqdimatı ilə əsasən neftçilərə xidmət edən və Bayılda yerləşən Paster adına xəstəxananın cərrahiyyə şöbəsinin, Cərrahiyyə Klinikasının müdiri təyin edilmişdirş O, tez-tez rayonlara gedərək, yerlərdə cərrahi şöbələr təşkil etmiş, ambulatoriya və stasionaraqədərki cərrahi yardımın mexanizmini qurmuş, əhaliyə birbaşa tibbi yardımlar göstərmişdir.

Gənc həkim 1923-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin cərrahiyyə klinikasında assistent kimi fəaliyyətini davam etdirmiş, eyni zamanda, Semaşko adına xəstəxananın 11-ci cərrahiyyə korpusuna rəhbərlik etmişdir. 1925-ci ildən Mustafa Topçubaşov elmi-tədqiqat işlərini malyariya xəstəliyinin klinikası, patogenezi və profilaktikası məsələlərinə yönəltmişdir.

1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığının tibbi təcrübə keçmək üçün Almaniyaya göndərdiyi həkimlərin sırasında gələcəyin akademiklərindən Mirəsədulla Mirqasımov və Mustafa Topçubaşov da olmuşlar. Berlin, Münhen, Leypsiq kimi elmi mərkəzlərdə, qabaqcıl klinikalarda təkmilləşmə keçən azərbaycanlı həkimlər yeni elmi biliklərə, cərrahi texnikalara yiyələnmiş, tanınmış nevropatoloq və cərrahlarla fikir mübadiləsi aparmışlar. Məşhur professor Krause azərbaycanlı həkimlərə müraciətlə demişdi: "Əgər Azərbaycanın indi sizin kimi yüz oğlu varsa, yarım əsrdən sonra yüz professoru olacaqdır. Mən bütün varlığımla buna inanıram".

Mustafa bəy Topçubaşov Almaniyadan Vətənə yalnız əldə etdiyi yeni biliklərlə deyil, həm də elmi-metodik mərkəz yaratmaq ideyası ilə qayıtmışdı. O, şəhər xəstəxanalarından birində elmi-metodik bazanın əsası qoyulan ilk cərrahi mərkəzi təşkil etmiş, təcrübə və tədqiqatı gündəlik xəstəxana işi ilə sintez etmişdi.

Elmi tədqiqatlar böyük maraq göstərən və bu yolda durmadan çalışan cərrah 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsinə və professor elmi adına layiq görülmüşdür. Gənc alim 1931-ci ildə Azərbaycan Cərrahlar Cəmiyyətini yaradaraq 1939-cu ilə kimi bu quruma rəhbərlik etmişdir.

1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun fəaliyyətə başlamasına dəyərli töhfələr vermiş Mustafa Topçubaşov burada cərrahiyyə klinikasına direktor və fakültətiv cərrahiyyə kafedrasına (indiki III cərrahiyyə kafedrası) müdir təyin edilmiş və ömrünün sonuna qədər (1981-ci il) həm kafedra müdiri, həm də professor kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Görkəmli alim 1930-cu ildə Semaşko adına xəstəxananın 14-cü Cərrahiyyə korpusuna rəhbər təyin edilmişdir.

Akademik Mustafa Topçubaşov tibb elmi tarixində bir sıra səmərəli kəşfləri ilə yadda qalmışdır. Bunların ən mühümlərindən biri cərrahi ağrısızlaşdırma problemi ilə bağlı olmuşdur. Mustafa bəyin bu sahədə illərlə apardığı elmi axtarışlar ona 1937-ci ildə cərrahlıq praktikasına yeni, nisbətən təhlükəsiz keyləşdirmə metodunu – "analgezin" adlanan inyeksion efir-yağ narkozunu aşkar və tətbiq etməyə imkan vermişdir. Bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gəlinən bir sıra mənfi halların – dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s. aradan qaldırılmasına imkan verdiyinə görə cərrahlar tərəfindən geniş tətbiq edilmişdir. Təklif edilən efir-yağ qarışığı inyeksiyalarından həm də ödaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma halları zamanı müalicə və eləcə də doğuş proseslərində ağrısızlaşdırma vasitəsi kimi istifadə olunmuşdur.

1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığının Elmi-Tibbi Şurasının Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir. 1963-cü ildə SSRİ Tibb Elmləri Akademiyası Elmi-Tədqiqat Cərrahiyyə İnstitutunda keçirilmiş elmi sessiyada M.Topçubaşov "sürəkli analgeziya" adlı kəşfinə görə A.Vişnevski mükafatı və xatirə medalı ilə təltif olunmuşdur.

Leninqradlı akademik P.Kupriyanov M.Topçubaşovun qeyd olunan kəşfi haqqında demişdir: "Bakı nefti müharibə illərində tanklarımıza, təyyarələrimizə nə vermişdisə, efir-yağ narkozu da hərbi-səhra cərrahiyyəmizə onu vermişdir".

M.Topçubaşovun II Dünya müharibəsi dövründəki fəaliyyətləri də təqdirəlayiqdir. O, Azərbaycan Xalq Səhiyyə Komissarlığı Təxliyyə Hospitalları İdarəsinin baş cərrahı təyin olunduqdan sonra ilk dəfə hərbi-səhra cərrahlığının səviyyəsini yüksəltmiş, profilləşməsini tətbiq etmiş və bunun sayəsində ixtisaslaşmış 32 evakohospital (torakal, neyrocərrahlıq, uroloji, travmatoloji) yaradılmışdır.

Müharibə dövründə daim cəbhəyə can atan Mustafa Topçubaşov Sabunçuda cərrahi şöbəyə rəhbərlik etməklə yanaşı, Bakıdakı Dəmiryolu xəstəxanasında, doğum evində, Xalq Səhiyyə Komissarlığı xəstəxanalarında, hərbi hospitalda, Təyyarəçilər xəstəxanasında, Keşlə, Qara şəhər, Mərdəkan, Neftçilər xəstəxanalarında, Binəqədi rayon xəstəxanasında da cərrahi əməliyyatlar aparmışdır.

Apardığı çoxsaylı əməliyyat və müşahidələr professora bir sıra səmərəli təkliflər irəli sürmək imkanı da verirdi. 1941-ci ilin sonunda M.Topçubaşovun ideyası əsasında bədəndə olan yad cisimlərin lokalizasiyasını təyin etməyə imkan verən universal cihaz yaradılmış və müvəffəqiyyətlə tətbiq edilmişdir. Bu və digər kəşflərinə görə Mustafa Topçubaşov 1943-cü ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Mustafa Topçubaşov o illərdə apardığı elmi-tədqiqat işlərinin nəticəsi olaraq kəllə sümükləri defektlərinin zədələnmiş nahiyəsinin ətrafından götürülən sümüklər vasitəsilə alloplastikası, periferik sinirlərin zədələnməsi zamanı baş vermiş iflicin tendomioplastika üsulu ilə müalicəsi, sinir liflərinin yaralanması hallarında mum-parafin tubajından istifadə edilməsi, yanıqlar zamanı parafin applikasiyasının tətbiqi, borulu sümüklərin sınıqlarında təcili aparılan metal-osteosintez üsulundan istifadə hospitallarda müvəffəqiyyətlə tətbiq olunmuşdur. Bu yeniliklər ona respublikadan kənarda da böyük şöhrət qazandırmışdır.

Mustafa Topçubaşov çoxşaxəli elmi, elmi-təşkilati və həkimlik fəaliyyətlərini 1945-1950-ci illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı vəzifəsində çalışaraq davam etdirmişdir. Səhiyyə sahəsindəki xidmətlərinə görə akademik M.Topçubaşov 1949-cu ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir, 1960-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Görkəmli alimin elmi-tədqiqat işlərinin əsas istiqamətini malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi, profilaktikası və cərrahi müalicəsi, öd yolları, xərçəng xəstəliklərinin cərrahi müalicə üsullarının işlənib hazırlanması və praktikaya tətbiqi, qarın və döş boşluğu orqanlarının cərrahi əməliyyat tələb edən xəstəliklərinin diaqnostikası, klinikası, profilaktikası və cərrahi müalicəsi, neyrocərrahiyyə və travmatologiya problemləri, müasir tibbi texnologiyaların işlənib hazırlanması, onların səhiyyə praktikasına tətbiqi və s. təşkil etmişdir.

M.Topçubaşov portal hipertenziya zamanı baş verən profuz qida borusu-mədə qanaxmaları ilə mübarizə metodu hazırlamış, qida borusu yanıqlarında rast gəlinən daralmaların müalicəsi ilə məşğul olmuş, bunun üçün ən yaxşı süni qida borusu vasitəsinin nazik bağırsaq olduğunu göstərmiş, borulu sümüklərin sınıqlarının təxirəsalınmaz osteosintezi üsulunu təklif etmişdir.

Alim dalaq, qaraciyər, böyrək, böyrəküstü vəzi kimi orqanlara abdominal-diafraqmal və bel-diafraqmal yollarının, urologiyada, travmatologiyada, neyrocərrahlıqda, abdominal və torakal cərrahlıqda yüksək səviyyəli əməliyyatların müəllifi kimi keçmiş Sovetlər İttifaqı, eləcə də xarici ölkə cərrahları arasında şöhrət qazanmışdı.

M.Topçubaşov hirdrosefaliya və epilepsiya kimi təhlükəli nevroloji xəstəliklərin müalicəsində də əhəmiyyətli işlər görmüşdür. Ölkəmizdə ilk dəfə hidrosefaliyanın cərrahi müalicəsi onun tərəfindən aparılmışdır. Alim bu patologiyanın daxili formasının müalicəsində piylikdən hazırlanan drenajdan istifadə edilməsini əsaslandırmışdır.

Akademik Mustafa Topçubaşovun həyat və fəaliyyətinin mühüm bir hissəsi Elmlər Akademiyası ilə bağlı olmuşdur. O, 1945-ci ildə respublikanın 14 nəfər digər görkəmli alimi ilə birgə Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərindən və ilk həqiqi üzvlərindən biri olmuşdur. Görkəmli alim qısa bir müddətdən sonra Akademiyanın Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinə sədr təyin edilmiş və bu vəzifəni 1951-ci ilin yayına kimi böyük uğurla icra etmişdir.

Mustafa Topçubaşovun təşəbbüsü və səyləri ilə 1946-cı ildə Elmi-Tədqiqat Naftalan Problem Laboratoriyasının və Eksperimental Kliniki Təbabət İnstitutunun yaradılması haqqında qərarlar qəbul olunmuşdur. Mustafa bəy Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin tərkibində 1947-1949-cu illərdə fəaliyyət göstərmiş həmin institutun direktoru, 1961-ci ildən laboratoriya rəhbəri kimi də təqdirəlayiq işlər görmüşdür.

Akademik Mustafa Topçubaşov 1951-1956-cı və 1959-1981-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifəsində çalışmışdır. Akademiya şəhərciyi, nəşriyyatı və mətbəəsi məhz onun təşəbbüsü ilə yaradılmışdır.

Mustafa Topçubaşovun Bolqarıstanda apardığı təmənnasız mürəkkəb cərrahi əməliyyatlar, universitetlərdə və təlim kurslarında etdiyi mühazirələr, kadr hazırlığına dəstəyi ona bolqar xalqının hüsn-rəğbətini, səmimi məhəbbətini qazandırmış və o, 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Mustafa bəy genişmiqyaslı elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuş, yüksəkixtisaslı həkim və alim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərmişdir. Onun layihəsi üzrə rəhbərlik etdiyi kafedrada operasiyon-auditoriya təşkil edilmişdir ki, bu da tələbələrə cərrahi müdaxilənin bütün fraqmentlərini izləməyə imkan verirdi.

Akademik Mustafa Topçubaşovun elmi məsləhətçiliyi və rəhbərliyi ilə 12 doktorluq və 32 namizədlik dissertasiyasının müdafiə edilməsi elmi kadr hazırlığına verdiyi böyük töhfələrə əhəmiyyətli sübutdur.

Akademik M.Topçubaşovun əldə etdiyi elmi nailiyyətlər 5 cildlik "Xüsusi cərrahlıq" kitabında, 8 monoqrafiyada, 300-dən çox məqalədə öz əksini tapmışdır. Mustafa bəyin "Ürək-damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahiyyə", "Portal hipertenziya və onun cərrahi müalicəsi" kitabları dünyanın müxtəlif dillərinə tərcümə edilmişdir.

Görkəmli alim beynəlxalq cərrahlıq konqreslərində çıxış etmiş, xarici ölkələrdə elmi-təcrübə mübadilələrinin iştirakçısı olmuşdur.

Cərrahların Lissabonda keçirilən XI Beynəlxalq konqresində akademik Mustafa Topçubaşov 20 nəfər sovet tibb alimi ilə birlikdə Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir. Akademik Mustafa Topçubaşov I-X çağırış Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı seçilmiş, 1953-1955-ci və 1967-1971-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri, Azərbaycan Respublikası Sülhü Müdafiə Komitəsinin sədri (1950-1981), Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü, Sovet İttifaqının Asiya və Afrika Ölkələri Xalqları ilə Həmrəylik Komitəsinin üzvü, "Böyük Tibb Ensiklopediyası"nın redaktorlarından biri və Azərbaycan Sovet Ensiklopediyası baş redaksiya heyətinin üzvü olmuşdur. Alim sülh işi uğrunda xidmətlərinə görə Ümumdünya Sülh Şurasının gümüş medalı və Sovet Sülhü Müdafiə Komitəsinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Akademik Mustafa Topçubaşovun ölkə və xalq qarşısında xidmətləri hər zaman yüksək qiymətləndirilmişdir. Böyük alim, pedaqoq və ictimai-siyasi xadim şərəfli fəaliyyəti ərzində Sosialist Əməyi Qəhrəmanı fəxri adına (1975) layiq görülmüş, "Şərəf nişanı" (1936), "Qırmızı Ulduz (1936, 1942)", 4 dəfə "Lenin" (1944, 1951, 1965, 1975), "Qırmızı Əmək Bayrağı (1946)", "Oktyabr İnqilabı" (1971), Bolqarıstanın I dərəcəli "Kirill və M.Mefodi" ordenləri və bir çox fəxri mükafatlarla təltif edilmişdir.

Akademik Mustafa bəy Topçubaşovun xatirəsini əbədiləşdirmək məqsədilə onun Azərbaycan Dövlət Tibb İnstitutunda 51 il kafedra müdiri vəzifəsində çalışdığı otağında "Xatirə muzeyi" yaradılmış, 5 cildlik "Xüsusi cərrahlıq" kitabı latın qrafikasına keçirilməklə yenidən çap olunmuşdur. Bakının və respublikanın bir sıra digər şəhərlərinin bəzi mərkəzi küçələrinə, Xəzər sularında üzən gəmiyə akademik Mustafa Topçubaşovun adı verilmişdir. 1995-ci ildə Azərpoçt tərəfindən Mustafa Topçubaşovun 100 illik yubileyinə həsr olunmuş poçt markası buraxılmışdır. Səhiyyə Nazirliyinin Respublika Elmi Cərrahiyyə Mərkəzi 1983-cü ildən böyük alimin adını daşıyır.

Akademik M.Topçubaşov cəmiyyət arasında gözəl ailə başçısı kimi də hörmət qazanmışdır. 1981-ci il noyabrın 20-də əbədiyyətə qovuşan görkəmli elm fədaisi, alovlu vətənpərvər, ictimai-siyasi xadim, akademik Mustafa bəy Topçubaşov qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaqdır. Tarixi şəxsiyyətlərin böyüklüyü onların qoyub getdiyi zəngin irslə ölçülür. Məhz bu baxımdan bu böyük şəxsiyyətin şərəfli həyat yolu yalnız bir alim və həkimin bioqrafiyası deyil, həm də həmişəyaşar elm, əxlaq və vətəndaşlıq məktəbidir.

*İradə HÜSEYNOVA,*
*AMEA-nın vitse-prezidenti, akademik*

*Arxa cəbhənin dəyanəti*

# Ermənilər geri çəkildikcə dinc əhalini raket atəşinə tuturdular

## *Soydaşlarımızın yenilməz iradəsi düşməni azğınlaşdırmışdı*



**2020-ci il sentyabrın 27-də başlayan II Qarabağ müharibəsi Azərbaycan tarixində dönüş nöqtəsi oldu. 30 ilə yaxın müddətdə davam edən işğala son qoymaq məqsədilə aparılan hərbi əməliyyatlar nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Lakin müharibə zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi cinayətlər, xüsusilə də dinc sakinlərə və mülki infrastruktur obyektlərinə qarşı yönələn hücumları beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə düşdü.**

Ermənistan tərəfi döyüş meydanında Azərbaycan Ordusunun üstünlüyü qarşısında tab gətirə bilmirdi, buna görə də təmas xəttindən uzaqda yerləşən şəhər və rayonları hədəf alırdı. Bu hücumların əsas məqsədi, görünür ki, Azərbaycan cəmiyyətində təşviş yaratmaq, hərbi-siyasi qərar qəbul edən dairələrə təzyiq göstərmək və diqqəti cəbhə xəttindən yayındırmaq idi. Lakin bu cür davranışlarla beynəlxalq humanitar hüquq, xüsusilə də 1949-cu il Cenevrə Konvensiyaları ciddi şə-



kildə pozulurdu.

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Goranboy və digər yaşayış məntəqələri müxtəlif vaxtlarda raket atəşinə tutuldu. Ən dəhşətlisi isə odur ki, bu hücumların bəzilərində "Skad" (Elbrus), "Smerç" və digər ağır artilleriya və ballistik raketlərdən istifadə olundu. Məsələn, Gəncəyə atılan raket zərbələri nəticəsində onlarla insan həyatını itirdi, yüzlərlə mülki şəxs yaralandı, çoxsaylı yaşayış evləri və obyektlər dağıdıldı. Eyni zamanda, Bərdə şəhərinə kasetli bombalı hücum nəticəsində çox sayda mülki şəxs həyatını itirdi. Bu isə beynəlxalq hüquqa görə qadağan olunmuş silahların istifadəsi faktı idi.

Azərbaycan bu hücumlarla bağlı dəfələrlə beynəlxalq təşkilatlara, o cümlədən BMT, ATƏT və Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciətlər etdi. Hücumlar zamanı həyatını itirən vətəndaşların şəkilləri, zərər çəkmiş evlər və infrastrukturun görüntüləri geniş şəkildə mediada yayıldı, Ermənistanın törətdiyi hərbi cinayətlər sənədləşdirildi. Azərbaycanın Baş Prokurorluğu bu faktlarla bağlı cinayət işləri açdı və beynəlxalq müstəvidə hüquqi proseslər başlatdı.

Müharibə zamanı mülki obyektlərin hədəfə alınması təkcə etik və humanist prinsiplərin pozulması deyildi, həm də beynəlxalq hüquq normalarına zidd hərəkətlər idi. Silahlı münaqişə zamanı hərbi və mülki hədəflər arasında fərq qoyulmurdu. Bu fərqə riayət etməyən tərəf isə təəssüf ki, Ermənistan idi. Həmin dövrdə bu faktlar yalnız Azərbaycanın yox, həm də bir çox beynəlxalq insan hüquqları təşkilatlarının hesabatlarında da yer almışdı.

Bu hadisələr bir daha onu göstərdi ki, Ermənistan dövləti müharibə aparmaq əvəzinə terror metodlarına əl ataraq günahsız insanlara qarşı vəhşiliklər törətməkdən çəkinmədi. Bu, Azərbaycan xalqının iradəsini sarsıtmaq məqsədi daşısa da, əks nəticə verdi – xalq daha da birləşdi, mübarizə əzmini artırdı və haqq savaşında qalib gəldi.

Azərbaycan Ordusu isə respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə özünü müdafiə hüququ çərçivəsində ölkəmizin ərazilərini beynəlxalq hüquqazidd olaraq işğal etmiş Ermənistan silahlı qüvvələrinin legitim hərbi hədəflərini zərərsizləşdirmək istiqamətində əməliyyatlar həyata keçirirdi.

Silahlı qüvvələrimizin savaş meydanında atdığı bütün addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsindən irəli gələn hüquqlar çərçivəsində icra edilirdi. Ordumuzun apardığı hərbi əməliyyatlar gedişində Ermənistanın illərdən bəri özünün işğalçı siyasətini ört-basdır etmək məqsədilə beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı guya münaqişənin Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ bölgəsinin erməni əhalisinin öz müqəddəratını təyinetmə uğrunda mübarizəsi olduğu, Ermənistan bu münaqişədə tərəf kimi iştirak etmədiyi kimi qondarma tezislər tamamilə iflasa uğradı.

Ermənistanın işğalçılıq siyasətinin əsası olan etnik təmizləmə, soyqırımı və digər ağır müharibə, eləcə də insanlıq əleyhinə cinayətlər nəticəsində 750 mindən çox dinc azərbaycanlının hüquq və azadlıqları kobud şəkildə pozuldu. Eyni zamanda, Azərbaycan Ordusunun işğal edilmiş ərazilərdə mülki insanları və mülki infrastrukturu hədəfə aldığı, Türkiyə silahlı qüvvələrinin Azərbaycan tərəfindən hərbi əməliyyatlarda iştirak etdiyi və Yaxın Şərqin bəzi münaqişəli bölgələrindən muzdluların respublikamız tərəfindən əməliyyatlara cəlb edildiyi kimi əsassız və cəfəng iddialar isə sübuta yetirilmədi.



Azərbaycanın əzəli-əbədi torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində işğalçı ölkənin silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilən zaman düşmən savaş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarımızdakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçdi. Azərbaycanın yaşayış məntəqələrini müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər törətdi, mülki şəxsləri vəhşicəsinə qətlə yetirdi, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurdu.

Vətən müharibəsinin xronikasını nəzərdən keçirəndə aydın görünür ki, 44 günlük savaş dövründə işğalçı Ermənistan Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonları ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutdu.

2020-ci il sentyabrın 27-də Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Elbrus Qurbanovun evinə top mərmisi atmaqla 5 nəfərlik ailəni tamamilə məhv etdi. Oktyabrın 4, 5, 8, 11 və 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncədə 26 nəfər həyatını itirdi, 175 nəfər yaralandı, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Bütün bunlarla bərabər, Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak oldu, 112 nəfər yaralandı, bu coğrafiyada yerləşən çox sayda mülki infrastruktur obyektləri dağıdıldı. Yeri gəlmişkən, Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı, ümumilikdə, 13 min 360 yaşayış və qeyri – yaşayış sahəsi, 346 nəqliyyat vasitəsi, 1018 fermer təsərrüfatı zərər çəkdi.

Vətən müharibəsinin xronikasından o da aydın olur ki, 2020-ci ilin 27 sentyabr – 10 noyabr müddətində Ermənistan münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilən və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutdu. İşğalçı ordu İkinci Qarabağ müharibəsində "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq genişmiqyaslı dağıntılara səbəb olan müharibə üsullarından istifadə etməklə əhalinin və ya döyüşlərdə iştirak etməyən mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonlarını atəş altında saxladı.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirdi. Ordumuzun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız insanları hədəfə almaqla müharibə cinayətləri törətdi.

Onu da qeyd edək ki, Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarında genişmiqyaslı minalama prosesi həyata keçirib. Bununla da 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini, Avropa Konvensiyasının müvafiq maddələrini, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozub.

Minalı bölgələr insanların həyatı üçün təhlükə yaratmaqla yanaşı, torpaqlardan səmərəli istifadə işinə də mane olur. Xeyli müddətdir ki, ərazilərin minalardan təmizlənməsinə baxmayaraq, mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki vətəndaşların xəsarət almaları və həlak olma faktları çoxalır.

Sonda qeyd etmək lazımdır ki, müharibə yalnız cəbhədə döyüşən hərbçilərin savaşı deyil, həm də beynəlxalq hüquq çərçivəsində aparılmalı olan bir prosesdir. Ermənistan II Qarabağ müharibəsi zamanı dinc əhalini və mülki infrastrukturu hədəf almaqla bu hüquqi prinsiplərə hörmətsizlik etdi.

***Vaqif BAYRAMOV***
***XQ***



# Vətən müharibəsinin xronikası: 1 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 5-ci günü

• Oktyabrın 1-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Belarus Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb.

Dövlətimizin başçısı məlumat verərək bildirib ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna



cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Prezident İlham Əliyev qeyd edib ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanın hərbi təcavüzünə son qoyulmalı və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Dövlətimizin başçısı onu da bildirib ki, Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

• Vətən müharibəsinin beşinci gününün sonunadək düşmən bütün cəbhə boyunca tutduğu mövqelərdən və ərazinin mühüm sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib. Vətən müharibəsi başladığı gündən düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

Hərbi informasiya mərkəzində keçirilən brifinqdə daha sonra məlumat verilib ki, Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib. Ermənistan silahlı qüvvələrinin bölmələri isə Ermənistanın ərazisindən cəbhəboyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər və Ağdam rayonlarını yenidən artilleriya atəşinə tutub.

Əməliyyatın beşinci gününün sonunadək düşmənin canlı qüvvəsi, hərbi və döyüş texnikası baxımından xeyli sayda itkisi var. Düşmən bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi Anar Eyvazov xüsusilə bildirib ki, Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yanlışdır və əsassızdır. Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

"Dünən məlumat verildiyi kimi, Ermənistan ordusunun alay komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin dəqiq artilleriya atəşi nəticəsində məhv edilib. Alayın köməyinə gələn düşmənin əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib. Əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını döyüş meydanında atıb qaçan düşmən bir daha acizliyini nümayiş etdirib. Döyüş bayrağını qoruya bilməyən ordunun iki yolu var. Ya ərazimizi tərk etməli, ya da yerində məhv olacaq. Qələbə bizimlədir!", – deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

• Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Baş Prokurorluğun mətbuat xidmətindən bununla bağlı vurğulanıb ki, Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək, ümumilikdə, mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 19 nəfər isə həlak olub.

Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri – rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini, yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 169 evə, həmçinin 40 mülki obyektə külli miqdarda ziyan vurulub. Eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə salınıb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

• Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində işğaldan azad etdiyi ərazilərdən ilk görüntülər yayılıb. Görüntülərdə Azərbaycan Silahlı Qüvvələri hərbçilərinin artıq həmin ərazilərdə möhkənləndiyi əks olunub. Kadrlardan görünür ki, ərazilərdə məhv edilən düşmənin xeyli sayda texnikası, silah-sursatı qalıb. Hazırda Azərbaycan Ordusu işğal altındakı digər ərazilərin azad edilməsi istiqamətində əməliyyatları davam etdirir.

Xatırladaq ki, uğurlu əks-hücum nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad olunub. Ağdərə rayonu istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra strateji yüksəkliklər nəzarətə götürülüb.

• Ermənistan ordusunun bölmələri Tərtər şəhərini, Ağdamın Gül Baharlı kəndini, Füzulinin Horadiz şəhərini və Arayatlı kəndini, Goranboy rayonunun Tapqaraqoyunlu kəndini, Aşağı Ağcakənd qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan atəşə tutublar. Bu müharibə cinayətləri nəticəsində onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# Qorxubilməz kəşfiyyatçı

**Əslən Yardımlı rayonundan olan şəhid mayor Elçin Mansurov 1984-cü ildə Bakının Binə qəsəbəsində dünyaya göz açıb. Aprel döyüşlərində iştirak edib, Vətən müharibəsində misilsiz igidliklər göstərib, canını müqəddəs torpaqlarımız uğrunda fəda edib.**



Yeri gəlmişkən, Yardımlı kökənli iki qəhrəman məhz Mansurov soyadının daşıyıcısı olub. Biri 1995-ci ildə Azərbaycanın müstəqilliyini qorumağa görə – Milli Qəhrəman Bəhruz Mansurov, digəri isə Kürəkçi kəndindən II Qarabağ savaşının qəhrəmanı – Vətən Müharibəsi Qəhrəmanı Elçin Mansurov. Onlar bir rayonun deyil, bir ölkənin, bir xalqın fəxridirlər.

2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunanda ürəkdən sevinən Elçin general olmağı, ömrü boyu hərbçi kimi Vətənə xidmət etməyi arzulamışdı. Şəhid baş leytenant Fərid Əhmədovla kursant yoldaşı olmuş, öz aralarında bu barədə dəfələrlə söhbət etmişdilər. Amma tale elə gətirdi ki, Fərid şəhidliyə qovuşduğu 2010-cu ilə qədər baş leytenant, o isə 10 il sonra mayor rütbəsinə qədər yüksələ bildi və elə bu rütbədə əbədiyyətə qovuşdu. Qazandığı şəhidlik adı Elçinin ən böyük rütbəsi oldu.

Xidməti dövründə Goranboy, Tovuz, Murovdağ və Füzulidə özünü nümunəvi zabit kimi tanıdan Elçin Mansurov ən gözəl kəşfiyyatçı kimi hər zaman təqdir edilib. Onun düşmən arxasından gətirdiyi məlumatlar ordumuzun əks əməliyyatları üçün çox vacib əhəmiyyət daşıyıb. Söz düşəndə deyirdi: "Kəşfiyyat ordunun görən gözüdür. Məqsədimiz hərbi qulluqçulardan peşəkar kəşfiyyatçı yetişdirməkdir. Mən fəxr edirəm ki, kəşfiyyatçıyam".

Məlum Aprel döyüşləri onun həyatının ilk odlu səhifələrini təşkil edib. Lələtəpə zirvəsinin alınmasında onun da böyük xidməti olub. Həmin döyüşlərdən sonra Elçin Mansurov II dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib. Elçin Mansurova 2020-ci ilin yay aylarında "mayor" rütbəsi verilib. İkinci Qarabağ müharibəsi başlananda o, Füzulidə təmas xəttində xidmət göstərir və işğal olunmuş əraziləri kəşfiyyat məqsədilə müşahidə edirdi. Həmin gün saat 09:30 radələrində Elçin Mansurovun 25 nəfərlik qrupu təmas xəttini ilk yaran dəstələrdən oldu. 45 dəqiqə ərzində Elçin Mansurovun qrupu tərəfindən 2 dəfə hücum gerçəkləşdi və Ermənistan ordusunun 2 tağımı darmadağın edildi və əvvəlcə 3, sonra 2 xüsusi əhəmiyyətli post və strateji yüksəkliklər ələ keçirildi.

Elçin Mansurov həmin yüksəkliklər uğrunda mübarizədə yaralansa da, öz ağrılarını unudaraq, 12 yaralını döyüş meydanından çıxara bildi. Ancaq "Burğa dərəsi" adlanan ərazidə qarşı tərəfin 2-ci eşelonu yarılan zaman snayper gülləsinin dəyməsi nəticəsində şəhid oldu. Uzun müddət tapılmayan nəşi 1-ci atəşkəs günü, yəni 10 oktyabr 2020-ci ildə Kənd Horadiz yaşayış məntəqəsi ətrafında tapıldı və ertəsi gün Bakıdakı II Şəhidlər Xiyabanında (hazırda Hərbi Memorial Məzarlıq) torpağa tapşırıldı.

Dostlarının dediklərinə görə, Elçin Mansurov "Tənha canavar", "Boz qurd", "Qorxmaz kəşfiyyatçı" adları ilə tanınırdı. Komandanı – general Mais Bərxudarov onu daim tərifləyir və xidmətlərini dəyərləndirirdi. Elçin çox mərd, mərhəmətli, ciddi olmaqla yanaşı, çox da zarafatcıl zabit kimi xarakterizə edilirdi. Ailəsi ilə yanaşı, əsgərlərinin də qayğısına qalırdı. Onları öz qardaşı, yaxını kimi qoruyurdu...

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal altındakı ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Elçin Mansurova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Daha sonra o, "Vətən uğrunda", Xocalının və Füzulinin azad olunmasına görə, eləcə də "İgidliyə görə" medallarına layiq görülüb. Bakı şəhərindəki 88 nömrəli tam orta məktəb igid Vətən oğlunun adını daşıyır. Paytaxtda və Yardımlı şəhərində adına küçələr var.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Şuşa oğlunu intiqama çağırmışdı...

**Böyük qalibiyyətlə bitən Vətən müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Qələbəyə öz qanları ilə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız bir dastan qoyub getdilər. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda xalqımız öz varlığını, həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıtdıq.**

Əsrlər boyu müharibə Yer üzünün ən böyük fəlakəti sayılıb. Milyonlarla insan müharibələrdə canından keçib. "Təki Vətən sağ olsun!" deyən şəhid valideynləri bayrağı bağrına basaraq hönkürsələr də, gözlərində məğrurluq, fəxarət hiss olunub. İgid, qorxmaz qəhrəmanlarımızdan biri də Vətən müharibəsi savaşında şəhid olan Nurlan Həsənovdur.



Nurlan 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. O, ailənin ilk övladı idi. Ailə I Qarabağ müharibəsindən sonra öz doğma torpaqlarından didərgin düşüb və məcburi köçkün kimi Bakıda məskunlaşıb.

1997-ci ildə Bakıda Şuşa şəhər 3 nömrəli tam orta məktəbə daxil olub, 2008-ci ildə əla qiymətlərlə başa vurub. 2008-2012-ci illərdə Azərbaycan Texnologiya Universitetinin "İnzibati idarəetmə" ixtisası üzrə təhsil alıb. Nurlan vətənpərvərliyi, mərdliyi, kişi xarakteri ilə çoxlarından fərqlənirdi. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Daha sonra leytenant kimi Gəncədə "N" saylı hərbi hissədə xidmət edib və 2014-cü ildə ehtiyatda olan zabit kimi təxris olunub.

Və nəhayət, Nurlan da minlərlə cəsur oğullarımız kimi 2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub. Azərbaycan Ordusunun leytenantı olan Nurlan sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsində dəfn edilib.



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Nurlan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə fəal iştirak edən Nurlan "Ana, məndən narahat olmayın, burada hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm", – deyibmiş.

Həqiqət xanım qürurla deyir: "Oğlum yenidən orduya gedəndə istər-istəməz bir ana kimi narahatlıq keçirirdim. Nurlan dedi ki, ana, Şuşaya qayıtmaq istəmirdin? Mən səni Şuşaya qaytaracağam, onu azad edəcəyəm. Mən Şuşaya oğlumla getmək, qayıtmaq istəyirdim. Amma təəssüf ki, bu, mənə qismət olmadı… Onun bir qızı və bir oğlu bizə yadigar qalıb.

Azərbaycan Vətən müharibəsində şanlı qələbə qazanmaqla ərazi bütövlüyünü tam bərpa edib. Qarabağımızda üçrəngli Azərbaycan bayrağı vüqarla dalğalanır. Köç karvanları da müqəddəs torpaqlara isti nəfəs gətirir. Nurlanın ruhu isə şəhid olduğu azad Qarabağ torpaqlarında dolaşır.

***M.MÜŞFİQ***
***XQ***

# Xocalı qisasçısı



**Vətən müharibəsi şəhidi Tural Şakir oğlu Abdullayev 1990-cı il fevral ayının 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub. Həmin il ailəsi Xocalı şəhərinə köç edib və burada yeni tikilən evlərdə məskunlaşıb. Turalın 2 yaşı tamam olanda erməni quldurları onların yaşadığı şəhəri yerlə-yeksan etdilər, dinc əhaliyə qarşı soyqırımı törətdilər. Xocalı soyqırımında Turalın atasının xalası oğlunun da ailəsi tamamilə məhv edildi. Kiçik yaşlarından düşmənə nifrət hissi bəsləyən Tural böyüyəndə qisas almağı qarşısına məqsəd qoyub. Bir dəfə də olsun doğum gününü qeyd etməyib. Çünki onun doğum günü 613 günahsız Xocalı sakininin şəhid olduğu günə düşüb.**

Tural Abdullayev hərbi xidməti 2008-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sırasında keçib. 2010-cu ildən isə Zaqatalada DİN Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) əməliyyat qrupunda fəaliyyət göstərib. 12 il XTD-də Vətənə qüsursuz xidmət edən Tural Abdullayev hərbi xidmət keçdiyi zaman və çalışdığı müddətdə nümunəvi xidmətinə görə çoxlu sayda medal və Fəxri fərmanlarla təltif edilib. 2008-ci ildə hərbi xidmətdə nümunəvi xidmətinə görə hərbi hissə komandirinin əmri ilə baş çavuş Tural Abdullayev 3-cü dərəcəli döş nişanı ilə təltif edilib.

2013-cü ildə "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 20 illiyi" yubiley medalı ilə, 2018-ci ildə "Milli Ordu – 100" medalı ilə, 2020-ci ildə isə Azərbaycan Respublikasının Prezidentinin adından "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif edilib.

Tural yoldaşları arasında qorxmazlığı, vətənpərvərliyi ilə seçilib. O, uşaq yaşlarından atasına "Xocalının qisasını almaq lazımdır" deyərmiş. Üçrəngli Bayrağımızı daim özü ilə aparan Tural Vətənə olan borcu qaytarmağı həyatının amalına çevirmişdi. Vətən müharibəsi başlamamışdan əvvəl əfsanəvi "Yaşma" xüsusi təyinatlıları sırasında xüsusi təlimlərdə iştirak edib. Turalın gözlədiyi qisas vaxtı artıq yetişmişdi. "Boz qurd" ləqəbli döyüşçü qorxmadan ən təhlükəli döyüşlərə atıldı. Şərəfli döyüş yolu, şücaəti, Vətənə sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Öz canı qədər sevdiyi bayraq isə tabutuna və məzarının üzərinə sərildi. Tural ölməzliyi ilə Azərbaycan xalqının yaddaşında əbədi möhürləndi.

Şəhidin atası Şakir kişinin Tural haqqında xatirələrindən: "Əsgərlikdən məzuniyyətə gələndə telefonla danışdığını eşitdim. Dedi ki, "Mən məzuniyyətə gəlim, yoldaşlarım isə hərbi əməliyyatda iştirak etsinlər, belə olmaz… Orada olsaydım, bəlkə mən də düşmən öldürərdim. Tural döyüş əməliyyatı keçirilən zaman məzuniyyətdə olduğu üçün çox təəssüf edirdi. Vətənpərvərliyi ilə seçilirdi. Zaqatalada DİN XTQ-də işləyərkən ən çətin əməliyyatlarda iştirak edirdi".

Tural Abdullayev Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyinin alınmasında və Kəlbəcər istiqamətində keçirilən əməliyyatlarda iştirak edib. Azərbaycan əsgəri ilə üz-üzə gəlməyə cəsarət etməyən mənfur düşmənin atdığı minaatan mərmisi nəticəsində igid əsgərimiz sentyabrın 30-u əbədiyyətə qovuşub. Xəzər rayonunun Binə qəsəbəsində dəfn edilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamlarına əsasən baş çavuş Tural Abdullayev ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Müşfiq CƏFƏROV***
***XQ***

# Doğum günündə şəhid olmuş döyüşçü

**Doğum və şəhidlik tarixi 29 sentyabra təsadüf edən və cəmi 20 il yaşayan şəhid Əlirza Mehman oğlu Rzayev 2018-ci ildə Qərb Universitetinin nəzdində kollecə daxil olub. 2019-cu ildə hərbi xidmətə gedib. Əsgəri qulluğunu düşmənlə təmas nöqtəsində – Murovda edib.**

Vətən müharibəsi başlayan andan o da topçu kimi döyüş mövqeyində olub, Murov dağı yüksəkliyinin Kəlbəcər istiqamətində ağır döyüşlərdə topçu kimi iştirak edib. Sərrast atəşlə düşmən mövqelərinə sarsıdıcı zərbələr vurub. Lakin sentyabrın 29-da, 20 yaşı tamam olan gün düşmənin atdığı mərmi nəticəsində aldığı qəlpə xəsarətlərindən dünyasını dəyişib. Şiddətli döyüş getdiyi üçün ağır yaralanmış Əlirzanı 4 saata yaxın ərazidən çıxarmaq mümkün olmadığından çoxlu qan itirib. Sanitar hissəyə çatdırılanda isə artıq gec olub, "Ana" deyərək gözlərini əbədi yumub...

Şəhidin atası Mehman Rzayev 1-ci Qarabağ müharibəsinin iştirakçısı olub. 2016-cı ildə 50 yaşında ağır xəstəlikdən dünyasını dəyişib.

Qardaşı Fərid Əlirzanı belə xatırladı:

– Mən onunla təkcə qardaş yox, həm də bir dost idim. Yaşda məndən kiçik olsa da onu özümdən böyük hiss edirdim. Dostluqda çox sədaqətli olduğundan xeyli dost-tanışı var idi. Tay-tuşları xətrini çox istəyirdilər, hörmətini saxlayırdılar. Ona görədir ki, Əlirza hərbi xidmətə yola düşəndə sanki həyatimizdə toy idi. Yüzlərlə adam öz təşəbbüsü ilə həyətimizdə toplaşmışdı. Özü də şəhid olmuş dostu Coşqunun sintezatorda çaldığı təranələrə dostları ilə qol götürüb elə oynayırdılar ki... Sanki hamının ürəyinə dammışdı. Murovdakı gərgin vəziyyəti görüb heç məzuniyyətə də gəlməmişdi.



Mehman şəhid olan zaman artıq hərbi xidmətinin başa çatmasına sayılı günlər qalırdı. 15 gün əvvəl mənə zəng vurub ona hərbi xidmətdən qayıtdıqdan sonra geyinmək üçün pal-paltar almağımı istəmişdi. Mən də bu arzusunu həvəslə yerinə yetirmişdim. Əlirza 1-ci sinifdə oxuyarkən birlikdə şəklimiz var. İndi baxmışam ki, o, həmin şəkildə bir əlində bayraq, o biri əlində oyuncaq avtomat tutub.

Bizim ad günlərimiz ard-ardadır. Sentyabr ayının 28-i mənim, 29-u isə onun ad günüdür. 28-də mənə zəng vuraraq ad günümü təbrik etdi. Özümdən, anamızdan muğayat olmağımızı istədi. Telefonda əsgərlərin səs-küyü, top atəşləri eşidilsə də dedi ki, narahat olmayın. Fərid özü isə Aprel döyüşlərinin iştirakçısı olub. Hərbi xidmətdə olduğu zaman həmin döyüşlərdə manqa komandiri kimi iştirak edib.

Əlirza Rzayevi hamı mərd və ağıllı övlad kimi tanıyırdı. Anası Gülnarə xanım işlədiyi üçün uşaq vaxtlarında məcbur olub onu internat məktəbinə qoyur. Bir gün müəllim 20 Yanvar və Xocalı qətliamı ilə əlaqədar uşaqlara istədikləri şəkli çəkməyi tapşırır. Əlirza da qərara gəlir ki, bir şəhid anası şəkili çəksin. Bununla bağlı şəhidin anası Gülnarə xanımın xatirələrindən:

– Sən demə, balam mənim şəklimi çəkirmiş... Əlirza hələ uşaqlıqdan harda əsgər paltarı gördü geyinib şəkil çəkdirməyi xoşlayardı. Ordudan tərxis olunmasına cəmi 2 gün qalmışdı. 19 yaşı tamam olan gün onun əsgər olduğu hərbi hissəyə getmişdim. Elə 20 yaşı üçün də artıq hədiyyəmi almışdım, qismət olmadı...

Qardaşının ad günündə ona zəng vuranda mən də telefonu alıb danışdım. Ertəsi gün Əlirzanın 20 yaşı tamam olduğundan onu təbrik etdim. Nədənsə təbrikimə heç bir cavab vermədi. Bircə onu dedi ki, məndən nigaran qalma, özündən muğayat ol. Telefonda atəş səsləri eşidilirdi... Müharibədən sonra hərbi hissədən komandirləri, döyüş yoldaşları gəlmişdilər. Əlirzanı itirdikləri üçün göz yaşı axıdırdılar. Mənə oğlumun qəhrəmanlıqları barədə xeyli danışdılar. Evimizi Əlirzanın şəxsi əşyaları ilə yanaşı, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları da onun boş qalmış yerini nişan verir.




Əlirza Rzayevin döyüş yoldaşları Gülnarə anaya tez-tez zəng vurur, baş çəkirlər. Şəhid anası qəhrəman övladların hamısını öz balası hesab edir. Gülnarə ananın təsəllisi odur ki, şəhid balaların qanı yerdə qalmadı. Beş ildir ki, torpaqlarımıza əsl sahibləri yiyələniblər.

***M.MİRZƏ***
***XQ***

*Sağlam dünya*

# Dərman bazarının dərdlərinə "dərman" axtarışı

## *Qiymət tənzimlənməsi: risk, rəqabət, əlçatanlıq*



**Dərman preparatlarının qiyməti vətəndaşların sağlamlığı ilə bağlı həssas məsələlərdəndir. İnsanın səhhətində ciddi problem yarananda onun seçimi sadəcə "alım, ya almayım" dilemması ilə məhdudlaşmır, bəzən hər hansı dərman yeganə xilasedici vasitəyə çevrilir. Odur ki, bu sahədə qiymət siyasəti səhiyyə sisteminin əlçatanlığına, hətta əhalinin həyat keyfiyyətinə təsir edir.**

Azərbaycanda bu mexanizm molekulyar tərkib və istehsalçı ölkə əsasında müəyyənləşdirilir. Molekulyar tərkib dərmanın əsas təsir göstərən maddəsidir. Məsələn, baş ağrısı üçün istifadə etdiyimiz dərmanların çoxunda "parasetamol" adlı maddə var. Bu, həmin dərmanların molekulyar tərkibidir. Fərqli şirkətlərin biri eyni dərmanı baha, digəri ucuz qiymətə satışa çıxarır. Dövlət qiymət tənzimləməsini həyata keçirərkən əsas təsiredici maddə üzrə yuxarı həd müəyyənləşdirir. Bununla da həmin molekul tərkibli preparatın pərakəndə satış qiymətinin bu həddi aşmamasını təmin edir. Yəni qiymət dərmanın markasına deyil, tərkibindəki əsas maddəyə görə təyin edilir.

Məqsəd eyni maddənin bahalı brend adı ilə qiymətinin şişirdilməməsidir. Bir tərəfdən qiymətlərin süni şişirdilməsinin qarşısı alınır, digər tərəfdən isə rəqabət zəifləyir, kiçik və orta şirkətlər bazardan sıxışdırılır. Burada bir sual ortaya çıxır: qiymətin inzibati qaydada tənzimlənməsi daha ədalətli sistem yaradır, yoxsa əksinə, rəqabəti zəiflədərək vətəndaşın seçim imkanını məhdudlaşdırır? Dövlətin sosial vəzifəsi dərmanı hər kəs üçün əlçatan etməkdir, amma qiymət tənzimləməsi bazarın təbii dinamikasını pozduqda həm keyfiyyət, həm də çeşid baxımından itkilər baş verir. Hansı yanaşmanın tətbiqi daha müsbət nəticə verər? Sərbəst bazar modeli, yoxsa dövlət tərəfindən nəzarət?

Dərman bazarında son illərdə müşahidə olunan əsas tendensiyalardan biri xərclərin davamlı artmasıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar–iyul aylarında apteklərdə – 870,8 milyon manatlıq əczaçılıq məhsulları və tibbi ləvazimatlar satılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18,4 faiz çoxdur. Başqa sözlə, əhali əvvəlkindən daha çox dərman alır və bu xərclər ümumi pərakəndə ticarət dövriyyəsinin 2,5 faizini təşkil edir. Bu mənzərə yalnız daxili bazar göstəriciləri ilə məhdudlaşmır.

Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, cari ilin ilk altı ayında ölkəyə 259,39 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal olunub ki, bu da illik müqayisədə 4,6 faiz artım deməkdir. İxrac göstəriciləri isə əksinə, azalma nümayiş etdirir: cəmi 1,7 milyon dollar həcmində dərman ixrac olunub və bu, ötən ilin eyni dövrünə nisbətən 23,4 faiz aşağıdır. Həm idxalın artması, həm də daxildə xərclərin yüksəlməsi dərmanların qiymət tənzimlənməsinin vacibliyini bir daha gündəmə gətirir.

**Maraqlıdır, rəsmi qurumlar qiymətləri necə tənzimləyir? Tarif Şurası prosesi belə izah edir:**

– Dərman bazarında qiymətlərin formalaşması Tarif Şurası tərəfindən, eləcə də hüquqi baza ilə tənzimlənir. Nazirlər Kabinetinin 178 saylı qərarına əsasən, dərman preparatlarının ölkəyə gətirilməsi və istifadəsi üçün tədbirlər proqramı təsdiqlənib və bu proqramın icraçısı Səhiyyə Nazirliyidir. Nazirlik ölkəyə gətirilən dərmanların keyfiyyətinə və təhlükəsizliyinə nəzarət edir. Bu funksiyanı Analitik Ekspertiza Mərkəzi həyata keçirir.

Qeydiyyatdan keçmiş dərmanlar sonrakı mərhələdə Tarif Şurasına təqdim olunur. Tarif Şurası isə dərmanların pərakəndə satış qiymətini müəyyənləşdirir. Bu prosesdə bir neçə amil nəzərə alınır: iqtisadi modellər, qiymət tənzimləmə metodları və bəzi hallarda xarici ölkələrin təcrübəsi. Məqsəd yalnız qiymət təyin etmək deyil, eyni zamanda dərmanların bazarda həm etibarlı, həm də əlçatan olmasına şərait yaratmaqdır.

Bəs dərman vasitələrinin keyfiyyəti necə yoxlanılır? Analitik Ekspertiza Mərkəzindən bildirildi ki, hər bir dərman vasitəsi əvvəlcə "Dərman vasitələri haqqında" qanuna uyğun olaraq dövlət qeydiyyatına alınır. Bu mərhələdə preparatlar müvafiq ekspertizalardan keçirilir və yalnız bütün kriteriyalara cavab verən dərmanlara qeydiyyat vəsiqəsi verilir və dövlət reyestrinə daxil edilir.

Qeydiyyatdan keçmiş dərman vasitəsi ölkəyə gətirildikdə Analitik Ekspertiza Mərkəzi laboratoriyasında dərmanın tərkibi, təsiredici maddələrin miqdarı və keyfiyyət göstəriciləri yoxlanılır. Yoxlamalardan uğurla keçən preparatlar sertifikatlaşdırılır və nəzarət markası ilə təmin olunur. Bu, dərmanın təhlükəsiz və keyfiyyətli olduğunu rəsmi şəkildə təsdiqləyir. Yəni dərman yalnız qeydiyyatdan və bütün laboratoriya yoxlamalarından uğurla keçdikdən sonra ölkəyə idxal olunur və bazara çıxarılır.



**Dövlətin qiymət tənzimləməsi bazarda sabitlik və müəyyən ədalət prinsiplərini təmin etməyə yönəlirsə, iqtisadçılar sərbəst rəqabətin həm qiymətləri aşağı salacağını, həm də keyfiyyəti artıracağını iddia edirlər. Bu fərqlilik dərman bazarının həm əlçatanlıq, həm də keyfiyyət məsələlərini müzakirə obyektinə çevirir. Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli dərman bazarındakı qiymət tənzimləmə mexanizminin üstünlükləri və çatışmazlıqlarından bəhs etdi:**

– Tarif Şurası tərəfindən dərman preparatlarının qiymətlərinin tənzimlənməsini optimal mexanizm hesab etmirəm. Dövlətin funksiyası daha çox dərmanların keyfiyyətinə, təhlükəsizlik standartlarına və istehlakçı hüquqlarının qorunmasına yönəlməlidir. Yəni əsas məsələ odur ki, bazara daxil olan hər bir preparat insan sağlamlığı üçün təhlükəsiz olsun, keyfiyyəti beynəlxalq normalara cavab versin. Hazırkı tənzimləmə mexanizmi, yəni molekullar və istehsalçı ölkələr üzrə qiymətlərin müəyyən edilməsi isə bazarda rəqabət mühitini daraldıb. Belə ki, əvvəllər bu sektorda 220–230-a yaxın şirkət fəaliyyət göstərirdisə, indi onların sayı təxminən 10 dəfə azalıb.

Bu, bazarda kiçik və orta şirkətlərin sıxışdırılaraq çıxarılması ilə nəticələnir. Əksinə, iri şirkətlərə sərf edən bu model onların bazarda dominantlıq qazanmasına, rəqabət balansının pozulmasına gətirib çıxarır. Daha ucuz istehsalçı ölkələrdən gətirilən, keyfiyyəti qənaətbəxş olmayan dərmanlar bazarda artır. Bu isə həm əhalinin narazılığına, həm də qiymətlərin süni şəkildə artmasına səbəb olur.

Düşünürəm ki, bazarda rəqabət imkanı yaranmalı, qiyməti məhz bazar özü formalaşdırmalıdır. Çünki rəqabət artdıqca iki mühüm nəticə əldə edilir: qiymətlər aşağı düşür, şirkətlər müştərini cəlb etmək üçün daha münasib qiymət qoymağa məcbur olurlar. Eyni zamanda, keyfiyyət yüksəlir. Çünki rəqabət mühitində yalnız keyfiyyətli və etibarlı məhsul təklif edən şirkətlər bazarda üstünlük qazanırlar. Bu halda biz həm daha əlçatan qiymətlərlə dərman təminatına, həm də əhali üçün daha yüksəkkeyfiyyətli xidmətə nail ola bilərik.



**İndi dərman bazarında gündəlik çətinliklərlə üzləşən sahibkarların baxışına nəzər salaq. Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının rəhbəri Azər Xudiyev bazarda yaşanan real vəziyyəti belə açıqladı:**

– Tarif Şurası dərmanların qiymətlərini tənzimləməyə 2015–2016-cı illərdən başlayıb. Lakin apteklərdə bu mexanizmin təsiri çox hiss olunmur, əksinə, sahibkarlar və dərman idxalçıları üçün çətinliklər artıb. Qiymət tənzimləməsi nəticəsində bazarda qıtlıq yaranıb, çünki təyin olunan qiymətlər xaricdəki referent qiymətlərlə uyğun gəlmir. Məsələn, Avropadan gətirilən dərmanlar üçün nəzərdə tutulan qiymətlər Azərbaycan bazarında kifayət qədər mənfəət gətirmədiyindən, preparatların idxalı bazarda defisit yaradır.

Sahibkarlar üçün mənfəət şərtləri sərfəli deyilsə, dərmanı gətirmək riskli olur. Üstəlik, dərmanların 5 illik qeydiyyat müddəti də vəziyyəti mürəkkəbləşdirir: bir dəfə qeydiyyatdan keçmiş dərmanı həmin müddət ərzində yenidən qeydiyyatdan keçirmək çətindir. Nəticədə bazarda daha ucuz və əlçatan dərmanlar üstünlük təşkil edir. Hindistan və digər Asiya ölkələrindən gətirilən preparatlar sahibkarlar üçün daha cəlbedicidir. Tarif Şurası tərəfindən təyin olunan referent qiymətlər isə əvəzləyici dərmanlar üçün həmişə sərfəli olmur.

Məsələn, aşağı qiymətli dərmanlarda (5–10 manatlıq) apteklərin qazancı 20 faiz civarında olsa da yüksək qiymətli dərmanlarda bu marja yalnız 5 faizə bərabərdir. Belə marja apteklərin xərclərini qarşılamağa yetmir və sahibkarları ciddi maliyyə çətinlikləri ilə üz-üzə qoyur. Hətta təzə açılan pərakəndə apteklərin təqribən yarısı bir il ərzində bağlanır ki, bu da riskin böyük olduğunu göstərir. Yeni fəaliyyətə başlayan əczaçı sahibkarlar sərmayə yatırmazdan əvvəl satış nöqtəsinin marketinq planını hazırlamaq və potensial riskləri hesablamaq məcburiyyətindədir.

Hazırda bir çox aptek sahibkarlarının qazancı hətta bir işçinin maaşı səviyyəsindədir. Xaricdən baxanlar bazarda çox sayda aptek olduğunu görsələr də reallıq tam fərqlidir: xərclər yüksək, qazanc məhduddur və bazarda işləmək asan deyil.

Rəsmi şəkildə satılan hər bir dərman vasitəsi Tarif Şurası tərəfindən tənzimlənir. Lakin bazarda bəzi dərmanlar mövcuddur ki, həkimlər tərəfindən təyin olunmasına baxmayaraq, hələ dövlət qeydiyyatından keçməyib və qanunsuz, yəni qaçaq yolla təqdim olunur. Bu dərmanlar reseptlə satılsa da Tarif Şurası onların qiymətini müəyyən etmir və tənzimləmə tam şəkildə həyata keçirilmir. Belə dərmanların qiymətləri bazar şərtlərinə uyğun olaraq dəyişə bilər və stabil deyil.

Qaçaq yolla gətirilən dərmanlar arasında onkoloji və nadir xəstəliklərin müalicəsi üçün istifadə olunan dərmanlar da var. Bu dərmanlar az miqdarda idxal edildiyindən satışı da məhdud olur. Sahibkarlar üçün isə belə dərmanlar risklidir, vaxtı keçdikdə isə ziyana düşmək ehtimalı yüksəkdir.

Dərman əlçatanlığı məsələsi iki tərəfdən qiymətləndirilməlidir: bir tərəfdən əhalinin sosial-iqtisadi vəziyyəti, digər tərəfdən isə sahibkarların farmasevtik bazarı təminetmə imkanları nəzərə alınmalıdır. Yəni, müxtəlif dərman məhsullarının təminatı yalnız molekulyar tərkibə əsaslanmamalı, eyni zamanda bazarın tələbatı və sahibkarların fəaliyyət imkanları çərçivəsində planlaşdırılmalıdır.

Əgər dərmanların qeydiyyatı, vergi və gömrük məsələləri ilə bağlı hər hansı bir problem yoxdursa, sahibkarlar bazarda mövcud olmayan və ya nadir dərmanları idxal edə bilərlər. Bununla, vətəndaşların xaricdən xüsusi məhsullar sifariş etməsi və ya qaçaq yolla dərman gətirməsi ehtiyacı minimuma enər.

Dərman bazarında əsas hədəfin vətəndaşın sağlamlığı və dərmanların əlçatanlılığı üçün dövlətin tənzimləmə funksiyası ilə bazar mexanizmi arasında balans olmalıdır. Yalnız bu yanaşma ədalətli, davamlı və sağlam mühit yarada bilər.

***Fidan ƏLİYEVA***
***XQ***

## *Qlobal həyəcan siqnalı*




**Yer kürəsində ən böyük qapalı su hövzəsi olan Xəzər dənizi həm regional ekosistemin, həm də qlobal təbii balansın mühüm tərkib hissələrindəndir. Dünya okeanından təcrid olunmuş Xəzərdə planetdəki göllərin ümumi su ehtiyatlarının təxminən, 45 faizi toplanıb.**

2023-cü ilin statistikasına görə, okean səviyyəsindən 28,69 metr aşağıda yerləşən Xəzərin uzunluğu 1200, maksimal eni 466, minimal eni isə 204 kilometrdir. Ümumi sahəsi 392 min kvadratmetr, su həcmi isə 79 min kubmetr təşkil edir. Orta dərinliyi 207 metr olan bu dənizin ən dərin nöqtəsi – Lənkəran çökəkliyi 1025 metrə çatır.

Xəzərin hidroloji rejimində Volqa çayı başlıca rol oynayır. Çünki dənizə axan ümumi illik suyun 80 faizdən çoxu məhz bu çayın payına düşür. Digər mühüm mənbələr arasında Kür çayı (6 faiz), Ural (5 faiz), Terek, Sulaq və Samur çayları (4,5 faiz), İran ərazisindən gələn Səfidrud, Şirrud, Gürgan kimi çaylar (təxminən 4-4,5 faiz) qeyd olunur. Yəni Xəzərin taleyi əsasən bu çayların gətirdiyi su balansından asılıdır. Son illər müşahidə olunan mənzərə ekoloq və alimləri ciddi narahat edir: Xəzərin su səviyyəsi hər il azalır. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı diqqətə çatdırıb ki, gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır.

Su səviyyəsinin enməsinin bir neçə əsas səbəbi var. Birincisi, iqlim dəyişmələri nəticəsində havaların istiləşməsi və buxarlanmanın artmasıdır. İkincisi, Xəzərə axan çaylarda, xüsusilə də Volqa və Kürdə sənaye, kənd təsərrüfatı və məişət məqsədilə suyun həddindən artıq istifadəsi, həmçinin hidrotexniki qurğuların fəaliyyəti səbəbindən axının azalmasıdır. Üçüncüsü, qlobal miqyasda təbiət hadisələrinin qeyri-sabitliyi, yağıntıların miqdarında və paylanmasında müşahidə olunan kəskin dəyişikliklərdir.

Su səviyyəsinin enməsi, ilk növbədə, dənizin biomüxtəlifliyinə zərbə vurur. Balıq populyasiyası, xüsusən də nərə cinsləri üçün həyati təhlükə yaradır, onların kürüləmə arealları daralır, bəzi sahilyanı bataqlıqlar quruyur, ekoloji tarazlıq pozulur.

Xəzər dənizində suyun səviyyəsi daim dəyişkəndir. Tarixi müşahidələr göstərir ki, təxminən, hər 35-50 ildən bir dənizdə qalxma – enmə dövrləri təkrarlanır. Proses son 200 ildə bir neçə dəfə baş verib. Narahatedici məqam ondan ibarətdir ki, indiki mərhələdə səviyyə çox qısa müddətdə nəzərəçarpacaq dərəcədə azalıb. Müxtəlif amillərin eyni anda təsiri vəziyyəti daha da gərginləşdirib.





Dənizin səviyyəsindəki dəyişiklik, əslində, onun su balansındakı fərqlə bağlıdır. Yəni Xəzərə daxil olan çaylarla dəniz səthindən buxarlanan suyun miqdarı arasında yaranan fərq su səviyyəsini müəyyən edir. Başqa sözlə, səviyyə əsasən daxil olan şirin suyun həcmi və buxarlanma intensivliyi ilə formalaşır.

Xəzərə çoxsaylı çaylar tökülür və beş Xəzəryanı ölkənin ərazisindən axır.

Volqa istisna olmaqla, bütün digər çayların birlikdə xüsusi çəkisi ümumi daxilolmanın cəmi 15-20 faizini təşkil edir. Xəzərin su balansında həlledici rol oynayan məhz Volqa çayı bütövlükdə Rusiyanın Avropa hissəsini əhatə edir. Ölkə əhalisinin 70 faizindən çoxu – təqribən 90 milyon insan burada məskunlaşıb. Çayın sahillərində əhalisi bir milyondan çox olan 8 iri şəhər yerləşir. Bu şəhərlər Volqa suyundan həm içməli su, həm də sənaye məqsədləri üçün geniş istifadə edir. Eyni zamanda, məişət və sənaye tullantılarının bir hissəsi də çaya axıdılır.

**Bu barədə Bakı Dövlət Universitetinin iqtisadi və sosial coğrafiya kafedrasının müdiri, professor Çingiz İsmayılov XQ-yə bildirdi:**

– Volqa çayı üzərində yaradılan çoxsaylı su anbarları və hidrotexniki qurğular enerji təminatı, suvarma və nəqliyyat baxımından mühüm əhəmiyyət daşıyır. Sovet dövründə Həştərxandan Permə və Moskvaya qədər sərnişin daşımaları da məhz Volqa çayı vasitəsilə həyata keçirilirdi. Hazırda isə əsasən yük daşımaları aparılır. Bununla yanaşı, çay həm də mühüm şirin su mənbəyi kimi məişətdə və kənd təsərrüfatında geniş istifadə olunur. Rusiyanın cənub bölgələrində yerləşən əsas əkin sahələri, xüsusən Volqoqrad və Həştərxan ərazilərində məhz Volqanın aşağı axarı boyunca formalaşıb. Burada tərəvəzçilik, bostançılıq və geniş əkinçilik təsərrüfatları inkişaf edib, son illər isə bu sahələr daha da genişlənib.

Şəxsi müşahidələr də çirklənməni təsdiqləyir: illər əvvəl Volqa çayının delta hissəsində havadan aparılan müşahidə zamanı çayın Xəzərə töküldüyü ərazilərdə böyük həcmdə neftlə çirklənmiş sulara rast gəlinmişdi. Bu fakt göstərir ki, bir tərəfdən çay sularının intensiv istifadəsi, digər tərəfdən isə çirklənmənin artması Xəzər dənizinin ümumi su balansına ciddi mənfi təsir göstərir. Xəzər dənizinin ekoloji vəziyyəti uzun illərdir beynəlxalq təşkilatların diqqət mərkəzindədir.

1990-cı illərin ikinci yarısından etibarən müxtəlif beynəlxalq qurumlar Xəzəryanı ərazilərin inkişafı və ekoloji mühafizəsi ilə bağlı layihələr həyata keçiriblər. Lakin bu işlər çox vaxt formal xarakter daşıyıb, dəvət olunan xarici ekspertlərin əksəriyyəti mövzu ilə kifayət qədər tanış olmayıb, yerli mütəxəssislərin iştirakı isə məhdud olub. Hesabatlar verilsə də, real nəticələr əldə edilməyib. Məlumdur ki, Xəzərin ekoloji problemlərini heç bir dövlət təkbaşına həll edə bilməz. Beş ölkənin birgə səyləri və koordinasiyalı fəaliyyəti tələb olunur.

Son 20 ildə Azərbaycanda sənaye tullantılarının həcmi əhəmiyyətli dərəcədə azalıb. Əgər əvvəllər 4 neft emalı zavodu fəaliyyət göstərirdisə, indi yalnız biri qalıb və onun illik emal gücü də xeyli azdır. Bu səbəbdən sənaye mənşəli çirklənmə də əvvəlki illərlə müqayisədə azalıb. Lakin Bakı və ətrafında əhalinin artması məişət tullantılarının çoxalmasına səbəb olub. Xəzərin su səviyyəsinin enməsi yeni problem yaradır: tullantı boruları daha da uzağa uzadılmadıqda, çirkab sular sahilə yaxınlaşır və bu da ekoloji riski artırır.

Hazırda Azərbaycanın sahilyanı ərazilərində, xüsusən çimərliklərdə ekoloji vəziyyət turistlər və yerli sakinlər üçün kifayət qədər cəlbedici deyil. Bu sahədə dönüş yaratmaq, tullantıların idarə edilməsini müasirləşdirmək və sahil zonasının ekoloji mühitini yaxşılaşdırmaq vacib və təxirəsalınmaz məsələ olaraq qalır.

**"Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli isə qeyd etdi ki, problemin həllində Xəzəryanı ölkələrin hər birinin rolu var, amma xüsusən də Rusiyanın mövqeyi həlledici sayılır:**

– Xəzər dənizində ən geniş hərbi-dəniz donanmasına malik dövlət Rusiyadır. Həmçinin Volqa–Don kanalı vasitəsilə Xəzərdən Azov və Qara dənizə çıxış imkanlarının olması su səviyyəsinin enməsi ilə birbaşa bağlıdır. Səviyyə azaldıqca həm gəmilərin hərəkətinə, həm də iqtisadi fəaliyyətə ciddi təsir göstərir. Azərbaycan və Qazaxıstan məsələni gündəmdə saxlamalıdır.

Xəzərin ekoloji böhranı yalnız regional yox, həm də qlobal təhlükədir. Bu məsələ COP29 çərçivəsində də xüsusi vurğulandı. Xəzərin səviyyəsinin kritik həddə enməsi ekoloji fəlakət siqnalıdır və bütün bəşəriyyət üçün "həyəcan təbili" hesab edilməlidir. Bununla yanaşı, Çinlə Avropanı birləşdirən nəqliyyat marşrutunun mühüm hissəsi məhz Xəzər üzərindən keçir və səviyyənin enməsi daşımaları çətinləşdirir. Lakin daha ciddi təhlükə ekoloji sağlamlıqla bağlıdır. Suyun çəkildiyi ərazilərdə səhralaşma və duzluq zonaları yaranır ki, bu da insanların sağlamlığına mənfi təsir göstərir.

Xəzər dənizinin səviyyəsinin azalması sosial, iqtisadi və hətta geosiyasi təhlükədir. Bu proses həm region dövlətlərini, həm də beynəlxalq ictimaiyyəti düşündürməlidir. Problemin həlli üçün yalnız hesabatlarla kifayətlənmək olmaz – real tədbirlər, birgə layihələr və davamlı nəzarət vacibdir.

Ölkəmiz bu məsələdə öz məsuliyyətini dərk edir və sahilboyu ərazilərdə yaşıllaşdırma, tullantıların idarə olunması, ekoloji balansın qorunması istiqamətində addımlar atır. Lakin problemin miqyası göstərir ki, Xəzərin gələcəyi yalnız bir ölkənin deyil, bütün regionun və beynəlxalq təşkilatların ortaq səylərindən asılıdır. Əks halda, bu gün olunan xəbərdarlıq sabah böyük bir fəlakətə çevrilə bilər.

***Ləman TƏHMƏZ***
***XQ***

# Üzeyir irsinin çağdaş təqdimatı



**Milli musiqi mədəniyyətimizin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ölkəmizdə geniş qeyd olunur. Qüdrətli sənətkarın 140 illik yubileyi ilə bağlı tədbirlər çərçivəsində “Üzeyirin ecazkar dünyası” kitabı Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində musiqisevərlərə təqdim edildi.**

Dahi bəstəkarın həyat və yaradıcılığını interaktiv formada tanıdan topluya musiqili rebuslar, krossvordlar, sudoku, filvordlar, anaqramlar və tapmacalar daxil edilib. Nəşr Azərbaycanda musiqiyönümlü oyunvari tədris prosesində ilk nümunələrdəndir. Tapmaca və intellektual oyunların əyləncəli formatda təqdimatı biliklərin daha asan mənimsənilməsini təmin edir, analitik və tənqidi təfəkkürü inkişaf etdirir.

Kitab Azərbaycanda ilk dəfə olaraq pedaqoji cəhətdən dəstəklənmiş rəqəmsal tədris vasitəsi olaraq biliklərin vizual və



interaktiv təqdimatına, idrak motivasiyasının yüksəldilməsinə xidmət edən virtual muzeylə müşayiət olunur. QR-kod vasitəsilə oxucular Üzeyir Hacıbəylinin həyat və yaradıcılığına həsr olunmuş virtual muzeyə keçid əldə edə bilərlər. Burada eksklüziv materiallar, eksponatlar və əlavə məlumatlarla tanış olmaq, mövzu üzrə bilikləri genişləndirmək və kitabda verilən tapmaca və suallara düzgün cavab tapmaq mümkündür.

“Üzeyirin ecazkar dünyası” nəşrinin yaradıcı heyətinin başlıca məqsədi milli musiqi mədəniyyətimizi, xüsusilə Üzeyir Hacıbəyli irsini yeni nəslə sevdirməkdir.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb–studiyası, “Musiqi dünyası” Elektron Nəşrlər Mərkəzi və “Azərbaycan Nəşriyyatı” MMC-nin çapa hazırladığı kitab şagird, müəllim və valideynlər üçün nəzərdə tutulub.

***XQ***





*1 Oktyabr Beynəlxalq Ahıllar Günüdür*

# Böyüksüz olmasın bircə ocaq da...

**Ahıllar cəmiyyətin sərvətidir. Onlar daim diqqət və qayğı ilə əhatə olunmalıdır. Hər il 1 oktyabr dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd edilir. 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən təsis edilən bu günün əsas məqsədi yaşlı nəslin cəmiyyətdəki rolunu vurğulamaq, onların hüquqlarını təmin etmək və sosial rifahını yaxşılaşdırmaqdır. Ahılların zəngin təcrübəsi, biliyi və dünyagörüşü cəmiyyətin inkişafında əvəzsiz rol oynayır.**

Beynəlxalq statistika göstərir ki, dünya əhalisinin qocalma tempi sürətlənir. Hazırda 60 yaşdan yuxarı insanların sayı 1 milyarddan çoxdur və BMT-nin proqnozlarına görə, 2050-ci ildə bu göstərici 2 milyarda yaxınlaşacaq. Qlobal miqyasda pensiya təminatı, tibbi və sosial xidmətlər sistemli şəkildə inkişaf etdirilir. Avropada hər dörd nəfərdən biri 65 yaşdan yuxarıdır. Yaponiyada isə bu göstərici əhalinin 28 faizini təşkil etməklə dünyada ən yüksək həddə çatır.

Azərbaycanda da yaşlı nəslin sosial müdafiəsi dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət ahılların rifahını yaxşılaşdırmaq, onların sağlamlığını, ictimai həyatda fəal iştirakını təmin etmək məqsədi daşıyır.

**Hüquq elmləri doktoru, professor, Əməkdar müəllim, Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü İbrahim Quliyev ahıllara münasibət və mövcud problemlər barədə fikirlərini bölüşdü:**

– Bütün dövrlərdə ahıllar cəmiyyətin diqqət mərkəzində olub. Azərbaycanda bu, xalqımızın adət-ənənələrindən və milli mentalitetindən qaynaqlanır. Hər zaman ağsaqqallara böyük hörmət və ehtiram göstərilib, bu gün də həmin ənənə davam edir. Hesab edirəm ki, xüsusilə gənclərin ahıllara diqqəti və ehtiramı daha da güclənməlidir.

Ümummilli lider Heydər Əliyev həmişə ahılların sosial müdafiəsini dövlət siyasətinin əsas istiqaməti kimi müəyyən edib. Bu gün də onun layiqli davamçısı, Prezident İlham Əliyev həmin siyasəti uğurla davam etdirir. Pensiyaların artırılması, sosial müdafiə tədbirləri və qanunvericilik bazasının möhkəmləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır. Əlbəttə, aidiyyəti qurumlar, xüsusilə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahəni daim diqqətdə saxlamalıdır.

Ölkəmizdə mövcud ahıllar evlərində müəyyən çatışmazlıqlar olsa da, ümumilikdə yaxşı şərait yaradılıb. Lakin təkcə sosial qayğı kifayət deyil. Ahılların cəmiyyətə in-



teqrasiyası, onların zəngin həyat təcrübəsindən gənc nəslin formalaşmasında istifadə olunması vacibdir.

Regionlarda da ahıllar evlərinin açılması çox önəmlidir. Çünki bazar münasibətləri şəraitində bəzən ailə dəyərlərinə biganə yanaşılır, övladlar valideynlərinə qarşı laqeydlik göstərirlər. Belə şəraitdə regionlarda ahıllara dövlət dəstəyi daha da gücləndirilməlidir.

Ahıllara göstərilən xidmətlərin keyfiyyətini artırmaq üçün yeni yanaşmalara ehtiyac var. Bu zaman beynəlxalq təcrübədən istifadə də faydalı ola bilər. BMT-nin təsis etdiyi Beynəlxalq Ahıllar Günü də məhz diqqəti bu sahəyə yönəltmək məqsədi daşıyır. Azərbaycan həmin proqramlara qoşulub və üzərinə düşən öhdəlikləri daim yerinə yetirib.

Fikrimcə, təhsil müəssisələrində ahılların keçdiyi həyat yolundan, onların təcrübəsindən gənclərin formalaşması üçün geniş istifadə olunmalıdır. Təəssüf ki, bu istiqamətdə işlər hələ istənilən səviyyədə aparılmır. Halbuki bu, gələcək nəsillərin sağlam yetişməsi üçün çox vacibdir.

Ahıllara diqqət və qayğı həm mənəvi borc, həm də sosial məsuliyyətdir. Müdriklərimiz demiş: “Böyüksüz olmasın bircə ocaq da”.

***Arzu ƏLİYEVA***
***XQ***

*İnsan hüquqları və əmək bazarı*

# 4 günlük iş həftəsi: istəklər və gerçəklər

**Artıq dünyanın bir neçə ölkəsi 4 günlük iş həftəsini test mərhələsinə çıxarıb. Böyük Britaniyada aparılan pilot layihələr göstərib ki, işçilər həm məhsuldarlıq baxımından geri qalmayıb, həm də işə daha həvəslə qayıdıblar. Yaponiyada bəzi şirkətlər bu sistemi tətbiq edərək əməkdaşlarının stres səviyyəsinin azaldığını, ailəyə və şəxsi inkişaflarına daha çox zaman ayırdıqlarını müşahidə ediblər.**

Ölkəmizdə isə bu cəhətdən şərtlər bir az fərqlidir. Bizdə nəinki 5, hətta bir sıra müəssisələrdə 6 günlük iş həftəsi mövcuddur. Lakin 4 günlük iş həftəsinin təhsil sahəsində ilk nümunəsi artıq Bakı Dövlət Universitetində təcrübədən keçirilir. Ali məktəbdə 2025/2026-cı dərs ilinin payız semestrində bakalavriat təhsil səviyyəsi üzrə bəzi ixtisaslarda həftəlik dərs yükü 4 günə uyğun olaraq 20-22 saat müəyyən edilib. Bundan sonra cəmiyyətdə sual yaranıb: Təhsil sistemində sınaqdan keçirilən bu model digər sahələrdə də tətbiq oluna bilərmi? Bəs görəsən 6 günlük iş həftəsi olan müəssisələr hər hansı yeniliyə keçə bilərmi? İş həftəsinin qısaldılması məhsuldarlığa və sosial həyata necə təsir göstərər?

Azərbaycan Prezidentinin təsdiq etdiyi “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında hələlik bəzi təhsil müəssisələri və iş yerlərində günün azaldılması öz əksini tapıb.

**Təhsil eksperti Kamran Əsədov bildirdi ki, təhlillərə görə, 4 günlük dərs və iş rejiminin tətbiqi ali və orta təhsil müəssisələrində həm pedaqoji səmərəlilik, həm də ümumi rifah baxımından yeni imkanlar yaradılmasını nəzərdə tutur:**



- Bu addım yalnız dərs günlərinin sayının azalması kimi anlaşılmamalı, əksinə, tədris yükünün keyfiyyətli bölüşdürülməsi, tələbə və müəllimlərin əlavə yaradıcılıq, tədqiqat imkanlarının artırılması kimi dəyərləndirilməlidir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 89-cu maddəsinə görə, həftəlik iş vaxtı 40 saatdan artıq ola bilməz. “Təhsil haqqında” Qanunun 15-ci maddəsində də qeyd olunur ki, təhsilalanların dərs yükü onların psixoloji və fizioloji xüsusiyyətlərinə uyğun tənzimlənməlidir. Bu, hüquqi baxımdan 4 günlük cədvəlin tətbiqinə maneə yaratmır, sadəcə dərs saatlarının səmərəli təşkilinin vacibliyini göstərir. Müsbət tərəfi ondan ibarətdir ki, 4 günlük rejim tələbələrin və müəllimlərin yüklənməsini azaldır, əlavə bir gün isə onların özünüinkişaf, elmi-tədqiqat, layihə və startap fəaliyyətlərinə sərf edilə bilər. Bu model tələbələrin sosial həyatını da zənginləşdirir, çünki əlavə vaxt könüllülük, idman və mədəni fəaliyyətlərə ayrılaraq onların şəxsiyyət kimi formalaşmasına dəstək olur. Statistikalara nəzər saldıqda, hazırda Azərbaycan universitetlərində tələbələrin həftəlik dərs yükü orta hesabla 28–32 saatdır. Əgər bu yük düzgün planlaşdırılaraq 4 günə sığışdırılsa, hər günün 6–7 saatlıq intensiv tədris bloku ilə təhsilin ümumi keyfiyyətinə zərər vurmadan balans qoruna bilər.

Mənfi tərəfi isə dərs günlərinin azaldılması ilə əlaqədar saatların sıxlaşdırılması tələbələrin yorğunluğunu artıra bilər. Pedaqoji tədqiqatlar göstərir ki, ardıcıl 6-cı saatdan sonra tələbənin diqqəti və yaddaşı kəskin zəifləyir. Buna görə də bu model yalnız dərs saatlarının mexaniki sıxışdırılması ilə deyil, yeni pedaqoji yanaşmalarla – qarışıq təhsil, distant dərs modulları və daha çox seminar-laboratoriya formatı ilə tətbiq oluna bilər.

Ekspert açıqlamasına əlavə olaraq bildirdi ki, dünya təcrübəsinə baxdıqda, İslandiya və Finlandiyada müəllimlərin 4 günlük iş rejiminə keçməsi onların motivasiyasını artırıb, şagirdlərin nəticələrinə müsbət təsir göstərib. ABŞ və Yaponiyanın bir sıra universitetlərində sıxlaşdırılmış dərs günləri tələbələrin elmi araşdırmalara daha çox vaxt ayırmasına imkan yaradıb. ABŞ-da Kolorado ştatının bəzi məktəblərində 4 günlük tədris rejiminin tətbiqi nəticəsində şagirdlərin dərsə davamiyyətində 8 faiz artım, müəllimlərin məmnuniyyətində isə 20 faizdən çox yüksəliş qeydə alınıb. Bütün bunlar göstərir ki, model düzgün tətbiq olunarsa, həm müəllim, həm də tələbə üçün əlavə üstünlüklər yaradır.

Ənənəvi 5-6 günlük cədvəldə tələbə və müəllimlər daha çox yüklənir, yaradıcılıq və tədqiqat üçün kifayət qədər vaxt qalmır. 4 günlük cədvəl isə vaxtın daha rasional idarə olunmasına, tədrisin keyfiyyətinə, elmi fəaliyyətin stimullaşdırılmasına şərait yaradır. Bununla yanaşı, ölkə üçün iqtisadi fayda da var: nəqliyyat və kommunal xərclər azalır, təhsil müəssisələrinin enerji sərfiyyatı 15–20 faiz aşağı düşür.

Mütəxəssislər qeyd edirlər ki, bu rejim tətbiq olunduqca tələbələrin dərsə münasibəti dəyişəcək, müəllimlər isə öz peşəkar inkişafına daha çox vaxt ayıra biləcəklər. Nə dəyişməlidir məsələsinə gəldikdə, dərs planlarının məzmun baxımından optimallaşdırılması, interaktiv tədrisin artırılması, distant modulların daha geniş tətbiqi vacibdir. Hazırda universitetlərdə aparılan elmi işlərin əsas problemlərindən biri vaxt və resurs çatışmazlığıdır. Əlavə bir iş günü olarsa, laboratoriyalarda aparılan elmi–tədqiqatlar genişlənə bilər.

Dünya təcrübəsi göstərir ki, ABŞ-ın bir sıra universitetlərində 4 günlük sıxlaşdırılmış dərs rejimi tətbiq edilərkən elmi nəşrlərin sayı və tələbələrin konfranslarda iştirakı 12–15 faiz artıb. Bu, göstərir ki, dərs saatlarının azaldılması yox, daha səmərəli idarə edilməsi elmə ayrılan vaxtı çoxaldır. Azərbaycan universitetlərinin beynəlxalq reytinqlərdə geridə qalmasının səbəblərindən biri də tədqiqat fəaliyyətlərinin zəif olmasıdır. 4 günlük model bu boşluğu qismən doldura bilər. Əlavə olaraq, psixoloji gərginliyin azalması müəllim-şagird münasibətlərində daha pozitiv mühit formalaşdıracaq.

Finlandiya və İslandiya nümunələri göstərir ki, 4 günlük iş rejiminin tətbiqi müəllimlərin işgüzarlığını artırıb, nəticədə, şagirdlərin akademik göstəriciləri yüksəlib. Maliyyə baxımından 4 günlük rejimin tətbiqi təhsil müəssisələrinin xərclərini də azaldır. ABŞ-da Kolorado ştatında aparılan araşdırmalar göstərib ki, məktəblərdə 4 günlük rejimə keçid illik büdcəyə 5–8 faiz qənaət imkanı yaradıb. Azərbaycanda bu modelin tətbiqi xüsusən iri şəhərlərdə nəqliyyat yükünün azalmasına, tıxacların yüngülləşməsinə və dövlətin infrastruktur xərclərinə qənaət edilməsinə şərait yarada bilər. Az hərəkətlilik isə karbon emissiyasının azalmasına təsir göstərər.

Elm və Təhsil Nazirliyinin tədrisin çevikləşdirilməsi istiqamətində addımları, rəqəmsal tədris elementlərinin genişləndirilməsi və təhsilalanların yüklənməsinin azaldılması siyasəti müasir dünyada gedən proseslərə uyğundur. Bu siyasət ölkənin təhsil sistemini daha rəqabətqabiliyyətli edəcək, tələbələrin beynəlxalq əmək bazarında uğurla çıxış etməsinə şərait yaradacaq. Bu modelin ölkəyə faydaları həm pedaqoji, həm sosial, həm də iqtisadi müstəvidə aydın görünür.

**Milli Məclisin deputatı Arzuxan Əlizadə bu iş rejiminin yaxın zamanda geniş tətbiqinin çətin olacağını söylədi:**



- Çox az sayda ölkədə 4 günlük iş həftəsinə keçidlə bağlı məsələ müzakirə mövzusudur. Azərbaycanda da bununla bağlı hansısa qərar qəbul oluna bilər. Amma zaman-zaman bu məsələ gündəmə gəlir, iqtisadçılar öz fikirlərini bildirirlər. Düşünürəm ki, mütəxəssisilər bununla bağlı daha çox və ciddi araşdırma aparıb rəylərini bildirməlidirlər. Amma istənilən halda məsələ gündəmə gəlirsə və inkişaf etmiş bir sıra ölkələrdə bununla bağlı qərarlar hazırlanarsa, təbii ki, Azərbaycanda da müvafiq tədbirlərin görülmə ehtimalı var. Məsələ ilə əlaqədar ictimai müzakirələr aparılmalıdır. Çünki bu, olduqca ciddi məsələdir.

**Deputat Vüqar Bayramov isə dedi ki, yeni iş rejiminin tətbiqi bir sıra inkişaf**



**etmiş ölkələrdə müzakirə olunur:**

- Hətta bəzi ölkələr, o cümlədən Böyük Britaniyada bir sıra sektorlarda bu rejimə keçilib. Bəzi sahələrdə 4 günlük iş rejimi tətbiq olunub. Azərbaycanda da bu istiqamətdə müzakirələr aparılır. Amma hələlik Azərbaycanın, bütövlükdə, əmək bazarı üçün ən vacib məqamlardan biri əmək hüquqlarının qorunması ilə bağlıdır. Çünki bir sıra hallarda işçi ilə işəgötürən arasında müqavilənin olmaması, burada əməkhaqqının tam olaraq əks olunmaması işçinin hüquqlarının pozulmasına gətirib çıxarır. Bu isə onların gələcəkdə pensiya və digər hüquqlarına da birbaşa təsir göstərir.

Azərbaycan əmək bazarı üçün bu gün daha aktual məsələlər işçilərin əmək hüququnun daha yaxşı qorunması ilə bağlıdır. Xüsusən, qanunvericilikdə edilən dəyişikliklər bu istiqamətdə hüquqi bazanın formalaşmasına imkan yaradır. Təbii ki, gələcəkdə 4 günlük iş rejiminə keçid tətbiq oluna bilər. Pilot olaraq təkliflərin təqdim edilməsi mümkündür.

**İnsan resursları üzrə ekspert İlkin Məcidov 4 günlük iş ehtimalını analiz edərək bildirdi ki, hazırkı vəziyyətdə bu, mümkün deyil:**



- Biz 4 günlük iş rejiminə bütün müəssisələrdə keçə bilmərik. Pilot olaraq bəzi dövlət qurumları və müəssisələri tədrici keçid edə bilər. Lakin burada bir şeyi nəzərə almaq lazımdır ki, bəzi istehsalat müəssisələri, müəyyən sektorda fəaliyyət göstərən kafe, restoran, otel və digər şəbəkələr 6 günlük qrafiklə çalışdığı üçün nəinki 4, hətta 5 günlük rejimə keçid də mümkün deyil. Əmək Məcəlləsinə görə, Azərbaycanda əsas iş rejimi 5 günlük, 40 saatlıq iş həftəsidir. 4 günlük iş həftəsi işəgötürənlə işçi arasında razılaşma ilə, yaxud müəyyən eksperiment çərçivəsində tətbiq oluna bilər. Əsas şərt həftəlik 40 saatlıq normanın pozulmamasıdır. Yəni 4 günlük rejimdə hər gün daha çox iş saatları təyin olunmalıdır (məsələn, gündə 10 saat). Bəzi dövlət qurumları, banklar, ticarət obyektlərində bu rejimin tətbiqi praktik olaraq çətindir.

Azərbaycanda bir çox iş yerlərində hələ də 6 günlük rejim mövcuddur. Belə olan halda 4 günlük iş həftəsinin tətbiqi əmək bazarında balanssızlıq yarada bilər. Belə ki, istehsal və xidmətin fasiləsiz olduğu sahələrdə əlavə işçi cəlb etmək lazım gələcək ki, bu da işəgötürən üçün əlavə xərc deməkdir. Bu rejimin tətbiqinin müsbət tərəfləri ondan ibarətdir ki, işçilərdə ailəyə və şəxsi işlərə vaxt ayırmaq imkanı yaradır. Lakin startaplar, texnologiya şirkətləri, yaradıcı və məsafədən işləməyin mümkün olduğu sahələrdə sınaq olaraq tətbiq edilə bilər. İstehsal və kənd təsərrüfatı sektorunda isə işin fasiləsiz olması üçün 6 günlük iş rejiminə daha çox ehtiyac var. Azərbaycanda 4 günlük iş həftəsinə keçid mümkündür, amma bu, yalnız bəzi sahələrdə və şirkətlərdə eksperiment xarakterli ola bilər.

**İqtisadçı-ekspert Eldəniz Əmirov mövzu ilə bağlı söylədi ki, 4 günlük iş günü heç bir dövlətdə yoxdur:**



- Bu rejim yalnız müəyyən şirkətlərdə, xüsusi şərtlər daxilində məhdud çərçivədə mövcuddur. Düzdür, gələcəkdə bu gözlənilir. Hazırda Azərbaycan da, dünya ölkələri də, 4 günlük iş həftəsinə keçməyə hazır deyil. Bəli, ayrı-ayrı universitetlər, sahələr, sektorlarda bu, mümkündür. Burada ayrı-ayrı şirkətlərin yanaşması fərqlidir. Şirkət var ki, işçisini ümumiyyətlə yarım gün və yaxud məsafədən işlədir. Amma söhbət kütləvi keçiddən gedirsə, hazırda bu, mümkün deyil.

Bu gün dünyada, təxminən, 90 ölkə həftəlik 40, günlük 8 saatlıq iş rejimi ilə çalışır. Qazaxıstanda 4 günlük iş həftəsinə keçid isə geniş əks-səda doğurdu. Amma burada məsələ fərqli idi. Belə ki, həmin ölkənin əmək məcəlləsinə görə, tərəflərin razılığı ilə 5 və ya 6 günlük iş həftəsini 4 günlük iş həftəsi ilə əvəzləmək iş saatlarını uzatmaqla mümkündür. Bu gün hansısa ölkədə həftədə 3 gün qeyri–iş günü yoxdur.

Sonda qeyd edək ki, bu sistem Şərq və müsəlman ölkələri arasında ilk dəfə Birləşmiş Ərəb Əmirliyində tətbiq edilib. Belə ki, İslam aləmində həftənin cümə günü müqəddəs olduğundan ölkə Qərbdə formalaşmış 4 günlük iş rejiminə keçib. İslandiya 4 günlük iş həftəsini tətbiq edəndən bəri təsirli iqtisadi artım müşahidə edib. Yeni araşdırmaya görə, ölkənin ümumdaxili məhsulu 2023-cü ildə 5 faiz artıb. Malta daha yüksək göstərici əldə edib. Müqayisə üçün qeyd edək ki, 2006-2015-ci illər ərzində İslandiyanın orta iqtisadi artım tempi cəmi 2 faiz olub. 2022-ci ilə qədər ölkədə işçilərin 51 faizi daha qısa iş saatına və ya 4 günlük iş həftəsinə keçib. Bu gün isə islandiyalıların 59 faizi bu rejimdə işləyir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Şərəfli ömür yolu



**Ömrünün yarım əsrdən çox hissəsini təlim-tərbiyə işinə həsr etmiş, mənəvi-əxlaqi keyfiyyətləri ilə insanların rəğbətini qazanmış Azərbaycan Kooperasiya Universitetinin İstehlak mallarının ekspertizası kafedrasının müdiri, professor Vilayət Abbas oğlu Əliyev 51 ildir ki, müəllimlik kimi şərəfli vəzifəni yerinə yetirir.**

O, 1940-cı ildə Naxçıvan MR-in Şərur rayonunda anadan olmuşdur. Orta məktəbi Şərur rayonunda bitirmiş və həmin ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinin Ərzaq malları əmtəəşünaslığı ixtisasına daxil olmuşdur. Ali təhsilini bitirdikdən sonra təyinatla Yeyinti Ticarət İdarəsində 20 saylı mağazasının direktor müavini təyin olunmuş, bir ildən sonra ticarət əmtəəşünası vəzifəsində çalışmışdır. Sonra Xətai rayonunda Qarışıq mallar Ticarət İdarəsində baş əmtəəşünas işləmişdir. 1969-cu ildə Bakı Soveti Ticarət Texnikumuna müəllim təyin edilmişdi. 1976-cı ildə Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda aspiranturaya qəbul olunmuşdur.

Vilayət müəllim 1976-1978-ci illərdə Azərbaycan Kommunist Partiyası MK-nın nəzdində olan Marksizm-Leninizm Universitetini bitirmişdi. 1980-ci ildə Moskva Kooperasiya İnstitutunda "Xəzər kilkəsinin əmtəəşünaslıq xassələrinin tədqiqatı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almışdı. Müdafiə Şurasının üzvü, SSRİ Dövlət Ehtiyatı İnstitutunun baş direktoru, akademik L.H.Lavaçov Vilayət müəllimə Azərbaycanda bu sahə üzrə öz məktəbini açmasını tövsiyə etmişdir.

Vilayət müəllim 1980-ci ildə Azərbaycan Kooperasiya İnstitutunun Bakı filialına assistent vəzifəsinə dəvət edilmiş, burada assistent, baş müəllim, dosent və professor vəzifəsinə qədər yüksəlmişdir.

1987-ci ildən ixtisasartırma fakültəsinin, 2004-cü ildən 2012-ci ilə kimi Əmtəəşünaslıq və ekspertiza fakültəsinin dekanı işləmiş, həm elmi, həm pedaqoji sahədə, həm də ictimai işlərdə aktiv fəaliyyətdə olmuşdur. Hazırda Azərbaycan Kooperasiya Universitetinin Qida mühəndisliyi və ekspertiza kafedrasının müdiridir.

Zəngin və yüksək yaradıcılıq yolu keçən Vilayət müəllim 51 illik elmi fəaliyyətində 221 elmi məqalənin, (2 məqalə Türkiyədə çap edilmişdir), 4 broşürün, 4 dərslik (dərsliyin biri Türkiyədə çap edilmişdir), 35 proqram və metodik göstərişin, 1 monoqrafiyanın, 1 dərs vəsaitinin müəllifidir.

Professorun elmi əsərləri Moskva, Novosibirsk, Vladivostok, Krasnodar şəhərlərində, həmçinin Türkiyə, ABŞ, İran və s. ölkələrdə çap edilmişdir.

Vilayət müəllim bütün bilik və bacarığını, enerjisini və elmi potensialını təhsil sisteminin təkmilləşməsinə yönəltmişdir. Sovetlər birliyi dövründə çox sayda tədris planlarının tərtib olunmasında iştirak etmiş, bir çox şəhərlərdə – Lvovda, Kiyevdə, Poltavada və Novosibirskdə müvafiq tədbirlərə mütəxəssis kimi dəvət edilmişdir.

Professorun yaradıcılığı geniş və çoxşaxəlidir. O, universitetə gələndə ilk növbədə, əmtəəşünas və ekspertlər üçün laboratoriya yaratmış, su və kanalizasiya işini sahmana salmış, laboratoriyaya xüsusi avadanlıqlar, reaktivlər və cihazlar alınmasını təşkil etmişdi. Həmin laboratoriyadan bu gün də tələbələr, magistr və dissertantlar istifadə edirlər.

Vilayət müəllim respublikada balıqçılığın texnologiyası üzrə yeganə mütəxəssisdir. Məhz buna görə də onu bir çox ölkələr öz universitetlərinə mühazirə oxumaq üçün dəvət edirlər. Türkiyədə Malatya İnönü Universitetində, Qaziantep Elazığ və Konya universitetlərində mühazirələr oxumuşdur.

Professorun "Ərzaq malları əmtəəşünaslığı", "Ərzaq malları əmtəəşünaslığı, ekspertiza və sertifikatlaşdırmanın nəzəri əsasları", "İstehlak mallarının keyfiyyət ekspertizası", "Qida kimyası" dərslikləri (Türkiyədə çap olunmuşdur), "Siyənək balıq fəsilələrinin qidalılıq dəyəri" monoqrafiyası, "Balıq sənayesinin ərzaq proqramının həyata keçirilməsində rolu", "Xəzərin balıq fauna və onun sənaye əhəmiyyəti", "Xəzər kilkəsinin bioloji əhəmiyyəti" mövzuları üzrə broşürləri çap edilmişdir. Bu gün də bu dərsliklər və dərs vəsaitləri tələbələr, dissertant və aspirantlar tərəfindən geniş istifadə edilir. Vilayət müəllim elmi-tədqiqat işlərinin təklif və tövsiyələri "Azərittifaq"da, "Azərbalıq" Sənaye İdarəsinə, Bakı Balıq hisləmə zavoduna verilmiş və xeyli miqdarda qənaət əldə edilmişdir.

Professor ölkədə istehsal edilən ərzaq mallarının keyfiyyətinin dünya standartına uyğun olması, ərzaq təhlükəsizliyi və yeyinti məhsullarının ekoloji təmizliyi kimi problemlər üzərində işləyir. Bu sahədə apardığı elmi-tədqiqat işləri müsbət nəticələr verir.

Vilayət müəllimin ictimai fəaliyyəti də çoxşaxəlidir. O, Milli Məclisdə "Keyfiyyət haqqında", "Tütün və tütün məmulatlarının keyfiyyəti haqqında" və "Şərabçılıq" haqqında qanunların işlənib hazırlanmasında işçi qrupun üzvü olmuşdur. Alim universitetdə metodik işlərdə, tədris planlarının və ixtisas fənləri üzrə proqramların təkmilləşdirilməsinə dair sanballı tövsiyələr verir. Nəsimi Rayon Partiya Komitəsinin nəzdində "Bilik" cəmiyyətinin sektor müdiri olmuşdur.

Professorun fəaliyyəti yüksək qiymətləndirilmişdir. Keçmiş SSRİ dövründə (1980-ci ildə) Ümumittifaq "Bilik" cəmiyyətinin Azərbaycan Mərkəzi Gənclər İttifaqının "Zəhmətkeşlər arasında təbliğat işində xüsusi fəaliyyətinə görə", Azərbaycan Həmkarlar Təşkilatının diplomları, Azərbaycan Mərkəzi Kooperativ ticarəti, "Azərittifaq"ın "Fəxri kooperatoru" döş nişanı, 2014-cü ildə "Tərəqqi" və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

Vilayət müəllim 1993-cü ildən YAP-ın üzvü və N.Nərimanov ərazi YAP təşkilatının sədri, həmçinin Universitetdə Heydər Əliyev məktəbinin rəhbəridir.

Azərbaycan Respublikası 20 Yanvar cəmiyyətinin üzvüdür. 2003-cü ildə "Əmək Veteranı" medalı, 2010-cu ildə "Azərittifaq"ın "Fəxri kooperatoru" döş nişanı, 2014-cü ildə "Tərəqqi" və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

Vilayət müəllimin elmi-pedaqoji fəaliyyətindən, onun insani keyfiyyətlərindən çox danışmaq olar. Onun haqqında pedaqoq, alim, ziyalı, kamil şəxsiyyət kimi düşündən fəxr edirəm ki, belə bir insanla 15 il çiyin-çiyinə birgə işləmişəm.

Cəmiyyətin tərəqqisinə, təhsilin inkişafına, gənc nəslin tərbiyəsinə sərf edilmiş ömür şərəfli ömürdür. Belə bir ömür yaşamış Vilayət Əliyev gələcəyə inamla baxır. Azərbaycan elminin intensiv inkişafı üçün dəyərli işlər görən professorun həyat yolu Azərbaycan gəncləri üçün örnəkdir.

***Fikrət QULİYEV,***
***Azərbaycan Kooperasiya Universitetinin prorektoru,***
***iqtisad elmləri doktoru***

*I Türkoloji Qurultay – 100*

# Türk dünyasının ilk özünüdərk məclisi

**Sentyabrın 30-da AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının və Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun tərkibinə daxil olan Türk Dil Qurumunun birgə təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş "Dünəndən bu günə Birinci Türkoloji Qurultay: ümumtürk humanitar elmi fikrinin 100 ili və perspektivləri" mövzusunda elmi konfrans keçirilib.**



Əvvəlcə konfrans iştirakçıları AMEA-da Türk dünyasına dair aparılan tədqiqatları əks etdirən nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli mərasimi açaraq Birinci Türkoloji Qurultayın 1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakı şəhərində baş tutduğunu bildirib. Birinci Türkoloji Qurultayın türk xalqlarının milli oyanış tarixində və özünüdərkində mühüm rol oynadığını deyən akademik SSRİ rəhbərliyinin türk xalqlarının birlik və həmrəyliyindən, milli oyanışından çəkinərək türkologiyanı məqsədyönlü şəkildə yalnız dilçilik hadisəsi kimi qələmə verdiyini, sovet dövründə Bakı Dövlət Universiteti türkologiya kafedrasının, eləcə də AMEA-nın Dilçilik və Şərqşünaslıq institutlarının sadəcə türk dillərini öyrəndiyini vurğulayıb.



Ümumilikdə, Birinci Türkoloji Qurultayın ideyalarının bütün qadağalara baxmayaraq unutdurula bilmədiyini deyən İsa Həbibbəyli qurultayın milli düşüncənin, ümumtürk həmrəyliyinin təməllərini atdığını diqqətə çatdırıb. Qurultayın 100 il öncə təqdim etdiyi ideyaların bu gün Türk Dövlətləri Təşkilatının timsalında gerçəkləşməkdə olduğunu deyən natiq təşkilatın başlıca hədəfləri sırasında türk xalqlarının birliyi və həmrəyliyinin dayandığını söyləyib.

Prezident İlham Əliyevin prioritet elan etdiyi siyasətə uyğun olaraq AMEA-da müvafiq addımların atıldığını deyən qurumun rəhbəri akademiyanın bir çox müəssisələrində Türk dünyasının tarixini, ədəbiyyatını, folklorunu, dilini, musiqisini, arxeologiyasını, fəlsəfəsini öyrənən şöbələrin fəaliyyət göstərdiyini, Türk dünyasının akademik elmi və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələrinin qurulduğunu və genişləndirilməkdə olduğunu söyləyib.

Birinci Türkoloji Qurultayın irsinin akademik Nizami Cəfərov, professor Məhirə Hüseynova kimi tədqiqatçılarımız tərəfindən sanballı tədqiqata cəlb olunduğunu deyən İsa Həbibbəyli, həmçinin bu istiqamətdə dissertasiyaların və monoqrafiyaların da yazılmasının vacibliyinə toxunub.

Akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin təntənəli keçirilməsi məqsədilə AMEA-nın Rəyasət Heyəti tərəfindən qərar qəbul olunduğunu, bugünkü konfransla qurultayın yubiley tədbirlərinə başlanıldığını deyib. Bildirib ki, ölkəmizdə türk xalqları ilə bağlı aparılan tədqiqatlar gələcəkdə AMEA-da Türkologiya İnstitutunun yaradılması zərurətini meydana qoyur və zaman buna doğru gedir.

Açılış nitqindən sonra Birinci Türkoloji Qurultayın iştirakçılarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Birinci Türkoloji Qurultaydan bəhs edən videoçarx nümayiş olunub.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti professor Aktotı Raimkulovanın təbrik məktubu səsləndirilib.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Türk Dil Qurumunun prezidenti, professor Osman Mert, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli və Azərbaycan Dillər Universitetinin məsləhətçi–professoru Adil Babayev, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru, professor Kərim Şükürov və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İlhami Cəfərsoy Birinci Türkoloji Qurultayın türk xalqlarının ictimai fikrində və mədəni inkişafındakı roluna toxunublar.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Umud Rəhimoğlu xarici müşavirlər şurasına üzv seçilib

**Dünya şöhrətli soydaşımız Lütfi Zadənin uzun illər çalışdığı Berkli Kaliforniya Universitetində Azərbaycanın yaxın dostu, "Sülhün kökləri" təşkilatının rəhbəri xanım Haydi Kühnün təşəbbüsü ilə münaqişədən sonrakı inkişaf araşdırmaları üzrə "Kühn Təşəbbüsü Sülh Mərkəzi" yaradılıb.**



Məqsəd müharibədən çıxmış ölkələrdə kənd təsərrüfatı və iqtisadiyyatı inkişaf etdirməkdən ibarətdir. Kühn Təşəbbüsü kənd təsərrüfatı sahəsində elmi, təbii resursların idarə olunması, münaqişə araşdırmaları və beynəlxalq inkişaf üzrə mütəxəssisləri bir araya gətirməkdir.

Qeyd edək ki, mərkəzin açılış mərasimində dünyanın nüfuzlu alimləri, müvafiq sahə üzrə ekspert-mütəxəssisləri arasında həmyerlimiz - Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu da yer alıb. O, yeni yaradılan qurumun xarici müşavirlər şurasına üzv seçilib.

***XQ***

# Borçalı Zəfər yolçuları ilə fəxr edir





**Qardabani Təhsil və İnteqrasiya Mərkəzində 27 Sentyabr – Anım Günü münasibətilə geniş tədbir keçirilib. Tədbir Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. II Qarabağ müharibəsində torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş şəhidlərin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Mərkəzin direktoru Çiçək Hüseynova 27 Sentyabr tarixinin hər bir azərbaycanlı üçün xüsusi əhəmiyyət daşıdığını, Vətən müharibəsində Azərbaycan Ordusunun dünyanın bir çox ölkələri üçün nümunə ola biləcək qəhrəmanlıq və rəşadət göstərdiyini, şəhidlərin xalqımızın qəlbində daim yaşayacağını və bu Zəfərin gələcək nəsillər üçün böyük qürur mənbəyi olduğunu bildirib. Daha sonra Azərbaycan dili müəllimi Sevda Şahverdiyevanın rəhbərliyi ilə mərkəzin şagirdləri tərəfindən hazırlanmış təqdimat nümayiş etdirilib. Şagirdlər öz çıxışlarında II Qarabağ müharibəsinin gedişatı, qəhrəman əsgərlərimizin şücaəti və xalqımızın birliyini əks etdirən maraqlı faktları təqdim edib, vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər. Gənclər öz çıxışları ilə torpaq uğrunda canından keçən qəhrəmanlara dərin ehtiram bəslədiklərini, həyatda onlara oxşamağa çalışacaqlarını ifadə ediblər.

Digər çıxış edənlər də 27 sentyabrın Azərbaycanın tarixində yeni səhifə açdığını, həmin gündən başlayaraq noyabrın 8-də Şuşa azad edilənə qədər böyük və şanlı bir Qələbə yolu qət edildiyini, bu uğurun arxasında bütün xalqımızın və şübhəsiz ki, şəhidlərimizin fədakarlığının dayandığını vurğulayıblar. Onlar şəhidlərin adlarının daim yad ediləcəyini, qazilərimizin və bütün müharibə iştirakçılarının xalqımızın qəlbində xüsusi yer tutduğunu deyiblər.

***P.ƏMİRCANOV***
***XQ***


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"AZALOİL YSM" idarəsinin istehsalat sahələrinin yenidən qurulması üçün layihələndirmə xidməti üzrə*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "AZALOİL YSM" idarəsinin istehsalat sahələrinin yenidənqurulması üçün layihələndirmə xidməti üzrə açıq tenderdə iştirakçılar f.seyidbayli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2025-ci il 15 oktyabr saat 15:00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Faiq Seyidbəyli, satınalmalar idarəsi, şöbə rəisi f.seyidbayli@azal.az

Əlaqə (+99412) 4972600; daxili 8087.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 210 (30904) 1 oktyabr 2025-ci il, çərşənbə

# İDMAN

## “Qarabağ”ın azarkeşlərə müraciəti




**“Qarabağ” klubu Bakıda Danimarka təmsilçisi “Kopenhagen”ə qarşı keçirəcəyi UEFA Çempionlar Liqasının əsas mərhələsinin II turunun oyunundan əvvəl azarkeşlərə müraciət edib.**

Klub azarkeşləri stadiona erkən gəlməyə çağırıb: “Bu, stadiona rahat daxil olmağınıza, sıxlıqdan yayınmağınıza və komandamızın isinmə hərəkətlərini tam dolu tribunalar qarşısında həyata keçirərək əlavə motivasiya qazanmasına imkan verəcək. Oyun başlayandan 20 dəqiqə sonra stadiona giriş məhdudlaşdırılacaq. Qapılar qarşılaşmaya 2 saat qalmış açılacaq”.

Qeyd edək ki, “Qarabağ” – “Kopenhagen” oyunu bu gün saat 20:45-də Tofiq Bəhramov adına Respublika stadionunda start götürəcək.

## Azərbaycan millisinin yeni baş məşqçisi

**Futbol üzrə Azərbaycan millisinin yeni baş məşqçisi postu Ayxan Abbasova tapşırılıb. Dünən AFFA-nın prezidenti Rövşən Nəcəf Ayxan Abbasovla görüşüb. AFFA prezidenti mütəxəssisin U-21 komandasında gördüyü işləri, A millinin DÇ-2026-nın seçmə mərhələsində Ukrayna yığması ilə (1:1) oyundakı çıxışını yüksək qiymətləndirib.**



Rövşən Nəcəf Ayxan Abbasovla komandamızın qarşıdakı oyunları ətrafında fikir mübadiləsi aparıb, milliyə və baş məşqçiyə AFFA rəhbərliyinin dəstəyinin bundan sonra da davam edəcəyini bildirib, komandaya növbəti oyunlarda uğurlar arzulayıb.

## UEFA-nın Əliyar Ağayevə etimadı

**FIFA referisi Əliyar Ağayev UEFA-dan yeni təyinat alıb.**



FIFA referisi Əliyar Ağayev UEFA-dan yeni təyinat alıb. O, UEFA Avropa Liqasının Liqa mərhələsində keçiriləcək “Brann” (Norveç) – “Utrext” (Niderland) matçında ədaləti qoruyacaq.

Ə.Ağayevə yan xətt hakimləri Zeynal Zeynalov və Akif Əmirəli kömək edəcəklər. Dördüncü hakim funksiyasını İnqilab Məmmədov yerinə yetirəcək. Macarıstanlı Tomaş Baqnar VAR, Ferens Karako isə AVAR kimi fəaliyyət göstərəcək.

Qarşılaşma oktyabrın 2-də Bergen şəhərindəki “Brann” stadionunda keçiriləcək.

*Q.ƏLİYEV*
*XQ*

*Çempionlar Liqası*

# Qarabağ Zəfərinə layiq komanda “Qarabağ”

*“Köhlən atlar” daha bir tarix yazmaq əzmindədir*




**Tam əminliklə yaza bilərik: bu gün saat 20:45-də Azərbaycanın “Qarabağ” komandası UEFA Çempionlar Liqası turnirinin əsas mərhələsinin 2-ci turunda Danimarkanın “Kopenhagen” klubu ilə “münasibətləri aydınlaşdırmaq” üçün meydana çıxan kimi azarkeşlər Ağdam kollektivini ayaq üstə alqışlarla qarşılayacaqlar.**

Hamımız 16 sentyabr gecəsində Avropa futbolunun nəhənglərindən biri Lissabonun “Benfika” klubu üzərində çoxlarının qibtə etdiyi tarixi qələbədən (3:2) o qədər ürəklənmiş, o qədər zövq almışıq ki, başqa cür düşünmək olmur. Həmin gecə azarkeşlərin ölkə çempionumuza dərin minnətdarlıq hissi ilə izlədiyi oyunda həyata rəsmən 1911-ci ildə vəsiqə almış Azərbaycan futbolunun 114 illik tarixinə parlaq bir səhifə yazıldı. “Qarabağ”ın Avropa klub futbolunun ən nüfuzlu turnirinin əsas mərhələsində ilk qələbəsi əsl qəhrəmanlıq nümunəsi idi. Özü də bu nümunə Vətəndən uzaqlarda, zəngin futbol ənənələri ilə haqlı olaraq öyünə biləcək ölkədə iddialı rəqibə qarşı ağır mübarizədə göstərilmişdi.

Lissabon sınağından sonrakı iki gündə digər oyunlar da keçirildikdən sonra 36 klubun nəticələrini əks etdirən və hələ də fəxrlə baxdığımız turnir cədvəlində Azərbaycan təmsilçisini yüzfaizli nəticə ilə liderlər sırasında görmək bizim üçün olduqca xoşdur. Üstəlik də təsnifat mərhələlərindən bu anadək səfər oyunlarında ardıcıl 4 qələbə qazanmış yeganə komanda məhz “Qarabağ”dır. Dublində “Şelburn” (İrlandiya), Skopyedə “Şkendiya” (Şimali Makedoniya) və Budapeştdə “Ferentsvaroş”dan (Macarıstan) sonra Lissabonda “Benfika” da komandamızla görüşdən məğlub ayrılmışdır. Bu qələbələr doğma sahillərdən uzaqlarda əvvəldən axıradək soyuqqanlı və cəsarətli mübarizəyə görə layiqli mükafatdır.

Ən başlıcası isə Lissabonda meydana çıxan bütün futbolçularımızın möhkəm iradəsinin və əzmkar mübarizəsinin şahidi olduq. “Benfika” kimi komandanın stadionunda 0:2 hesabı ilə uduzulmaqda olan oyunun gedişində heç nə olmayıbmış kimi ciddi dönüş yaradıb, bir-birindən gözəl 3 qol vurmaq mükəmməl hazırlığın nəticəsidir. Məhz bundan sonra “Qarabağ” təkcə Avropa deyil, dünya futbolunun da gözündə bir qədər də böyüdü. Eləcə də UEFA-nın. Təsadüfi deyil ki, Avropanın ali futbol təşkilatı öz rəsmi saytında daim axtarışda olan və məqsədinə çatmağı bacaran baş məşqçimiz Qurban Qurbanovun və onun futbolçularının ünvanına çox səmimi sözlər yazıb, “Benfika” ilə görüşün ən yaxşı oyunçusu seçilmiş yarımmüdafiəçi Pedro Bikaylonu isə əsas mərhələdə start turunun rəmzi komandası heyətinə daxil edib.

Bu o deməkdir ki, indi heç kim tarixində ikinci dəfə qitənin ən böyük klublarının rəqabət meydanına vəsiqə qazanmış Azərbaycan çempionuna yuxarıdan aşağı baxmır, hamı onun oyunçularının ustalığını və imkanlarını lazımınca qiymətləndirir.

Belə bir xoş mühitdə isə liderlər qrupunda mövqeyi qorumaq və möhkəmləndirmək əzmi istər-istəməz güclənir. Bu gün liqa mərhələsində ikinci oyunumuzda Danimarkanın “Kopenhagen” klubunu qəbul edəcəyik. Futbol ictimaiyyətimizə tanış rəqibdir. Səkkiz il əvvəl, 2017-ci ilin avqust ayında Çempionlar Liqası turnirinin təsnifat mərhələsində “Qarabağ” bu komandaya Bakıda qalib gəlmiş (1:0), Kopenhagendə isə uduzmuşdu (1:2). İki görüşün ümumi yekunu 2:2 olmuşdu.

İndi isə Danimarka təmsilçisi Azərbaycana öz meydanında Almaniyanın “Bayer” (Leverkuzen) klubu ilə görüşdən sonra gəlib. Həmvətənimiz Əliyar Ağayevin idarə etdiyi oyunda, bildiyiniz kimi, “Kopenhagen”in gücü yalnız heç-heçəyə çatıb (2:2).

Qarşıdakı görüşdə qələbə həm də açılış mərasimi 1951-ci il sentyabrın 16-na təsadüf etmiş və 1993-cü ildən unudulmaz hakimimiz Tofiq Bəhramovun adını daşıyan stadionun 74-cü payızına yaxşı töhfə olar. Çempionlar Liqası turnirinin əsas mərhələsində böyük həyəcanla Bakıda ilk qələbəsini gözlədiyimiz “Qarabağ” bu axşam meydana çıxacaq. Ağdam komandası özünə, azarkeşlərinə, Azərbaycan xalqına, yaxında və uzaqlardakı bütün pərəstişkarlarına daha bir tarixi hadisənin sevincini yaşatmaq əzmindədir. Paytaxtımızda da ən böyük qələbələrin hesabını açmaq vaxtı çatıb...

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# III MDB Oyunlarında

## Stend atıcılarımız - 1 gümüş, 2 bürünc

**Azərbaycanın stend atıcıları III MDB Oyunlarında dünən 3 medal qazanıblar.**

Son olaraq səngər stendi üzrə qarışıq komanda yarışlarında Mürtəza Novruzlu ilə Nərmin Cəfərova dueti fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Daha əvvəl kişilər arasında dairəvi stend yarışında Cavid Həsənov gümüş, qadınların yarışında isə Daniella Ulanova üçüncü yeri tutub.

Qeyd edək ki, stend atıcılığı üzrə yarışlara oktyabrın 1-də yekun vurulacaq.

## Çövkən yığmamızın 2 qələbəsi



**Azərbaycanın çövkən yığması III MDB Oyunlarında 2-ci qələbəsini qazanıb.**

Şəki şəhər stadionunda baş tutan yarışda A qrupunda yer alan milli komanda Küveyt yığması ilə üz-üzə gəlib. Görüş Azərbaycan komandasının qələbəsi ilə başa çatıb – 5:0. Yığmamız qrupdakı ilk oyunda da Qırğızıstan üzərində 4:0 hesabı ilə qələbə qazanmışdı.

Qeyd edək ki, çövkən yarışına oktyabrın 7-də yekun vurulacaq.

## Taekvondo medallarımız 22-yə çatdı

**Mingəçevir şəhərində yerləşən “Kür” Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunan III MDB Oyunlarının taekvondo yarışlarında Azərbaycanın 11 təmsilçisi fəxri kürsüyə yüksəlib.**

İdmançılarımızdan Vasif Səlimov (68 kiloqram) qızıl, Nigar Abdullayeva, Leyla Bəşirova (hər ikisi 57 kiloqram), Səmərrux Osmanova, Zemfira Həsənzadə (hər ikisi 49 kiloqram), Zemfira Aslanova, Nərmin Ənsəri (hər iki 67 kiloqram), Fuad Məhərrəmli, Məhəmməd Həsənli (hər ikisi 58 kiloqram), Rza Əsədli (80 kiloqram) və Xan Məmmədzadə (87 kiloqram) bürünc medal qazanıblar.

Yarışların ilk günündə isə taekvondoçularımız 3 qızıl, 2 gümüş və 6 bürünc medal əldə ediblər.

Beləliklə, Azərbaycanın taekvondo komandası III MDB Oyunlarını 22 medalla başa vurub.

## Boksçularımızın uğurlu startı

**Dünən III MDB Oyunlarında boks yarışlarına start verilib. Yevlax Olimpiya İdman Kompleksində təşkil olunan turnirdə boksçumuz Aysel Fərəcova (46 kq) 1/4 final çərçivəsində Aleksandra Kutsikova (Belarus) ilə üz-üzə gəlib.**

O, rəqibinə 5:0 (30:27, 30:27, 30:27, 30:26, 30:26) hesabı ilə qalib gəlib. Fərəcova yarımfinala yüksəlməklə özü üçün azı bürünc medalı da təmin edib. Aysel növbəti görüşünü oktyabrın 2-də özbəkistanlı Ruxşonabonu Ahadovaya qarşı keçirəcək.

Digər zərif təmsilçimiz Cəmilə Muradlı (54 kq) da adını yarımfinala yazdırıb. Boksçumuz startda Niqora Yusupovaya (Tacikistan) ilk raundda tam üstünlüklə qalib gəlib. Özü üçün azı bürünc medalı təmin edən Muradlı finala gedən yolda qazaxıstanlı Adelayda Sadvakassova ilə döyüşəcək. Görüş oktyabrın 2-də baş tutacaq.

63 kiloqramda Haqverdi Həsənov isə 1/4 finalda Bahdan Şaşlikovdan (Belarus) güclü olub. O, rəqibini 3:2 (28:29, 29:28, 30:27, 28:29, 30:27) hesabı ilə məğlub edib. Yarımfinala yüksəlməklə özü üçün azı bürünc medalı təmin edən boksçumuz növbəti mərhələdə rusiyalı David Karababayevlə münasibətlərə aydınlıq gətirəcək. Görüş oktyabrın 3-də olacaq.

Qeyd edək ki, MDB Oyunlarında boks yarışlarına oktyabrın 5-də yekun vurulacaq.

## Üzgüçülükdə 1 qızıl, 4 bürünc



**Gəncə İdman Sarayında III MDB Oyunları çərçivəsində üzgüçülük yarışları davam edir. Azərbaycan üzgüçüsü Oqtay Hüseynov 400 metr məsafəyə qarışıq üzmə yarışında bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub.**

Rusiyalı İlya Yamşanov ikinci, Belarusdan olan Maksim Malışka üçüncü yeri tutub.

4×200 metr məsafəyə sərbəst üsulla üzməkdə Azərbaycan idmançıları Oqtay Hüseynov, Yeqor Maynitskiy, Fərhad Şirməmmədli və Süleyman İsmayılzadə bürünc mükafat qazanıblar.

Rusiya üzgüçüləri qızıl, qazaxıstanlılar isə gümüş medala sahib çıxıblar.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Rumıniyada hoteldə yanğın olub, iki nəfər itkin düşüb

**Rumıniyanın Prahova bölgəsində yerləşən hoteldə baş verən yanğın nəticəsində iki nəfər itkin düşüb. Yanğın Ploeşti şəhəri yaxınlığında qeydə alınıb. Hadisə zamanı hotelin üç əməkdaşı binanı tərk edərək xilas ola biliblər. Məlumata görə, itkin düşənlər Nepal vətəndaşlarıdır. Hazırda onların axtarışları davam etdirilir. Yanğının səbəbi ilə bağlı rəsmi açıqlama verilməyib.**

Qeyd edək ki, ötən il də eyni bölgədə yerləşən başqa bir hoteldə yanğın olub, nəticədə beş nəfər həyatını itirib. Həmin zaman məlum olub ki, hotel fəaliyyət göstərmək üçün rəsmi icazəyə malik olmayıb. Hadisə vaxtı binada 26 nəfər olub.

*XQ*

# HAVA

## Yağış, bəzi yerlərdə dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Güclü şimal-qərb küləyi axşama doğru mülayim şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 15-17, gündüz 17-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-16, gündüz 17-21, dağlarda gecə 4-8, gündüz 9-14 dərəcə isti olacaq.

*Ə. QABİL*
*XQ*

✓ *2014-cü il sentyabrın 29-da Türkiyə Respublikasının Hacettepe Universiteti tərəfindən Əlizadə Elvin Vüqar oğlunun adına verilmiş 011058 nömrəli bakalavr diplomunun şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

✓ *2016-cı il yanvarın 22-də Böyük Britaniyanın Chester Universiteti tərəfindən Əlizadə Elvin Vüqar oğlunun adına verilmiş ali təhsil haqqında 014342 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi baş redaktorun müavini Hümbət Musayevə əzizi

**RƏNA MUSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi və kollektivi Əməkdar artist

**CABİR İMANOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova və aparat işçiləri Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin Həmkarlar İttifaqı Komitəsinin sədri Cahan Bilalovaya atası

**NİZAMİ BİLALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3511
SİFARİŞ 1946
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00